Xalqın qəzeti!

# Xalq qəzeti

№ 264 (30380) 3 dekabr 2023-cü il, bazar

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

xalqqazeti.az

## "Dünya kəsişməsi" və sülhün Azərbaycan diktəsinə ehtiyacı

*İrəvanın 1975-ci il xəritəsinə istinadı və Qərbin Rusiyasız Cənubi Qafqaza "erməni ərməğanı"*



**"Dünya kəsişməsi" və ya "Dünya qovşağı". Məlum olduğu kimi, Ermənistan hakimiyyəti belə bir başlıqlı layihə irəli sürüb. Bu layihə Azərbaycanın Zəngəzur dəhlizi ideyasına alternativ kimi görünməkdədir.**

Görəsən, məqsəd nədir? Əlbəttə, ilk baxışdan olan məqsədi – alternativliyi diqqətə çatdırdıq. Yəni, nəyin bahasına olursa-olsun, Azərbaycana qarşı çıxmaq əzmi aktualdır. Başlıca məqam haqqında söz açdığımız alternativliyin nədən qaynaqlanması ilə bağlıdır. Deməli, söhbət yalnız Azərbaycana qarşı inaddan getmir. Bəlkə, Rusiyaya da qarşı inad məsələsidir? Bəli, bu da var. Suallar çoxdur. Mövzu isə göründüyündən də mürəkkəbdir. Mürəkkəblik özünü bir neçə formada göstərir. Yazımızda bu və digər məqamlara aydınlıq gətirməyə çalışacağıq.

Əvvəla, görək "Dünya kəsişməsi" nədir və o, nə üçün Zəngəzur dəhlizi ilə bir araya gəlmir. Qeyd edək ki, Ermənistan rəhbərliyinin irəli sürdüyü layihə ölkəni Fars körfəzindən Qara dənizə, Türkiyədən Xəzər dənizinə, oradan da Orta Asiyaya gedən yolların qovşağına çevirir. Bu mənada Naxçıvana gedən yolun da İrəvan üçün əhəmiyyəti böyükdür. Onsuz "Dünyanın kəsişməsi", sadəcə, mümkün deyil. Görünür, elə buna görə də İrəvanın Qərbdəki tərəfdaşları Azərbaycana mövcud xüsusda təzyiq göstərməyə çalışırlar. İstəyirlər ki, layihə məhz Ermənistanın dediyi formada reallaşsın. Daha doğrusu, Azərbaycanın Naxçıvana gedən yolun İran ərazisindən keçməsinə dair təşəbbüsü reallaşmasın. Bu təşəbbüs nə üçün meydandadır? Çünki İrəvan üzərinə düşən öhdəliyi yerinə yetirmir. Hansı öhdəliyi, bu barədə də söz açacağıq.

*(ardı 3-cü səhifədə)*

# Azərbaycan İslam dünyasına dostluq və qardaşlıq örnəyidir

## *Prezident İlham Əliyev Dubayda Milli Gün təntənəsində*





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 2-də Dubay şəhərində Birləşmiş Ərəb Əmirliklərinin Milli Günü münasibətilə keçirilən tədbirdə iştirak edib.**

# Avrasiyada yeni dostluq üçbucağı – PAT

## Pakistan–Azərbaycan–Türkiyə alyansı gələcəyə ünvanlanan strateji tərəfdaşlıq layihəsidir

**ABŞ-ın "International Policy Digest" saytı Pakistan-Azərbaycan-Türkiyə (PAT) üçtərəfli alyansına həsr olunmuş məqalə dərc edib. Məqalədə bildirilib ki, geosiyasi şahmat taxtasında maraqlı üçlük yaranır. Söhbət Pakistan, Azərbaycan və Türkiyənin daxil olduğu PAT alyansından gedir. Bu ittifaq Cənubi Asiya, Qafqaz və Yaxın Şərqi birləşdirən yeni dostluq düyünü yaradır. O, ümumi prinsiplərin, qarşılıqlı strateji maraqların və dərin hörmətin vəhdəti ilə möhkəmləndirilir.**



Qeyd olunub ki, bu ölkələr arasında zəngin ikitərəfli keçmişə əsaslanan üçtərəfli əlaqələr son illərdə dinamik inkişaf edir. 2021-ci ildə üçtərəfli Bakı Bəyannaməsinin imzalanması hərbi, iqtisadi, diplomatik və mədəni sahələri əhatə edən çoxşaxəli əməkdaşlığın genişlənməsini simvolizə edib. Alyansın hərbi əlaqələri vahid güc və strateji niyyət nümayiş etdirən birgə təlimlərdə aydın görünüb. Xarici işlər nazirlərinin 2021-ci ildə İslamabadda keçirilən üçtərəfli görüşü onların regional sabitlik və firavanlıq üçün kollektiv istəklərini möhkəmləndirən dönüş nöqtəsi olub.

Alyans çərçivəsində iqtisadi və mədəni əlaqələr fəal inkişaf edir. Ticarət, investisiya, energetika və bir sıra digər sahələri əhatə edən müqavilələr bağlanıb. Üç ölkənin səyahət məhdudiyyətlərini yüngülləşdirməsi mədəni mübadilənin artması, o cümlədən festivalların və idman tədbirlərinin keçirilməsi yolu ilə insanlar arasında əlaqələri gücləndirir. Bundan əlavə, Əfqanıstanda sülh təşəbbüsündən tutmuş Kəşmirdəki mübahisəli vəziyyətə qədər qlobal problemlərin həllində vahid mövqe Türkiyə, Azərbaycan və Pakistanın strateji birliyinə dəlalət edir.

Məqalədə bildirilib ki, Azərbaycanın Pakistanla qarşılıqlı əlaqələri xüsusi diqqətə layiqdir: Heydər Əliyev Fondu təhsil və tibb layihələrini dəstəkləyir və bununla da alyansın humanitar aspektlərini gücləndirir.

Bununla belə, hərbi aspekti də qiymətləndirməmək olmaz. Belə ki, Türkiyənin Pakistanın əsas silah tədarükçüləri sırasına daxil olması İslamabadın ənənəvi müttəfiqlərdən asılılığını azaldan və onun müdafiə arsenalını şaxələndirən strateji dəyişiklikdən xəbər verir.

Qeyd olunur ki, Ankara, Bakı və İslamabad ittifaqı Avrasiya məkanında yeni geosiyasi reallıq formalaşdırır, hər üç ölkənin strateji maraqlarını gücləndirməyə çalışır.

Eyni zamanda, digər regional güclər, xüsusən də İran, Rusiya və Hindistan bu tərəfdaşlığın dərinləşməsini diqqətlə izləyirlər:

*(ardı 6-cı səhifədə)*

# Maraqlar gerçəkliklə üst-üstə düşməyəndə



Səhifə ⇨ 6

# Yaxın Şərq: Müharibə Qəzzaya yenidən qayıtdı



Səhifə ⇨ 11

# Turan Cavid ailəsi haqqında danışmaqdan çəkinirdi



Səhifə ⇨ 10

# Qeyri-neft sektorunun iqtisadiyyatda çəkisi yüksəlib



Səhifə ⇨ 7

# Laos Xalq Demokratik Respublikasının Prezidenti Zati-aliləri cənab Thonqlun Sisulitə

**Hörmətli cənab Prezident!**

Laos Xalq Demokratik Respublikasının milli bayramı – Respublika Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi çatdırıram.

İnanıram ki, xalqlarımızın mənafelərinə uyğun olaraq Azərbaycan ilə Laos arasında dostluq və əməkdaşlıq münasibətləri birgə səylərimizlə bundan sonra da genişlənəcək və möhkəmlənəcəkdir.

Belə bir xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost xalqınıza daim əmin-amanlıq və firavanlıq arzulayıram.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 29 noyabr 2023-cü il**

# Azərbaycanın Baş naziri Birləşmiş Ərəb Əmirliklərinin Vitse-prezidentini təbrik edib

**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov dekabrın 2-də Birləşmiş Ərəb Əmirliklərinin milli bayramı – Müstəqillik Günü münasibətilə Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) Vitse-prezidenti və Baş naziri, Dubayın Əmiri Şeyx Məhəmməd bin Rəşid Əl Maktuma təbrik məktubu ünvanlayıb.**

Nazirlər Kabinetinin mətbuat xidmətindən verilən məlumata görə, məktubda bildirilir ki, Azərbaycan ilə Birləşmiş Ərəb Əmirlikləri qarşılıqlı etimad və dəstəyə əsaslanan dostluq münasibətləri, ortaq dini və mədəni dəyərlər birləşdirir. Bu möhkəm zəmin üzərində qurulan dövlətlərarası əlaqələrin bu gün müvəffəqiyyətlə inkişaf etdiyi qeyd olunur, investisiya, iqtisadi-ticari, bərpaolunan enerji, turizm sahələrində əməkdaşlığın son vaxtlar genişlənməsi xüsusi vurğulanır.

Məktubda, həmçinin Azərbaycan-BƏƏ ikitərəfli əlaqələrinin bir çox istiqamətlər üzrə yaxşı perspektivlərinin olduğu qeyd edilərək qarşılıqlı faydalı əməkdaşlığın genişləndirilməsinin bundan sonra da iki ölkənin xalqlarının rifahına töhfələr verəcəyinə əminlik ifadə olunur.

***XQ***

# Sahibə Qafarova Çex Respublikasında



**Milli Məclisin Sədri Sahibə Qafarova Çex Respublikasına rəsmi səfəri çərçivəsində Çexiya Parlamenti Senatının Sədri Miloş Vıstrçil ilə görüşüb.**

Senatın Sədri ölkələrimiz arasında əlaqələrin inkişaf etdirilməsi baxımından parlamentlərarası münasibətlərin önəmini qeyd edib. O deyib ki, Azərbaycan Çex Respublikası üçün dost ölkədir.

Görüşdə Azərbaycanın etibarlı tərəfdaş olduğu, Avropanın neft-qaz tədarükçüsü kimi əhəmiyyətli rolu vurğulanıb. Ölkələrimiz arasında müxtəlif sahələrdə əməkdaşlığın daha da genişləndirilməsi üçün yaxşı imkanların olduğu diqqətə çatdırılıb.

S. Qafarova Milli Məclisin sədri kimi Çexiyaya ilk rəsmi səfəri olduğunu xatırladaraq deyib ki, səfər ölkələrimiz arasında əlaqələrin daha da möhkəmlənməsinə və genişlənməsinə töhfə verəcək. O, qanunverici orqanlar arasında münasibətlərin dövlətlərimiz və xalqlarımız arasında əlaqələrin inkişafına müsbət təsirini qeyd edib.

Görüşdə regionda mövcud olan vəziyyət, ölkəmizin bölgədə apardığı bərpa və quruculuq işləri barədə qarşı tərəfə məlumat verilib.

***

Milli Məclisin Sədri Sahibə Qafarova Çexiya-Azərbaycan parlamentlərarası dostluq qrupunun üzvləri ilə görüşüb.

S. Qafarova parlamentlərin yaxın münasibətlərinin Azərbaycan və Çex Respublikası arasında əlaqələrin mühüm bir hissəsini təşkil etdiyini qeyd edərək, qarşılıqlı səfərlərin və müntəzəm dialoqun önəminə diqqət çəkib. O, xüsusilə dostluq qrupları arasında təmasların daha da genişləndirilməsinin qarşılıqlı əməkdaşlığa töhfə verəcəyini vurğulayıb.

Çex Respublikası Parlamentinin Deputatlar Palatasında Çexiya-Azərbaycan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Yan Kubik ölkələrimiz haqqında həqiqətlərin, məlumatların ictimaiyyətə doğru çatdırılmasının, parlamentlərarası əlaqələrin genişləndirilməsinin və qarşılıqlı səfərlərin önəmini qeyd edib.

***

Milli Məclisin Sədri Sahibə Qafarova Çex Respublikasının xarici işlər naziri Yan Lipavski ilə də görüşüb.

Yan Lipavski ölkələrimiz arasında münasibətlərin yüksək səviyyədə olduğunu bildirərək deyib ki, iki ölkə arasında hər hansı açıq məvzu yoxdur.

Milli Məclisin Sədri S.Qafarova ölkələrimiz arasında yüksək səviyyəli səfərlərin və görüşlərin davam etdirilməsinin vacibliyini vurğulayıb.

S. Qafarova beynəlxalq münasibətlər sistemində mövcud olan ikili standartları tənqid edərək deyib ki, bəzi dövlətlərə münasibətdə qəbul olunan qərarlar dərhal icra olunduğu halda, bəzən isə beynəlxalq hüquqa məhəl qoyulmadığının şahidi oluruq.

Çexiyanın xarici işlər naziri regionda sabitliyin təmin olunmasında maraqlı olduqlarını, sülh prosesini dəstəklədiklərini bildirib. Qeyd edilib ki, Çexiya Azərbaycanın bu istiqamətdə səylərini müsbət qiymətləndirir.

***Ə.BƏDƏLOV***
***XQ***

# Azərbaycan iqlim dəyişikliyi ilə bağlı öhdəliklərinə sadiqdir





**Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində təşkil olunan BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 28-ci sessiyası (COP 28) çərçivəsində liderlər sammiti keçirilib.**

Sammitdə Prezidentin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev və iqtisadiyyat naziri Mikayıl Cabbarov iştirak ediblər.

Tədbirdə çıxış edən Mikayıl Cabbarov bildirib ki, Azərbaycan Qoşulmama Hərəkatının sədri kimi iqlim dəyişikliyinə xüsusi diqqət ayırıb. "Qlobal təşəbbüslərin qəbul olunmasından sonra Azərbaycan onların qlobal səviyyədə təşviqinə, iqlim təşəbbüslərinin və 2030-cu il gündəliyinin həyata keçirilməsinə möhkəm sadiqliyini nümayiş etdirib. Transformativ dəyişiklikləri təşviq etmək öhdəliyi dayanıqlılığa, inklüziv inkişafa və təmiz enerjiyə xüsusi diqqət yetirməklə milli iqtisadiyyatın yenidən formalaşdırılmasına bağlılığı əks etdirir. İqtisadiyyatların yenidən qurulması qlobal miqyasda effektiv və davamlı maliyyə mənbələri tələb edir. Bu səbəbdən yaşıl inkişafın sürətləndirilməsinə müsbət təsir göstərən özəl sektor investorları üçün imkanları araşdırmaq məqsədilə şəbəkə platformalarının yaradılması çox vacibdir", – deyə Mikayıl Cabbarov vurğulayıb.

Ekoloji davamlılığın Azərbaycanın inkişaf strategiyasında diqqət mərkəzinə çevrildiyini qeyd edən nazir bildirib ki, təmiz ətraf mühit ön planda tutulmaqla yaşıl enerji ən önəmli beş prioritet sahədən birinə çevrilib: "Yaşıl enerjiyə keçidin aparıcı qüvvəsi kimi bərpaolunan enerji mənbələri 2026-cı ilədək Azərbaycanda elektrik enerjisi istehsalının 24 faizini təşkil edəcək. 2030-cu il hədəfimiz isə daha da iddialı olub, bunu 30 faizə qaldırmaqdır. Azərbaycan istixana qazı emissiyalarının 2050-ci ilədək 40 faiz azaldılmasını hədəfləyir.

Otuz ildir Ermənistan tərəfindən işğal altında saxlanılan Qarabağ və Şərqi Zəngəzur ərazisində yaşıl enerji zonasının əsasının qoyulması da hədəfə alınıb. Bununla da iqlim dəyişikliyi sahəsindəki öhdəliklərimizin yerinə yetirilməsinə töhfə verəcəyik. Azərbaycan dayanıqlı inkişafı dəstəkləmək və yaşıl transformasiyaya keçidi asanlaşdırmaqda minatəmizləmə təşəbbüslərinin həlledici rolunu qəbul edir. Minatəmizləmənin regionun rifahına və tərəqqisinə əhəmiyyətli təsirini, eləcə də ölkəmizin inkişafı üçün daha geniş əhəmiyyətini nəzərə alaraq, humanitar minatəmizləmə rəsmi olaraq Azərbaycanda 18-ci Milli Dayanıqlı İnkişaf Məqsədi kimi müəyyən edilib".

***XQ***

# Hikmət Hacıyev: Dubay pavilyonumuz erməni ekosidini əks etdirir

**Azərbaycan Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) Dubay şəhərində baş tutan BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 28-ci sessiyası çərçivəsində sərgilənən Azərbaycan pavilyonu barədə paylaşım edib. Hikmət Hacıyev sosial şəbəkədə yazıb:**

"Dubayda BMT-nin İqlim Dəyişikliyi üzrə Konfransı: Azərbaycanın pavilyonu bizim yaşıl enerji və iqlimlə bağlı siyasətimizi, flora və faunanın müxtəlifliyi, həmçinin Ermənistanın 30 il davam etmiş işğalı zamanı basdırdığı minaların yaratdığı ətraf mühitə təsirləri – torpağın deqradasiyası və eroziyasını, suyun çirklənməsini nümayiş etdirir".

***XQ***

# Azərbaycan XİN BƏƏ-ni təbrik edib

**Azərbaycan Xarici İşlər Nazirliyi Birləşmiş Ərəb Əmirliklərini (BƏƏ) Milli Gün münasibətilə təbrik edib.**

Bu barədə qurumun "X" hesabında yazılıb.

"Dost BƏƏ xalqını və hökumətini Dövlətçilik Günü münasibətilə təbrik edirik. Milli bayramınız mübarək!", – XİN-in təbrikində qeyd olunub.

***XQ***

# Azərbaycan və Bolqarıstan XİN-ləri arasında siyasi məsləhətləşmələr

**Dekabrın 1-də Sofiya şəhərində Azərbaycan Respublikası və Bolqarıstan Respublikası Xarici İşlər nazirlikləri arasında siyasi məsləhətləşmələrin dördüncü iclası keçirilib.**



Azərbaycan Respublikasının nümayəndə heyətinə xarici işlər nazirinin müavini Yalçın Rəfiyev, Bolqarıstan Respublikasının nümayəndə heyətinə xarici işlər nazirinin müavini Tixomir Stoyçev rəhbərlik ediblər.

Məsləhətləşmələr zamanı siyasi, iqtisadi, enerji, nəqliyyat və humanitar sahələr üzrə ikitərəfli münasibətlərin, o cümlədən beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın hazırkı vəziyyəti və inkişaf perspektivləri müzakirə edilib.

Qarşılıqlı yüksək səviyyəli səfərlərin ikitərəfli əlaqələrin inkişafında əhəmiyyəti vurğulanıb və bu xüsusda, növbəti il ərzində gözlənilən səfərlərin əməkdaşlığın hazırkı dinamikasına əlavə töhfə verəcəyi bildirilib.

İki ölkə arasında strateji dialoq və siyasi məsləhətləşmələr mexanizmləri, habelə Azərbaycan Respublikası ilə Bolqarıstan Respublikası arasında ticarət-iqtisadi və elmi-texniki əməkdaşlıq üzrə Müştərək Komissiyanın fəaliyyətinin əhəmiyyəti qeyd olunub.

# BMT-nin forumunda Ermənistanın etnik təmizləmə siyasətindən danışılıb

**Qərbi Azərbaycan İcması Cenevrədə keçirilmiş BMT-nin Azlıqların Məsələləri üzrə Forumunun XVI sessiyasında təmsil olunub.**

İcmanın nümayəndəsi, Milli Məclisin deputatı Şahin İsmayılov tədbirdə çıxış edərək Ermənistanın həyata keçirdiyi etnik təmizləmə siyasəti nəticəsində azərbaycanlıların bir milli qrup kimi Ermənistandan tamamilə qovulduğunu və bu ölkənin monoetnik məkana çevrildiyini qeyd edib.

O, BMT-nin insan hüquqları təsisatlarının rəsmiləri və xüsusi məruzəçilərlə ikitərəfli görüşlər keçirərək Ermənistandan didərgin salınmış azərbaycanlıların problemləri, İcmanın beynəlxalq hüquq çərçivəsində qayıdış hüququ istiqamətində həyata keçirdiyi səylər barədə məlumat verib.

Qeyd edək ki, BMT-nin İnsan Hüquqları Şurasının 2007-ci ildə qəbul etdiyi qətnamə əsasında hər il keçirilən bu Forum milli, etnik, dini və linqvistik azlıqlara dair məsələlər üzrə dialoq və əməkdaşlığın təşviq olunması məqsədi daşıyır.

***XQ***

# "Dünya kəsişməsi" və sülhün Azərbaycan diktəsinə ehtiyacı

## İrəvanın 1975-ci il xəritəsinə istinadı və Qərbin Rusiyasız Cənubi Qafqaza "erməni ərməğanı"

(əvvəli 1-ci səhifədə)

Bəli, "Dünyanın kəsişməsi"nin reallaşması Ermənistanı fundamental tranzit məmləkət durumuna gətirir, müvafiq olaraq, onun iqtisadi imkanlarını genişləndirir və güclənməsini təmin edir. Üstəlik, ölkə mövcud qovşaqda söz sahibi olur. Təbiidir ki, məsələ strateji baxımdan nə Azərbaycana, nə də Türkiyəyə sərfəlidir. Elə Rusiyanın özü və İran üçün də eyni sözü demək mümkündür. İş ondadır ki, Ermənistan hakimiyyəti Qərbyönümlüdür. Həmin Qərb isə əsasən Rusiya və İrana zidd mövqedədir. Hələ bəzi məqamlarda Türkiyəyə də təzyiq göstərməyə çalışır.

"Dünya kəsişməsi" adları çəkilən ölkələrin yanında heç bir inama və etimada sahib olmayan Ermənistanı söz sahibinə, başqa sözlə, quzunu qurda çevirir. Bu layihə Qərbin partonajlığını əsas tutur. O Qərbin ki, Çinlə də münasibətləri rəvan deyil. Axı, nəqliyyat daşımalarında başlıca pay Çinə məxsusdur. Məhz onun mallarının Qərb bazarlarına daha sərfəli şəkildə, yəni vaxt itkisinə yol vermədən çatdırılması başlıca amil kimi çıxış etməkdədir.

***

Gələk, Ermənistanın öhdəliyi məsələsinə. Məlumdur ki, Azərbaycanın siyasi leksikona gətirdiyi Zəngəzur dəhlizi ideyası İkinci Qarabağ müharibəsinin nəticələrini əks etdirən 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatdan irəli gəlməkdədir. O bəyanatdan ki, orada Prezident İlham Əliyevin, Rusiya Prezidenti Vladimir Putinin və Ermənistan baş naziri Nikol Paşinyanın imzaları var. Bu imzalar Azərbaycanın digər ərazilərini Naxçıvanla birləşdirən yolun olmasını təsdiqləməkdədir. Bu imzalar, eyni zamanda, həmin yol üçün Ermənistanın təminat verməli, Rusiyanın isə bilavasitə təhlükəsizliyi təmin etməli olduğunun göstəricisidir. İndiki halda Azərbaycan tələb edən, Rusiya öhdəliyi yerinə yetirməyə hazır tərəfdir, Ermənistan isə öhdəlikdən yayınan.

Ermənistan niyə, hansı səbəbə öhdəliyin icrasından yayınır və nəyi əsas tutaraq bunu edir? Əlbəttə, 1991-ci ilin Alma-Ata Bəyannaməsini. O sənədi ki, orada keçmiş Sovet İttifaqı respublikaları bir-birinin ərazi bütövlüyünü həmin vaxtadək mövcud olmuş sərhədlər çərçivəsində tanıyırdılar. Bu, nə deməkdir? Məsələnin üzərində bir qədər geniş dayanaq.

***

SSRİ 1923-cü ildə formalaşdı. Dövlət yarananda, onun tərkibinə daxil olmuş Azərbaycan Respublikasının sərhədləri indikindən geniş idi. Lakin o dövrdə də erməni məkri öz sözünü demiş və nəticədə digər ərazilərimizin Naxçıvanla yolu, həmin yoldakı torpaqların Ermənistan SSR-ə verilməsi hesabına bağlanmışdı. Beləcə, Azərbaycanın türk dünyası ilə əlaqəsi kəsilmişdi...

Diqqət yetirək, hazırda 1991-ci ilin Alma-Ata Bəyannaməsi üzərində dayanan və həmin sənədə görə dövlətlərin bir-birinin ərazi bütövlüklərini tanımalarının vacibliyini vurğulayan Ermənistan hakimiyyəti ərazinin necə müəyyənləşməsi faktorunu qabardır. Bu zaman 1975-1978-ci illərin xəritələrini əsas götürür. Söhbət SSRİ Müdafiə Nazirliyinin Baş Qərargahının xəritələrindən gedir. İrəvan rəsmiləri bildirirlər ki, bəs, bu, ən son xəritələrdir. Sual doğur: Sözügedən xəritələr son xəritələr olduqları üçün qəbul edilməlidirlər? Belə baxış nə dərəcədə düzgündür? Əslində, bu yanaşma Alma-Ata Bəyannaməsi ilə də uzlaşmır. Axı, həmin sənəddə ərazi konkretliyi anlayışı yoxdur. O zaman yenə sual yaranır: Əvvəlki illərin xəritələrində nə var? Olmazmı ki, həmin xəritələrə istinad olunsun?

Məsələ burasındadır ki, vaxtilə Ermənistana Azərbaycanın Naxçıvana quru yolunun bağlanmasını doğuran hissənin verilməsi qeyri-qanuni xarakter daşıyıb. Ona görə də məsələ yalnız heç bir ciddi əhəmiyyəti olmayan kağız parçası üzərində əksini tapıb. Qeyri-ciddilik özünü həm də onda göstərib ki, SSRİ rəhbərliyi düz 1974-cü ilədək əvvəlki xəritələrə də əl gəzdirməyi düşünməyib. Çox güman, ölkənin rəhbərliyi SSRİ-ni 15 müttəfiq respublikanın, o cümlədən Azərbaycanla, Ermənistanın da daxil olduğu vahid məmləkət hesab edib. O nəhənglikdə dövlətin müqabilində kiçik ərazinin böyük anlamı diqqətə alınmayıb. Digər tərəfdən, türk dünyasını bir-birindən ayırmaq məqsədi o qədər güclü olub ki, sadəcə "torpağı Ermənistana verdik, getdi" kimi primitiv məntiq işə salınıb. Nəhayət, 1975-ci ildən sonrakı xəritələrdə dəyişiklik əksini tapmağa başlayıb. Daha doğrusu, qanunsuzluq.

***

Belədə, 1975-ci il xəritəsinin əsas götürülməsi ilə bağlı yolverilməzliyin üzərinə gələk. Bir halda ki, Alma–Ata Bəyannaməsi SSRİ-nin süqutundan sonra müttəfiq respublikaların ərazi bütövlüyünün tanınması prinsipini əsas götürürdü. Deməli, Sovetlər Birliyinin yarandığı dövrdə həmin respublikaların ona hansı ərazilərlə qoşulmalarına diqqət yetirmək də şərtdir. Azərbaycan Sovet İttifaqından nə üçün torpaq itkisi ilə ayrılmalıdır? Yaxud Ermənistan nəyə görə ərazi qazancı ilə çıxmalıdır? Ona görə ki, erməni millətçiləri SSRİ rəhbərliyində kimisə öz tərəflərinə çəkərək, hansısa saxta sənədə imza atdırıblar? Həmin vaxt Azərbaycan SSR rəhbərliyindən bu barədə nə isə soruşulmuşdumu, razılıq alınmışdımı? Xeyr!

Haşiyə çıxaq ki, Ulu öndər Heydər Əliyevin respublikamıza rəhbərliyinin ilk dövründə Azərbaycanın Naxçıvana gedən quru yolun əlimizdən alınmasını hədəfləyən mənfur plan, o zamankı Dağlıq Qarabağ Muxtar Vilayətinin timsalında da özünü göstərmişdi. Erməni millətçiləri 1969-cu ildən 1987-ci illədək olan müddətin ayrı-ayrı mərhələlərində, hətta ondan əvvəl də Qarabağı Azərbaycandan qoparıb Ermənistana birləşdirməyə səy göstərmişdilər. 1969-cu ildən sonra Heydər Əliyev düşünülmüş addımlarla Qarabağı Azərbaycan kimi vurğulamağa yönəlmiş tədbirlər reallaşdırmışdı. Erməni məkrinə yaxşı bələd olan Ümummilli liderin məqsədyönlü fəaliyyəti nəticəsində separatçı baxışlar boğulmuşdu. Elə ki, Heydər Əliyev 1987-ci ildə SSRİ-dəki vəzifə olimpindən uzaqlaşdırıldı, Ermənistanın və havadarlarının Qarabağ avantürası yenidən qızışmağa başladı. Sonrakı proseslər, o cümlədən, torpaqlarımızın 20 faizinin işğalı, otuz ilədək davam etmiş işğal dövrü isə hamımızın yaxşı yadındadır.

***

Qayıdaq bilavasitə mövzumuza. Bəli, əzəli Azərbaycan torpaqları Azərbaycandan alınıb Ermənistana veriləndə və həmin ərazidə Meğri rayonu formalaşdırılanda bizim fikrimiz nəzərə alınmamışdı. 44 günlük müharibədəki qalibiyyətimiz isə imkan yaratdı ki, fikrimizi diktə edək. Diktə etdik və Ermənistan onun üçün kapitulyasiya aktına çevrilmiş sənədə imza atmaq məcburiyyətində qaldı. Ancaq...

Ermənistanın baş naziri Nikol Paşinyan tez-tez beynəlxalq tribunalarda bildirir ki, rəsmi İrəvan Azərbaycanın 86,6 min kvadratkilometrlik ərazidəki suveren hüquqlarını tanıyır, Azərbaycan da Ermənistanın 29,8 min kvadratkilometrlik ərazidəki suveren hüquqlarını tanıdığını bəyan etməlidir. Ortaya belə bir məsələ çıxır: Ermənistan BMT-yə, Avropa Şurasına, ATƏT-ə və digər strukturlara üzv qəbul edilib. Bu strukturlardan hansısa biri ölkənin suverenliyini 29,8 min kvadratkilometr ərazidə tanıyıbmı? Yaxud hansısa ölkə bunu edibmi? Hamısı, ümumi qaydada Ermənistanın ərazi bütövlüyünü tanıyıb. Yəni, burada konkret rəqəmlər əsas götürülməyib. Elə ərazilər də. Deməli, Ermənistan ərazisinin haradan başlayıb harada bitdiyi də mübahisələndirilə bilər.

Yeri gəlmişkən, bir müddət öncə bu məqama ölkənin baş naziri N.Paşinyan da toxunmuşdu. Onun sözlərindən belə çıxmışdı ki, hazırda bütün çalışması ölkəyə şəhadətnamə almaq üzərindədir. Hətta, məsələni gələcək nəsillərə miras kimi qiymətləndirmişdi. Deməli, Ermənistanın ərazi bütövlüyündən danışılanda, tərəddüdlü düşüncələr Paşinyanın özünə də hakim kəsilib. Axı, tarix və faktlar var. Özü də o tarix heç də uzaqda deyil.

Bəli, Ermənistan hakimiyyəti "Dünya kəsişməsi" ideyasını sadaladığımız məqamları düşünərək irəli sürməkdədir. Ona görə də N.Paşinyan, eləcə də onun komandasındakılar bütün beynəlxalq toplantılarda, qəbullarda əllərində xəritə məsələ barədə söz açırlar. Mövcud xüsusda anti-Azərbaycan ritorikasını təbliğ etmək, ölkəmizin, guya, işğalçı olduğunu vurğulamaq lazımdır ki, dünya birliyi əsl həqiqətlərdən yayınsın.

***

Yekunda belə nəticəyə gəlirik ki, "Dünya kəsişməsi" təşəbbüsü ilə Azərbaycanla sülh üçün Alma-Ata Bəyannaməsinin irəli sürülməsi, o cümlədən, kommunikasiyaların suveren yurisdiksiyalar əsasında açılması məsələləri arasında bağlılıq var. Belə bir "bağlılığın" yaradılması isə rəsmi İrəvanın və onun xaricdəki havadarlarının planıdır. Bu plan qurama dövlət olan Ermənistanın gələcək mövcudluq faktoru olaraq çıxış edir, mövcudluğa leqallıq libası geydirməyi hədəf seçir. Bu plan, eyni zamanda, Rusiyadan asılı olmayan qlobal və güclü erməni faktoru formalaşdırmağa hesablanıb. Elə bir faktor ki, Cənubi Qafqazın, belə demək mümkünsə, Rusiyasızlığı şəraitində həm Azərbaycanı və Türkiyəni, həm də İranı asılı hala salsın. "Dünya kəsişməsi" mövcud istiqamətdəki mexanizmdir. İndiki halda şirnikləndirici tələ.

Bəli, Qərbin bəzi dairələri var gücləri ilə çalışırlar ki, indiyədək Kremlin patronajlığında olan erməni amili pərakəndəlikdən real və sistemli məcraya qədəm qoysun. Əslində, Cənubi Qafqaza əsl "erməni pazı" məhz indi yeridilməyə çalışılır. Əlbəttə, bu, yalnız çalışmadır. Daha doğrusu, cəhddir. Cəhdi edənlər yaxşı anlayırlar ki, istəklərini reallaşdırmaq naminə seçdikləri zaman heç də uğurlu deyil. İlk növbədə ona görə uğurlu deyil ki, Azərbaycan onların niyyətlərini yaxşı oxuyur və ölkəmizin rəhbərliyi tarixdən dərs götürdüyü üçün hazırkı imkanlarını ermənipərəst niyyətlərin qarşısını kəsməyə cəmləşdirib.

Azərbaycanın növbəti erməni avanturizmini beşiyindəcə boğmaq imkanları son dərəcə genişdir. Genişlik Cənubi Qafqaza sülhün Bakının diktəsi və şərtləri ilə gəlməsini prinsipial əhəmiyyətli strateji vəzifə kimi müəyyənləşdirməkdədir. Başqa sülh bizə lazım deyil. Çünki başqa sülh, əslində, sülh də deyil.

***Əvəz CAHANGİROĞLU***
***XQ***









## Daldan atılan daş

# Topal Seyranın "qəhrəmanlıq" nostaljisi

## "Qarabağ münaqişəsinin bitmədiyi"ni deyən Hayastanın eks-müdafiə naziri "əks-hücuma" hazırlaşır

**"Ermənistan ətrafında halqa gündən-günə daralmaqdadır", – deyən Birinci Qarabağ müharibəsinin "qəhrəmanı", Ermənistanın keçmiş müdafiə naziri, hazırda parlamentdə "Ermənistan" fraksiyasının rəhbəri Seyran Ohanyan jurnalistlərlə söhbətində yeni hərbi-taktiki planlar hazırlamağın vacibliyini vurğulayıb. "Əks-hücum planını" necə hazırlayacağını və onu nə vaxt həyata keçirəcəyini məxfi saxlayan Ohanyan Hayastanın 44 günlük müharibədə məğlubiyyətinin səbəbini "Ermənistan Respublikası rəhbərliyinin vaxta uyğun olmayan siyasəti"ndə görürmüş.**

"Qarabağ ətrafında strategiya hazırlamaq lazımdır. Gecikmə "Dağlıq Qarabağ" üçün, bizim üçün dağıdıcı ola bilər". – söyləyən Seyran Ohanyan bundan sonra onlar üçün daha nəyin "dağıdıcı olacağını" açıqlamayıb.

Ohanyana görə, "başa çatmamış Qarabağ münaqişəsi kontekstində" qondarma qurumun subyektivliyini qorumaq üçün ciddi tədbirlər görməyə ehtiyac yaranıb. "Artsax qəhrəmanı" həmin "ciddi tədbirlərin" hansı ərazidə reallaşdırılacağı barədə danışmaqdan yayınıb.

"Ermənistan və "Qarabağ hakimiyyəti" bu istiqamətdə əsas addımları atmalıdırlar. Əgər münaqişə həll olunmayıbsa və Qarabağ öz ərazisində olmasa da, subyekt kimi mövcuddursa, bu o deməkdir ki, beynəlxalq və ya digər məqbul məkanlarda danışıqları davam etdirməkdən başqa alternativ yoxdur. Bu istiqamətdə proseslərdə müəyyən ləngimə, geriləmə var. Amma Ermənistan hakimiyyəti üçün Qarabağ səhifəsi bağlıdır, onlar yalnız humanitar və sosial məsələlərlə məşğul olurlar".



Bunları deməklə özünə və partiyadaşlarına təsəlli verməklə məşğul olan Ohanyan gündəmdə qalmaqdan ötrü Bakının tarixin arxivinə göndərdiyi "artsax xalqı", "Dağlıq Qarabağ Respublikası" kimi "aktual mövzulara" tez-tez müraciət edir. Yəqin iyirmi səkkiz il işğalda saxladıqları Qarabağ üçün nostalji keçirən, Birinci Qarabağ müharibəsində ayağının birini dizdən aşağı itirən, protezdə gəzən Ohanyan xəyallarında Xankəndi ətrafında "virtual qəhrəmanlıqlar" da edir. Əlbəttə, əgər buna macal tapa bilərsə. Axı, neçə aylardır ki, məhkəmələrin yolunu ölçməklə məşğuldur. O, Ermənistanın müdafiə naziri postunu tutduğu 2008-2016-cı illərdə vəzifə səlahiyyətlərindən sui-istifadədə, israfçılıq yolu ilə xüsusilə külli miqdarda əmlakı mənimsəməkdə ittiham olunur. Nazir 2005 və 2009-cu illərdə Ararat vilayətində hərbi hissənin ərazisinin qanunsuz satılması ilə bağlı iki dəfə əmr verib. Torpağın bir hissəsini 3-cü ordu korpusunun keçmiş komandanı Qriqori Xaçaturova satıb və Edqar Arşakyanın adına sənədləşdirib. İkinci hissəni isə 2009-cu ildə Norayru Karapetyana satıb.

"Qəhrəman" zabitdən daşınmaz əmlak maklerinə çevrilən Seyran Ohanyan 1992-ci ilin fevralında Rusiyanın Xankəndidə yerləşən 366-cı motoatıcı alayın tərkibində Xocalı soyqırımının təşkilatçılarından və icraçılarından biridir. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddələri üzrə onun barəsində cinayət işi açılıb.

Müharibə canisi, soydaşlarımıza qarşı çoxsaylı hərbi cinayətlərdə birbaşa iştirak etmiş Seyran Ohanyanın qolları qandallanıb Bakının həbsxanasına salınacağı gün uzaqda deyil. O zaman onun "məxfi planları və taktiki əks-hücum" barədə nəinki danışmağa, hətta bu mövzuda memuar yazmağa xeyli vaxtı olacaq.

***İ.HƏSƏNQALA***
***XQ***

# İlham Əliyev Qafqazda yeni eranın və çağırışların yaradıcısıdır



**Türkiyənin Azərbaycandakı keçmiş səfiri, "İMZA" İctimai Birliyinin Türkiyə üzrə təmsilçisi Hulusi Kılıç "Azərbaycan tarixinin "qızıl 20 ili" və ya İlham Əliyev möcüzəsi" sərlövhəli media açıqlamasında ölkəmizin son 2 onillikdə daxili və xarici siyasətdə əldə etdiyi möhtəşəm uğurlardan, bu müddətdə dünyaya örnək olacaq bir zirvəyə yüksəlmiş Azərbaycan–Türkiyə dostluğunun hər iki ölkəyə qazandırdığı misilsiz dividentdən söhbət açılır.**

**Sabiq diplomat bildirir ki, yazısına başlıq seçdiyi "Azərbaycan tarixinin "qızıl 20 ili" və ya İlham Əliyev möcüzəsi" mürəkkəb təyini hər hansı bir pafoslu ifadə və ya mübaliğə deyil, sadəcə, həqiqətdir:**

– 2003-cü ildən, yəni, Azərbaycan Prezidenti İlham Əliyevin dövlət başçısı seçilməsindən bəri atdığı addımlar, verdiyi qərarlar və ardınca baş verənlər təkcə bizim, Azərbaycan–Türkiyə İttifaqı üçün deyil, Qafqaz bölgəsi, həmçinin geniş anlamda böyük Yaxın Şərq, Avropa, Asiya və bütün dünya üçün nəyə görə fantastik əhəmiyyətə malik bir dövrdür? Gəlin bu dövrü bir neçə aspektdə - siyasi, iqtisadi, geosiyasi və əlbəttə ki, tarixi mənada təhlil etməyə çalışaq.

Bunun üçün, ilk növbədə, hadisələrin sürətlə cərəyan etdiyi o illərə qayıdaq və o zaman gedən proseslərə diqqət yetirək. Həmin dövrdə məhz sadaladığım anlamda real vəziyyət necə idi? Müstəqilliyin ilk illərindəki hərc-mərclikdən sonra 1993-cü ildən Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı ilə başlayan Azərbaycanın keçdiyi tarixi bir yol var idi. Ümummilli lider Heydər Əliyev ölkədəki hərc-mərcliyə son qoyaraq müstəqil Azərbaycanı, sözün əsl mənasında, dövlət kimi formalaşdırmış, əsas strateji hədəfləri müəyyənləşdirmiş, ölkəni sabit inkişaf relsləri üzərinə çıxarmışdı. Özü də bu strateji hədəfə çox ağır şərtlər altında, de-fakto ciddi basqıların mövcud olduğu zamanda nail olmuşdu.

Bu siyasətin məqsədi o dövr üçün həssas istiqlaliyyət şərtlərində əsas istiqamət kimi siyasi, iqtisadi, hərbi mənalarda Türkiyə ilə dərin inteqrasiya etmək, güclü müttəfiqlik bağları yaratmaq, geniş anlamda isə Türk birliyinin köklərini atmaq idi. Təbii ki, o böyük insan dövrünün Atatürk düşüncəsi, strategiyası ilə hərəkət edirdi. Bu arzusunu zamanın ağır şərtlərinə, xarici təzyiqlərinə rəğmən cəsarətlə dillə gətirir, əsl niyyətini heç özü də gizlətmirdi. O, Atatürkün və onun yolunun böyük heyranı idi. Ulu öndər demişdi ki, "Biz Türkiyə ilə bir millət, iki dövlətik!".

Bəli, Heydər Əliyev Azərbaycan dövlətini artıq qurmuşdu. Tarix özü illər keçəndən sonra da o böyük şəxsiyyət və dövlət xadiminin Azərbaycan, Türkiyə və bütün Türk dünyasının faydası üçün nələr etdiyini, hansı xidmətlər göstərdiyini mütləq yazacaq. bundan sonra və gələcək tarixçilər nəsli onun millətimiz üçün xidmətlərini daha səmərəli şəkildə qələmə alacaqlar. Buna heç bir şübhə olmasın.

**"2003-cü il... Ulu öndər Heydər Əliyev haqqın rəhmətinə qovuşmuş, amma bundan əvvəl özünün siyasi varisini elan etmişdi. Azərbaycan siyasətinin yeni Lideri və Heydər Əliyevin siyasi varisi İlham Əliyev idi". Məqaləsinin ikinci hissəsinə bu sözlərlə başlayan sabiq diplomat açıqlamasının davamında yazır:**

– Azərbaycan xalqı böyük oğlunu itirməyin şokunu, ağrısını və matəmini yaşayır, onsuz bu xalqın və dövlətin gələcəyinin necə olacağını çox düşünürdü. Bu sual bizi – Türkiyəni də çox düşündürürdü. Nigaran baxışlarımız can Azərbaycana yönəlmiş, necə deyərlər, gözümüz və qulağımız daim burada idi. Ancaq millətimizin bu çətin dönəmdə bir təskinliyi də var idi. Həyatını Azərbaycana həsr etmiş Heydər Əliyev əsla özünə siyasi varis seçərkən səhvə yol verməz, oğlu belə olsa, xalqına xidməti və onun gələcəyini düşünərək qərar verər, məhz bu sədaqət prinsipinə önəm verərək addım atardı.

– Zaman göstərdi ki, bu, nə qədər doğru və tarixi seçim olub. Beləliklə, Prezident kimi ilk müsahibəsini verən Azərbaycanın yeni Lideri İlham Əliyev açıq şəkildə dedi: "Yolumuz Heydər Əliyevin yoludur!". Bu tarixi açıqlama siyasi mənada o demək idi ki, tam müstəqillik yolu davam etdiriləcək, Qarabağ probleminin həlli Azərbaycanın xarici, daxili, hərbi və hərbi-siyasi strategiyasının əsası olacaq. Türkiyə ilə inteqrasiya siyasəti və xətti tam sürətlə davam edəcək. Türk dünyası ilə inteqrasiyada tədrici yol tutulacaq, proses Türk adı gələndə onsuz da "əsəb keçirən" böyük gücləri qıcıqlandırmadan həyata keçiriləcək, ancaq bu hədəf mütləq reallaşdırılacaq. Necə ki, reallaşdı da!

Şəxsən mən özümü ona görə xoşbəxt hiss edirəm ki, Türkiyənin Azərbaycanda ozamankı səfiri olaraq bu prosesin canlı şahidiyəm. O vaxt tarixi bir hadisə baş verdi: 2009-cu il oktyabrın 3-də Azərbaycan, Türkiyə, Qazaxıstan və Qırğızıstan qədim Türk diyarı Naxçıvanda Türk Şurasının təməlini atdılar. Bu, əslində, Türk Dövlətləri Təşkilatının əsasının yaradılması idi. Bu işin sonunun nə ilə nəticələnəcəyi hamıya gün kimi aydın idi. İllərlə çəkilən zəhmətin nəticəsi isə daha da böyümək və güclənmək oldu.

**2021-ci il noyabrın 12-də İstanbul Zirvə görüşündə Türk Dövlətləri Təşkilatının adı rəsmən bütün dünyaya elan edildi. Bu 4 ölkəyə sonradan Özbəkistan, Şimali Kipr Türk Respublikası, Türkmənistan və Macarıstan da qoşulub. Yuxarıda qeyd etdiyim kimi, bu inteqrasiya prosesində Türk dünyasının iki böyük oğlu İlham Əliyev və Rəcəb Tayyib Ərdoğanın böyük xidmətləri var.**

2011-ci il oktyabrın 24-də 193 ölkədən 155-nin müsbət rəyini alaraq BMT Təhlükəsizlik Şurasına iki il müddətinə (2012-2013) qeyri-daimi üzv seçilməsini "İlham Əliyev liderliyi ilə Azərbaycanın xarici siyasətinin ən ciddi uğurlarından biri" adlandıran Hulusi Kılıç bildirir ki, bu diplomatik qələbə Azərbaycana, onun liderinə beynəlxalq aləmdə olan böyük inamın və etimadın təzahürüdür:

– Daha bir beynəlxalq uğur isə BMT-dən sonra dünyanın ən böyük ikinci təsisatı olan Qoşulmama hərəkatının 2019-cu ilin 25-26 oktyabr tarixlərində Bakıda keçirilən Zirvə toplantısında quruma sədrliyin 2019-2022-ci illər üçün Azərbaycana keçməsi oldu. Bu, pandemiyanın hökm sürdüyü çox ağır dövr idi. Hərəkata sədrlik etməyə başladığı zaman Azərbaycan Prezidenti İlham Əliyevin əsl dünya lideri kimi verdiyi qərarlar ön plana çıxdı. Hamı gördü ki, hətta böyük ölkələr də koronavirus pandemiyası zamanı özlərini itirdikləri vaxt Azərbaycan dünyanın bu bəladan xilas olması naminə hansı rasional addımları atdı.

BMT Baş Assambleyasının bu bəla ilə mübarizə məqsədilə fövqəladə sessiyası Azərbaycanın təşəbbüsü ilə çağırıldı. Ümumiyyətlə, bu təsisat yarandığı dövrdən uzun müddət keçəndən sonra ilk dəfə beynəlxalq siyasətdə ciddi şəkildə fəaliyyət göstərməyə başladı. Ona görə də üzv ölkələr Azərbaycanın sədrliyini daha bir il uzatdılar. Hərəkatın fəallığı Vətən müharibəsi zamanı özünü bir daha göstərdi. Üzv ölkələr Azərbaycana qarşı hazırlanan təxribatçı sənədin qəbulunun qarşısının alınmasında həlledici rol oynadılar.

Xüsusi vurğulamaq lazımdır ki, Prezident İlham Əliyev Azərbaycanın tam müstəqil siyasət həyata keçirməsini artıq təmin edib. Hamıya məlumdur ki, beynəlxalq konyukturanın mövcud olduğu indiki şəraitdə bunu reallaşdırmaq nə qədər çətindir. Azərbaycan Prezidentinin dediyi bir sözü hər zaman çox yüksək qiymətləndirirəm və cəsarət nümunəsi hesab edirəm. Dövlət başçısı həmişə deyir ki, hətta özündən güclü ölkələrin qarşısında belə haqqımızı müdafiə etmək üçün qorxmadan mübarizə aparmaq lazımdır. Bəli, bu illər ərzində İlham Əliyev beynəlxalq münasibətlər sistemində dəmir iradəli siyasi lider kimi hamıya nümunə göstərdi.

**Müəllif daha sonra xatırladır ki, dövlətinin, millətinin maraqları naminə hər kəsə öz yerini göstərməyi bacaran Azərbaycan lideri Vətən müharibəsi zamanı da başda Fransa olmaqla, Ermənistanın havadarlarının göstərdikləri bütün təzyiqləri qətiyyətlə dəf etdi:**

– Onun bu qüdrəti cəbhədə mübarizə aparan zabit və əsgərlərə də böyük motivasiya oldu, Azərbaycan xalqının Qələbəyə inamını daha da artırdı. 44 günün sonunda Ermənistan kapitulyasiyaya imza atmaq məcburiyyətində qaldı. 2023-cü il sentyabrın 19-da isə Azərbaycan Ordusu cəmi 23 saat 49 dəqiqəyə Qarabağdakı terror yuvasını darmadağın etdi. Bu tədbirlər Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin bilavasitə liderliyi sayəsində bir nəfər də mülki şəxsin burnu belə qanamadan uğurla başa çatdırıldı. Azərbaycan bütün torpaqlarında öz suverenliyini bərpa edərək, ərazisində erməni separatçılığına son qoydu.

Bu da böyük tarixdir ki, gələcəkdə onun qiyməti nəsillərimiz tərəfindən daha geniş, ətraflı şəkildə təhlil olunacaq. Onsuz da hazırda bütün dünyada



Azərbaycan hərb sənətinin sirləri yaxından öyrənilir və örnək göstərilir. Savaş dönəmində Türkiyənin Azərbaycana verdiyi mənəvi-siyasi dəstək isə Azərbaycan xalqına əbədi sevgimizin və məhəbbətimizin, həm də qan bağlarımızın yaratdığı məsuliyyətin dərk edilməsi, həmçinin hər iki liderin qətiyyəti sayəsində mümkün oldu. Bu bağlılıq izahı sözlə mümkün olmayan bir fenomendir. İndi Qafqaza sülhün gələcəyi ilə bağlı ümidləri dünənə nisbətən daha da çoxdur.

**Bu yerdə bir tarixi məqama da toxunan keçmiş səfir Prezident İlham Əliyevin və Prezident Rəcəb Tayyib Ərdoğanın bir-biriləri ilə əsl dostluq və qardaşlıq münasibətləri quraraq iki qardaş ölkənin daha da yaxınlaşmasını təmin etdiklərini vurğulayır:**

– Şuşa Bəyannaməsi bu prosesin zirvəsi idi. 2021-ci il iyunun 15-də Azərbaycanın mədəniyyət paytaxtında imzalanmış bu tarixi sənəd - "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında" Bəyannamə qısa müddət sonra hər iki ölkənin parlamenti tərəfindən ratifikasiya edilərək qanun qüvvəsi qazanıb. Yəni, artıq Azərbaycan və Türkiyə rəsmən müttəfiq olublar. Sənəd həm də hərbi-siyasi baxımdan ciddi bir təhlükəsizlik paktı kimi qiymətləndirilməlidir.

Unutmayaq ki, Türkiyə həm də NATO-nun üzvüdür. Bu baxımdan Şuşada prezidentlər Rəcəb Tayyib Ərdoğan və İlham Əliyevin imzaladıqları bu tarixi anlaşmanın beynəlxalq əhəmiyyəti də təhlükəsizlik məsələlərində çox ciddi yer qazanmış olur. Yəni, sənəd, sadəcə, Cənubi Qafqazda sabitlik baxımından deyil, daha geniş arealda təhlükəsizlik nöqteyi-nəzərindən müstəsna əhəmiyyətə malikdir. Bu addım bütün Türk dövlətlərinə Turan yolunda siyasətlərini uzlaşdırmaq və əlaqələndirmək üçün nümunəvi bir yol oldu. Son proseslər həm də onu göstərdi ki, İlham Əliyevin siyasətində əsas hədəf olan Qarabağın azad edilməsi bütün prosesləri xeyrimizə, bəli, bütün Türk aləminin xeyrinə necə müvəffəqiyyətlə dəyişdi! İndi yeni bir reallıq ortadadır. Dünya dövlətləri bu gün bizimlə yaxınlaşmaq, dost olmaq üçün, sanki, növbəyə durub. Bu o deməkdir ki, ötən 20 ildə yürüdülən siyasət nə qədər müdrik, uzaqgörən olub.

Bir məqama da diqqət etmək vacibdir. İlham Əliyev siyasəti dünya ilə qarşıdurmaya əsla yönəlməyib. Əksinə, Azərbaycan Avropaya, Asiyaya və hamıya bərabərhüquqlu münasibətlər sistemi qurmağı təklif edir. Əgər istənilən addımlar zamanında və rasional meyarlara söykənilərək atılarsa, o vaxt 44 günlük Vətən müharibəsindən sonra Azərbaycanın və Türkiyənin təklif etdiyi modellər maraqlı dövlətlərin, xüsusilə də region ölkələrinin hər birinə fayda verəcək.

**"Beləliklə, siyasi xətt tam mənası ilə aydındır: Əsas hədəf Türkiyə ilə sıx inteqrasiya, Türk Dövlətləri Təşkilatının gücləndirilməsi, bütün ölkələrlə bərabərhüquqlu əməkdaşlıq, dünya azərbaycanlılarına sahib çıxmaq və dövləti daha da gücləndirmək. Təbii ki, bu hədəflərə çatmaq üçün, ilk növbədə, iqtisadi güc olmalıdır." Hulusi Kılıç bu mülahizəsini aşağıdakı arqumentləri ilə isbatlayır:**

– Prezident İlham Əliyev demək olar hər çıxışında bu amili vurğulayır ki, iqtisadi güc ölkənin təhlükəsizliyində ən vacib amillərdən biridir. Güclü ordu qurmaq, hərbi-sənaye potensialı formalaşdırmaq da təbii ki, bu işin əsas meyarlarından biridir. Azərbaycanın bu mənada da uğurları, sadəcə, həsəd aparılasıdır. Bir məqamı əsla unutmaq olmaz. Bu nailiyyətlərin qazanılmasında, heç şübhəsiz, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva Prezident İlham Əliyevin ən yaxın silahdaşı olub. Onun Azərbaycanı dünyaya tanıtdırmaq üçün gördüyü işlərin özü böyük bir tarixdir. Gələcəkdə bu haqda da mütləq çox güclü əsərlər yazılacaq.

Azərbaycan liderinin iqtisadi siyasəti isə əsl möcüzədir. Xatırlayırsınızsa, İlham Əliyev ölkəsinin əsas hədəfinin neftdən asılılığı azaltmaq olduğunu elə ilk günlərdən elan etmişdi. İqtisadiyyat mütləq şaxələndirilməlidir. Hədəf o idi ki, gələcəkdə iqtisadi risklər neft-qaz amilinə görə ölkə iqtisadiyyatına zərbə vurmasın, davamlı inkişaf digər sektorların gücləndirilməsi hesabına sabit şəkildə təmin edilsin. Bəli, 20 ildə məhz bunlar həyata keçirildi.

Neftdən gələn gəlirlər həm Azərbaycanın güclənməsinə, həm xalqın rifahına xidmət etdi, eyni zamanda, digər sektorların inkişafını stimullaşdırdı. Dövlət büdcəsinin gəlirləri dəfələrlə artıb. Azərbaycana 310 milyard dollar sərmayə yatırılıb. Bunun 200 milyard dolları qeyri-enerji sektoruna qoyulub. Bunlar çox ciddi rəqəmlərdir. Bu gün qarşıda yeni iqtisadi hədəflər var. Azərbaycan yeni şəraitdə bu hədəflərə də mütləq nail olacaq.

O da faktdır ki, Türkiyə və digər Türk dövlətləri ilə sıx iqtisadi əlaqələr davamlı və sabit iqtisadi inkişafda mühüm rol oynayır. Qeyd etdiklərim bir daha onu təsdiqləyir ki, İlham Əliyevin Prezident seçilməsindən ötən 20 il ölkə üçün əsl qızıl dövrdür. Nəticəyə diqqət edin: Qarabağ problemi artıq tarixdir, ərazi bütövlüyü təmin edilib, dövlət, onun ordusu çox güclüdür, xarici təsirlər uğurla dəf edilir, Azərbaycan istədiyi tam müstəqil xarici siyasətini uğurla həyata keçirir, öz milli maraqlarını qəbul etdirməyi bacarır, iqtisadiyyat inanılmaz templərlə şaxələndirilir və inkişaf etdirilir, alternativ enerji sahəsinə ciddi yerli və xarici yatırımlar edilir. Ümumiyyətlə, Azərbaycana xaricdən böyük sərmayələr gəlir ki, bu da davamlı inkişafın əsas şərtlərindən biridir.

**Ölkəmizin diplomat dostunun aktual məqaləsi belə bir ümumiləşdirmə ilə bitir:** "Beləliklə, 20 ilin tarixi rezüməsi odur ki, Azərbaycan və onun böyük oğlu Prezident İlham Əliyev Qafqazda türkün daha bir ulduzunun parlamaqdan çox irəli getdiyini sübut edərək, yeni bir eranın və onun çağırışlarının yaradıcısı olub. Bunun adı qızıl dövrdür. Bu xoşbəxtlik ulduzu heç zaman sönməyəcək. Əmin olun, bütün Türk aləmi sizinlə qürur duyur və sizi özünə örnək hesab edir, əziz və Can Azərbaycan xalqı!".

***XQ-nin analitik qrupu***

# "İlham Əliyevin Gürcüstan siyasəti: enerji strategiyası kontekstində"

**Gürcüstanın Qardabani rayonunda Ümummilli lideri Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr edilmiş "İlham Əliyevin Gürcüstan siyasəti: enerji strategiyası kontekstində" kitabının təqdimat mərasimi keçirilib. Tədbir çərçivəsində, həmçinin Ulu öndərə həsr olunmuş fotosərgi açılıb.**

Kitabın müəllifləri akademik Həsən Əliyev adına Coğrafiya İnstitutunun böyük elmi işçisi Natəvan Cəfərova və elmi işçi Kamran Ramazanlıdır.

Kamran Ramazanlı bildirib ki, kitabı ərsəyə gətirməkdə əsas məqsəd Ulu öndərin siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyevin Gürcüstan siyasətini, eləcə də dövlətimizin başçısının enerji siyasətini təhlil etmək və oxuculara bu barədə ətraflı məlumat verməkdir.

Qeyd edək ki, kitab Azərbaycan və gürcü dillərində nəşr edilib.

***XQ***



# Ulu öndər Mingəçeviri müasir sənaye şəhərinə çevirdi



**Əsası su elektrik stansiyasının tikintisi ilə qoyulan Mingəçevir 1948-ci ildə şəhər statusu alsa da, gənc şəhərin inkişaf dövrü Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra başlamışdır. Azərbaycanın gələcək müstəqilliyini görən Heydər Əliyevin təşəbbüsü və gərgin səyi nəticəsində 1974-cü ildə Cənubi Qafqazın ən iri elektrik enerjisi istehsalı müəssisəsi olan Azərbaycan İES-in tikintisinə başlanmış və 1981-ci il oktyabr ayının 20-də Ulu öndərin təşəbbüsü və bilavasitə rəhbərliyi ilə tikilib istifadəyə verilmişdir.**

Bu möhtəşəm hadisə Azərbaycan energetikasının inkişafında yeni bir mərhələnin əsasını qoymuşdur. Sovetlər İttifaqında həcminə və görülən işlərin miqyasına görə nəhəng tikililər sırasında duran Azərbaycan Dövlət Rayon Elektrik Stansiyası Cənubi Qafqazın ən böyük enerji müəssisəsidir. Bu müəssisənin Azərbaycanda tikilməsi keçmiş Sovet rəhbərliyində heç də birmənalı qarşılanmayıb. Stansiyanın Gürcüstanda və ya Özbəkistanda tikilməsinin tərəfdarları daha çox olub. Lakin Heydər Əliyevin bu məsələlərlə bağlı qətiyyətli mövqeyi respublikada bir deyil, iki güclü elektrik stansiyasının tikintisinə imkan yaratdı. Azərbaycan DRES-lə bərabər Şəmkir SES-in də tikintisinə razılıq verildi.

Azərbaycan KP MK-nın 1-ci katibi Heydər Əliyevin yeni Azərbaycan DRES-nə diqqət və qayğısı böyük olmuşdu. Ulu öndər dəfələrlə respublika partiya təşkilatlarının ali məclislərində, fəallar yığıncağında DRES-in iqtisadiyyatımız üçün çox mühüm rol oynayacağını qeyd etmişdi. DRES-in tikintisi eyni zamanda respublikada bu sahə üzrə yerli energetik, mühəndis, inşaatçı heyət üçün böyük təcrübə məktəbi oldu.

"Mingəçevir təkcə energetiklərin şəhəri deyil, kimyaçıların, toxucuların deyil, bütün Azərbaycanın gözəl şəhəridir", –deyən Ümummilli liderin mingəçevirlilərə göstərdiyi bu diqqət hər birimizin qəlbində əbədi və silinməz izlər buraxıb.

Respublikada həmin dövrdə kimya sənayesinin inkişafına xüsusi diqqət yetirilirdi. Bakı və Sumqayıtla yanaşı, regionlarda da kimya müəssisələri tikilib istifadəyə verilirdi. Mingəçevirdə bu sahədə istifadəyə verilən yeni müəssisələrdən biri də Texniki-rezin məmulatları zavodu idi. Zavod 1971-ci ildə tam gücü ilə istifadəyə verilmişdi. Zavodda sənaye, kənd təsərrüfatı, dəmir yolu nəqliyyatı, neft sənayesi və xalq təsərrüfatının başqa sahələri üçün 300-dən artıq müxtəlif növ texniki-rezin məmulatları hazırlanırdı. Zavod fəaliyyətə başladığı ildə 3 milyon 410 min manatlıq məhsul istehsal etdiyi halda, 1975-ci ildə istehsal olunan məhsulun dəyəri 25 milyon manatlıqdan çox olmuşdu. 1971-1975-ci illərdə zavodda məhsul istehsalı 8 dəfədən çox artmış, əmək məhsuldarlığı 7,6 faiz yüksəlmişdir. Müəssisə SSRİ-dəki bu yönümlü 58 zavod arasında məhsul istehsalına görə 5-ci yerə çıxmışdı.

Mingəçevirdə fəaliyyət göstərən kimya profilli digər müəssisələrdən biri də şüşə mahlıc zavodu idi. Bu zavodda əsasən elektroizolyasiya, istilik izolyasiyası və hidroizolyasiya təyinatı üzrə parçalar və elektrik mühərriklərinin daxili sarğılarının izolyasiyası üçün şüşə lentlər istehsal edilirdi.

"Nurlar şəhəri"ndə fəaliyyət göstərən "Azərelektroizolyasiya" zavodu respublikanın xalq təsərrüfatında mühüm əhəmiyyət kəsb edən müəssisələrdən sayılırdı. Zavodun tarixində 1970-1980-ci illər ən məhsuldar dövr olmuşdu. Bu illər ərzində zavodda yeni texnologiya və texnikanın, mütərəqqi iş üsullarının tətbiqi sahəsində əmək məhsuldarlığı xeyli artmışdı. Hər cür iş şəraitinə davam gətirən şüşə borular da respublikada ilk olaraq bu zavodda istehsal olunmuşdu. Zavodda 1971-1975-ci illər arasında məhsul istehsalı 76 milyon manatlıq təşkil etmişdi. Bu göstərici əvvəlki beşilliyə nisbətən 44 milyon manat çox olmuşdu. 1970-ci ildə zavodda əmək məhsuldarlığı 112,5 faiz olduğu halda, bu göstərici 1975-ci ildə 206,4 faiz olmuşdu.

Əsas sexlərin yenidən qurulması, qabaqcıl iş metodlarının istehsala tətbiqi, texnoloji proseslərin ardıcıl surətdə təkmilləşdirilməsi zavodun məhsul istehsalında yüksək göstəricilərin qazanılmasına səbəb olmuşdu. Müəssisədə müxtəlif profilli izolyasiya materiallarının istehsalını genişləndirmək üçün SSRİ Elektrotexnika Sənayesi Nazirliyi 1975-ci ildə bu zavodun nəzdində elmi şöbə yaradılmasını məqsədəuyğun hesab etmişdi. Müəssisənin əməkdaşları keçmiş İttifaqın Dnepropetrovsk Kimya-Texnologiya və Leninqrad (Sank-Peterburq) Politexnik İnstitunun əməkdaşları ilə qarşılıqlı təcrübə mübadiləsi aparırdı. Elmi şöbənin fəaliyyəti müddətində 27 mühüm ixtira barədə Moskvaya məlumat verilmiş, bunun 9-u müəlliflik şəhadətnaməsi almışdır. Səksəninci illərin ortalarına qədər zavodun ümumi istehsalının 70 faizə qədərini fəxri beşguşəli emblem vurulmuş elektrik izolyasiya məmulatları təşkil edirdi. Bu sahədə zavod Ümumittifaq Elektroizolyasiya Birliyinin tabeliyindəki müəssisələr içərisində fərqlənirdi.

Mingəçevirin sənaye şöhrətini artıran digər müəssisələrdən biri də "Azərkabel" zavodu olmuşdu. Şəhərin ən böyük sənaye obyektlərindən biri olan bu zavod, həm də, respublikada kabel istehsal edən yeganə müəssisə idi. Heydər Əliyev bu zavodun fəaliyyətini yüksək qiymətləndirərək qeyd etmişdi ki, bu müəssisə ölkəmizi neft lampalarından xilas edib. Zavod keçmiş İttifaqın xalq təsərrüfatına 10 milyondan manatlıqdan çox müxtəlif markalı məhsul verdi. Dünyanın 16 ölkəsinə zavod öz məhsullarını ixrac edirdi. Bunlar arasında Türkiyə, Vyetnam, İran, Əfqanıstan, Almaniya Demokratik RespublikasI, Əlcəzair və sair ölkələr də var idi .

Zavodda iş prosesi zamanı əmələ gələn tullantılardan məişətdə istifadə məqsədilə təkrar emal sexi yaradılmışdı. 1970–1975-ci illərdə kabel məhsullarının istehsalında böyük uğurlar qazanılmışdı: məhsul istehsalı 148 faizə çatmış, əmək məhsuldarlığı 158,2 faiz olmuşdu. Zavodda yeni texnika və texnologiyanın tətbiqi məhsulun keyfiyyətinin yaxşılaşmasına da öz təsirini göstərmişdi. Zavodun geofiziki məqsədlər üçün istehsal etdiyi kabellər xarici ölkələrə də uğurla satılırdı. Həmin kabellər üçün zavod bir sıra ölkələrdən böyük həcmdə sifarişlər alırdı. "Azərkabel" zavodu Ümumittifaq əhəmiyyətli müəssisələr səviyyəsinə yüksələrək "Zaqafqaziyakabel" Birliyinə daxil edilmişdi. 1979-cu ildə zavodda 381 adda yüksək keyfiyyətli məhsul hazırlanmış və 8 adda məhsul dövlət keyfiyyət nişanı ilə istehsal edilmişdi.

1970-1980-ci illərdə respublikada kənd təsərrüfatının sənaye təməli üzərində qurulmasına, əl əməyinin yüngülləşdirilməsinə kömək edən ən müasir texniki vasitələrin işə tətbiq olunmasına xüsusi diqqət yetirilirdi. Kənd təsərrüfatı təyinatlı maşınqayırma sənayesində daha əhəmiyyətli müəssisələrin yaradılması sahəsində ciddi işlər görülürdü. Bu baxımdan Mingəçevir yol maşınları zavodu mühüm əhəmiyyət kəsb edirdi. Bu zavodda istehsal olunan müxtəlif markalı maşınlar SSRİ-nin onlarca kənd təsərrüfatı rayonuna göndərilirdi. Respublikada ilk dəfə olaraq bu zavodda "USP" (rəqəmlə idarə olunan avadanlıq) markalı universal yığma qurğusu işə salınmışdı. Bu qurğu texnoloji quruluşundan asılı olmayaraq, hər cür ehtiyat hissələri hazırlamağa imkan verirdi.

Zavodda hazırlanan çalaqazan maşınlar, avtoyükləyicilər, su nasosları, buldozerlər müxtəlif təsərrüfat sahələrində çox uğurla istifadə edilirdi. Hətta bu zavodda istehsal edilən "KYAU-100"markalı xəndəkqazan maşınlar təkcə respublika daxilində deyil, onun hüdudlarından kənarda da tanınırdı. Bu maşın 1972-ci ilin oktyabrında Moskvada keçirilən "Kənd Təsərrüfatı Texnikası-73" sərgisində 1-ci dərəcəli diploma layiq görülmüş və bir sıra ölkələrin diqqətini cəlb etmişdi. Elə həmin ildə Macarıstan və Qvineyaya sifariş əsasında 30 ədəd xəndəkqazan maşın göndərilmişdi. Yeni texnika və texnologiyanın tətbiqi, istehsal proseslərinin mexanikləşdirilməsi nəticəsində zavodda əmək məhsuldarlığı artmış, müəssisə min manatlarla əlavə iqtisadi səmərə əldə etmişdi.

Respublikada bu dövrdə kənd təsərrüfatının inkişafına olan diqqəti 1972-ci ildə Mingəçevirdə açılmış daha bir müəssisənin fəaliyyətində görmək olardı. Mingəçevir Tikinti yol maşınları təmiri zavodu 1972-ci ildə Azərbaycan SSR Kənd Tikintisi Nazirliyinin dəstəyi ilə yaradılmışdır. 1973-cü ildə tam gücü ilə fəaliyyətə başlayan zavod xüsusilə kənd təsərrüfatında istifadə olunan maşın və mexanizimlərin təmiri üzrə ixtisaslaşdırılmışdır. Zavodda kənd təsərrüfatı üçün müxtəlif maşınlar, mexanikləşdirilmiş yedəklər, eləcə də heyvandarlıq və quşçuluq fermaları üçün metal konstruktorlar istehsal olunurdu. Zavodda istehsal olunan yüksək məhsuldarlığa malik kiçik qabaritli susoyuducu qurğuların böyük təsərrüfat əhəmiyyəti vardı.

Mingəçevirdə istehsal olunan məhsulların əksəriyyəti kənd təsərrüfatı obyektlərində geniş şəkildə tətbiq olunurdu. Burada kənd təsərrüfatı sahəsində ixtisaslaşan və yenidən qurulan müəssisələrdən biri də Təcrübi Eksperimental Sınaq zavodudur. Bu müəssisə şəhərdə respublika rəhbəri Heydər Əliyevin şəxsi təşəbbüsü ilə açılmışdır. Zavod müxtəlif kənd təsərrüfatı və digər maşınların əsaslı təmiri ilə məşğul idi.

Mingəçevir 5 nömrəli kənd tikinti tresti, 5 nömrəli avtonəqliyyat kontoru, 5 nömrəli mexanizasiya idarəsi, 5 nömrəli dəmir-beton məmulatı və ağac emalı zavodları bilavasitə kənd təsərrüfatına xidmət edən idarə və müəssisələrdən idi.



1970–1980-ci illər Azərbaycanda tikinti kompleksinin daha çevik işlədiyi bir dövr, sosial-iqtisadi inkişafın təmin olunmasından ötrü tikinti-quruculuq işlərinin geniş miqyas aldığı bir mərhələdir. Respublikada bu illərdə tikinti materialları istehsalının artırılmasına və bu sahədə yeni sahələrin tikilib istifadəyə verilməsinə xüsusi diqqət yetirilirdi. Azərbaycan KP MK-nin 1971-ci ilın iyulunda keçirilmiş plenumunda əsaslı tikintinin vəziyyəti xüsusi müzakirə edilmişdi. Mingəçevirdə fəaliyyət göstərən qum-çınqıl zavodu, iri panellərdən evtikmə kombinatı, dəmir-beton konstruksiyaları zavodu və digər oxşar profilli müəssisələr həm şəhərin özündə, həm də digər rayon və kəndlərdə sürətli tikinti işləri aparmaq üçün imkanlar yaradırdı. Mingəçevir mənzil tikintisinin həcminə görə respublikada fərqlənən şəhərlərdən idi. Sosial həyatın ən mühüm göstəricilərindən olan mənzil tikintisinin həcmi 1970-1980-ci illərdə şəhərdə xeyli artmışdı. Hər il Mingəçevirdə təqribən 35-40 min kvadratmetrdən çox mənzil tikilib istifadəyə verilirdi.

Bu dövrdə Ulu öndər Mingəçevirdə təhsilə, yeni tədris binalarının tikintisinə, təhsil müəssisələrinin müəllim kadrları ilə təmin edilməsinə də ciddi diqqət yetirirdi. "Gənclərin ümumi orta təhsilə keçməsinin başa çatdırılması və ümumitəhsil məktəblərinin işinin daha da inkişaf etdirilməsi haqqında" 10 avqust 1972-ci il tarixli Azərbaycan KP və Nazirlər Sovetinin qəbul etdiyi qərar Mingəçevir Xalq Maarif Şöbəsində də müzakirə edilmiş və bundan irəli gələn məsələlər müəyyənləşdirilmişdi. 1972-ci ildə şəhərdə 1000 yerlik məktəb binası tikilib istifadəyə verilmiş, 13 məktəb binasından 6-da əsaslı təmir işləri aparılmış, şəhər tabeli Tərəvəzçilik sovxozunda 5 nömrəli səkkizillik məktəb üçün 120 şagird yeri olan 3 sinif otağı və 2 yardımçı otaq istifadəyə verilmişdi. Şəhər ZDS İcraiyyə Komitəsi tərəfindən Gənc Texniklər Stansiyası üçün 17 otaqdan ibarət yeni bina ayrılmış, şəhər müəllimlər evi və Səhər Maarif Şöbəsi üçün də yeni bina istifadəyə verilmişdi. 1973-cü ildə Mingəçevirdə 21 ümumtəhsil məktəb var idi ki, onların 6-sı gündüz, 6-sı axşam, 8-i səkkizillik, 1-i isə qiyabi məktəb kimi fəaliyyət göstərirdi. Şəhərin ümumtəhsil məktəblərində 14 mindən çox şagird təhsil alırdı ki, onlara da 751 müəllim dərs deyirdi. Şəhərdəki 13 uşaq bağçası və körpələr evində 2 mindən çox uşaq tərbiyə olunurdu. Mingəçevirdə Politexnik Texnikumu, Tibb Məktəbi, texniki peşə məktəbləri, musiqi və mühasib məktəbləri də fəaliyyət göstərirdi. Mingəçevir gəncləri arasında idmanın avarçəkmə, baydarka, sərbəst güləş, yüngül atiletka kimi növləri geniş yayılmışdır. Şəhər idmançılarının ən çox uğur qazandığı idman növü avarçəkmə idi.

Ötən əsrin 70-80-ci illərində respublikada sosial və mədəni quruculuğun bütün sahələrində böyük nailiyyətlər əldə edilmişdi. Artıq 1972-ci ildə şəhərdə 9 kitabxana, 4 klub, Dövlət Dram Teatrı və Tarix Diyarşünaslıq Muzeyi fəaliyyət göstərirdi. Həmçinin 5 kinoteatr, 4 kinoqurğu, 3 səyyar kinoqurğu da əhaliyə xidmət edirdi. 1978-ci ildə şəhərdə mərkəzləşdirilmiş kitabxana sistemi yaradılmışdı.

Mingəçevir şəhərində uzun müddət fəaliyyət göstərən Xalq teatrının bazası əsasında Azərbaycan SSR Nazirlər Sovetinin 13 yanvar 1969-cu il tarixli qərarı ilə Dövlət Dram Teatrı yaradılmışdı.

Şəhərdə fəaliyyət göstərən tarix-diyarşünaslıq muzeyində qədim və müasir dövrləri əks etdirən maddi-mədəniyyət nümunələri, ev əşyaları, təsərrüfat alətləri, şəhər sənaye müəssisələrinin istehsal etdiyi məhsullar nümayiş etdirilirdi.

Şəhərin səhiyyə sistemi də həmişə Heydər Əliyevin diqqət mərkəzində olan sahələrdən olub. Mingəçevirdəki tibb müəssisələri təkcə şəhər sakinlərinə deyil, ətraf rayon və kəndlərin əhalisinə xidmət göstərirdi. Bu dövrdə xəstəxana xidmətinin yaxşılaşdırılmasında bir sıra tədbirlər görülmüş, stasionarlar yumşaq və bərk invertarlarla təchiz edilmiş, biokimyəvi və endokrin analizlər üçün laborotoriya təşkil edilmişdi. 1977-ci ildə şəhərdə yeni xəstəxana tikilib istifadəyə verilmişdi. Yeni xəstəxanada travmaloji, qulaq-burun, əsəb xəstəlikləri şöbəsi, seroloji laboratoriya fəaliyyətə başladı. 1980-cı ildə Mingəçevirdə 199 həkim, 655 tibb işçsi, beş xəstəxana, iki poliklinika iki stasionar-səhiyyə hissəsi, tibbi-bədən tərbiyəsi dispanseri, zavod və fabriklərin nəzdində yaradılmış həkim məntəqələri, xüsusi stomatoloji profilaktika əhalinin xidmətində idi.

Ötən əsrin 80-ci illərinin sonu – 90-cı illərinin əvvəlində baş vermiş hadisələr, Sovet İttifaqının süqutu Mingəçevirə də təsirsiz ötüşmədi. Ulu öndər Heydər Əliyevin uzaqgörən siyasəti sayəsində vaxtilə tikilib istifadəyə verilmiş "Azərbaycan" İES olmasaydı, respublikanın, o cümlədən paytaxt Bakının enerji təchizatında ciddi problemlər yaşana bilərdi. Beləliklə, Azərbaycanı o illərdə qurub yaradan, respublikanı bütün sahələr üzrə kənar asılılıqlardan çıxararaq dövlət müstəqilliyi üçün zəruri əsasları formalaşdıran Ulu öndərin enerji sektoruna diqqət və qayğısının əsl səbəbləri Azərbaycan müstəqilliyə qovuşduqdan sonra daha aydın və dolğun şəkildə duyuldu.

1998-ci ilin oktyabrında Heydər Əliyevin Mingəçevirə növbəti gəlişi, vətəndaşlarla görüşü, Məscid kompleksinin açılış mərasimindəki çıxışı mingəçevirlilər üçün bir proqram olmuşdur. Mingəçevirlilərlə görüşdən məmnun olduğunu dilə gətirən Ulu öndər demişdir: "Mingəçevirin tikilməsində, qurulmasında, inkişaf etməsində mən vaxtilə çox zəhmət çəkmişəm. İndi mən buraya gəlib bu hündür binaları, gözəl meydanları, gözəl yaşıllıqları görəndə sevinirəm. Çünki 30 il bundan öncə mən Azərbaycana rəhbərliyə başlayarkən biz Azərbaycanın hər yerində quruculuq işləri aparırdıq. Ancaq Mingəçevir gənc şəhər olduğuna görə, energetiklər şəhəri olduğuna görə buraya xüsusi fikir verirdik. Mən çox şadam ki, bizim gördüyümüz işlər yaşayır, inkişaf edir və insanlar burada yaranmış bütün imkanlardan istifadə edirlər, yaşayırlar".

Mingəçevir inkişaf yoluna yenidən qədəm qoydu. Bugünkü inkişaf və tərəqqi, həyata keçirilən regionların sosial iqtisadi inkişafı Dövlət Proqramı da məhz Ulu öndərin başladığı fəaliyyət istiqamətinin davamıdır.

2018-ci il iyulun 3-də "Azərbaycan İES" MMC-də baş vermiş məlum qəza hadisəsindən sonra ölkə Prezidenti cənab İlham Əliyevin tapşırıq və göstərişlərinə uyğun olaraq maliyyə vəsaiti ayrılmış, stansiyanın reablitasiya, təmir və bərpa proqramı hazırlanmış, dərhal icrasına başlanmışdır. 2020-ci il iyunun 25-də Azərbaycan Prezidenti İlham Əliyev Mingəçevirə səfəri çərçivəsində reablitasiya proqramı çərçivəsində yenidən qurulmuş "Azərbaycan" İstilik Elektrik Stansiyasında Ulu öndərin abidəsi önündə demişdir: "Ulu öndərin ruhu qarşısında vicdanımız təmizdir, onun yolunu davam etdiririk, onun əsərini bərpa etmişik".

13 fevral 2023-cü il tarixində Bakıda "Gülüstan" sarayında Azərbaycanın energetiklər şəhəri olan Mingəçevirdə tikiləcək 1300 MVt gücündə istilik elektrik stansiyasının təməlqoyulma mərasimi keçirildi. Prezident İlham Əliyev bildirdi ki, indi Mingəçevir şəhərinin Azərbaycanın və nəinki Azərbaycanın, bütün Qafqazın elektroenergetika mərkəzi kimi yeni dövrü başlayır, təxminən 1300 meqavat gücündə olan stansiya, əlbəttə ki, bizim potensialımızı böyük dərəcədə gücləndirəcək. Bu, Azərbaycanın enerji təhlükəsizliyinə verilən növbəti töhfə olacaq, yüzlərlə yeni iş yerləri yaranacaq və beləliklə, Azərbaycan öz imkanlarından tam istifadə edərək həm daxili tələbatı ödəyəcək, eyni zamanda, həm elektroenergetika, həm də təbii qaz sahəsində daha böyük addımlar atacaq. Çünki yeni tikiləcək stansiyada şərti yanacağın sərfiyyatı kifayət qədər aşağıdır və bu, imkan verəcək ki, ildə təqribən 800 milyon kubmetr və ya 1 milyard kubmetr qaza qənaət edilsin. Bu gün Avropa məkanında Azərbaycan qazına böyük tələbat olduğu üçün bu, eyni zamanda, Avropanın enerji təhlükəsizliyinə növbəti töhfə olacaqdır. Yaxın gələcəkdə Azərbaycanın elektrik enerjisi də neft və qaz kimi Avropa məkanına çatdırılacaq.

Ümummilli liderin əsasını qoyduğu quruculuq prosesi Azərbaycanın müstəqil dövlət kimi inamlı inkişafını və yeni mərhələdə tarixin siyasi səhnəsində özünəməxsus yer tutmasını təmin edir. Ulu öndərin yüksək peşəkarlıqla işləyib hazırladığı milli dövlətçilik strategiyasının əsasını müstəqil Azərbaycanın iqtisadi qüdrətinin dirçəldilməsi və möhkəmləndirilməsi təşkil edir. Ölkə iqtisadiyyatının hərtərəfli inkişafı, qloballaşan dünya iqtisadiyyatına inteqrasiyası ölkəmizi sürətli tərəqqi yoluna aparmışdır.

Biz mingəçevirlilər fəxr edirik ki, müasir Azərbaycan dövlətinin yaradıcısı və qurucusu, xalqımızın böyük oğlu, Ümummilli lider Heydər Əliyevin başladığı uğurlu siyasəti ləyaqətlə davam etdirən, ölkəmizin yeni inkişaf tarixini yaradan, dünya miqyasında nüfuzunu artıran möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbəriyi altında bütün respublikamız, o cümlədən Mingəçevir şəhəri sabaha doğru inamla addımlayır.

***Almaz ƏLİYEVA,***
***Mingəçevir Dövlət Universiteti mühəndislik fakültəsinin dekanı, dosent***

# Maraqlar gerçəkliklə üst-üstə düşməyəndə

## ABŞ və Rusiyanın Cənubi Qafqaz uğrunda Azərbaycandan keçən qarşıdurması

**Tarixdən bildiyimiz qədər, yüz ildən çox Rusiya, Türkiyə və İran arasında nüfuz davasının getdiyi Cənubi Qafqaz regionunun XXI əsrdə qlobal geosiyasi güclərin mübarizə meydanına, daha doğrusu, qarşıdurma məkanına çevrildiyi həqiqətdir. Sadəcə yüz il əvvəllə müqayisədə bu üç aktordan başqa bölgəyə Qərbin, ABŞ-ın da əli uzanmaqdadır.**



Kənar və siyasətdən bir qədər uzaq müşahidəçilər üçün, ola bilsin ki, Ukrayna cəbhəsindəki qarşıdurmanın Avropa İttifaqı–Rusiya, NATO–Rusiya, yaxud Fransa–Rusiya formatları kimi qəbul olunması daha məntiqidir. İki ilə yaxındır davam edən Ukrayna –Rusiya hərbi münaqişəsi məhz bu formatların mövcudluğuna heç bir şübhə yeri qoymur. Fəqət diqqətlə baxanda, Rusiya ilə müharibədə Kiyevi birmənalı şəkildə dəstəkləyən Şimali Atlantika Hərbi Alyansına daxil olan ölkələrin yüz milyardlarla dollar həcmindəki hərbi yardımlarının arxasından, yeni okeanın o tayından "Sem dayının şlyapası"nın silueti sezilməkdədir. NATO-nun qurucusu, bu gün "dumanlı silueti" aşkar görünən Birləşmiş Ştatların məlum hərbi münaqişənin əsas oyunçularından biri olduğunu qəbul etmək lazımdır. Bu həqiqəti siyasətlə uzaqdan deyil, yaxından maraqlananlar yaxşı bilirlər.

Hələlik Ukrayna cəbhəsini bir kənara qoyub, Vaşinqton və Moskvanın Cənubi Qafqaz uğrunda "siyasi hərarəti" yüksəlməkdə olan münasibətlərinə Bakıdan nəzər yetirməyə çalışaq.

### Tərəflərin "baqaj"ında nələr var?

SSRİ-nin süqutundan keçən son otuz iki il ərzində dünyanın siyasi səhnəsində özünə, bir növ, "layiqli rəqib" görməyən ABŞ təməl dəyərlərinin əksinə getməyə başladı. Buna qədər Vyetnam, Koreya, Əfqanıstan kimi "acı təcrübələri" qazanmış Amerika cəmiyyəti, yeni nəsil köhnə "siyasi–mənəvi zədələri" tez unutdu. Bu, Ağ evin Avropada, o cümlədən Yaxın Şərqdə yeritdiyi və fiaskoya uğrayan siyasi kursunda da özünü göstərdi. Həmin kursdan ABŞ-ın müttəfiqləri daxil olmaqla, Qərbdə və həmin Yaxın Şərqdə bir çox dövlətlər heç də məmnun deyillər. ABŞ–Azərbaycan münasibətlərində son aylar yaranmış soyuqluğun əsas səbəbi də məhz Vaşinqtonun öz prioritetlərindən fərqli mövqe nümayiş etdirməsi oldu. Bakı Vaşinqtondan bunu gözləmirdi. Axı, Azərbaycan ABŞ-ın antiterror çağırışlarına bölgədə ilk cavab verən ölkədir. Bizim hərbçilərimiz Əfqanıstanda, İraqda NATO komandanlığında xidmət ediblər. NATO-nun Əfqanıstana yükdaşımalarında ötürücü məkan kimi Azərbaycan mühüm rol oynayıb. İndi Cənubi Qafqazın Birləşmiş Ştatlar üçün iki böyük dövlətə qarşı rəqabət zonasına çevrildiyini görmək çətin deyil. Bəli, Vaşinqtonun regionda əsas geosiyasi hədəfləri Rusiya və İrana qarşı mübarizə və Mərkəzi Asiyanın enerji daşıyıcılarına çıxış əldə etməkdir. Ağ evin regionla bağlı strategiyası bu platformadan qlobal mübarizədə yararlanmağı nəzərdə tutur. İntəhası, bu halda ondan ötrü region ölkələrinin milli maraqları arxa plana keçir. Başqa sözlə, Azərbaycanın müstəqil xarici siyasət yeritməsi ABŞ-ın regional prioritetləri ilə üst-üstə düşmür. Amma rəsmi Bakı və ABŞ Dövlət Departamenti arasında münasibətlərə qismən aydınlıq gətirən son təmasları Vaşinqtonun Cənubi Qafqazın lider dövləti Azərbaycanın beynəlxalq arenada müstəqil xarici siyasət həyata keçirən ölkə kimi qəbul etməsinin etirafı idi. Çünki Azərbaycan Avrasiya coğrafiyasında enerji təhlükəsizliyinə özünün töhfələrini verən nüfuzlu və ciddi oyunçu olduğunu artıq sübuta yetirib.

Bakı Ermənistanla sülh müqaviləsinin bağlanması üçün ona təklif edilən hər iki platformadan imtina edəndən sonra böyük güclər arasında qarşıdurmada siyasi konfiqurasiya da təzələnmiş oldu. Həm də məlum oldu ki, nə Qərb, nə də Rusiya Cənubi Qafqazda sülhün bərqərar olmasında maraqlıdır. Səbəblər müxtəlif olsa da, Qərb platformalarında aparılan danışıqları arxa plana atmaq üçün Moskva çeşidli variantlar irəli sürür. Rusiya birmənalı olaraq, Qərbin Qafqaz regionunda mövcudluğuna qarşıdır.

"ABŞ Cənubi Qafqaz və Orta Şərqdəki mövqelərini itirir. Türkiyə isə bu boşluğu doldurur. Türkiyə Azərbaycanla birlikdə güclənir". **Bu sözləri türkiyəli siyasi ekspert Hüsaməddin İnanç** dünən



Beynəlxalq Münasibətlər və Diplomatiya Araşdırmaları Mərkəzinin Türk Dünyasının gələcəyinə həsr olunan beynəlxalq Turan konfransında çıxışı zamanı deyib.

Hüsaməddin İnançın fikrincə, Vaşinqton əvvəlki kimi, dünyadakı proseslərə təsir göstərə bilmir: "Türk dünyası birlikdə hərəkət etsə, daha çox nəticə qazana bilər. Bu gün proses Ermənistanla Azərbaycan arasında sülh müqaviləsinə doğru gedir. Əlbəttə, bu məsələdə Ankara–Bakı həmrəyliyi mühüm rol oynayır. Amma Vaşinqton və Paris məsələyə əngəl yaradır. Onlar regionda sülh istəmirlər. Qərbin regiona gəlməsinin qarşısını almaq lazımdır. Çünki ABŞ və Fransa region üçün təhdiddir".

Azərbaycan 28 il davam edən Ermənistanla münaqişədə bu iki supergücdən özünə qarşı gördüyü ədalətsizliyi unutmayıb. ATƏT-in Minsk qrupuna həmsədrlik edən bu dövlətlər əks siyasi qütblərdə dayansalar da ermənilərə münasibətdə eyni mövqedən çıxış edirdilər. Rusiyalı və amerikalı həmsədrlərin danışıqlarda məhz Ermənistanın maraqlarını təmin etmək üçün hər cür hiyləyə əl atdıqlarına şahidlik etmişik. Minsk qrupunun həmsədri kimi ABŞ-ın səylərinə böyük ümidlər bəsləyən Bakı nə gördü? ABŞ Konqresinin Qarabağdakı separatçı rejimə hər il maliyyə yardımı ayırmasını, USAİD-in Qarabağda müxtəlif layihələr həyata keçirməklə humanitar məqsədlərdən daha çox Xankəndidəki separatçı rejimin iqtisadi cəhətdən güclənməsinə imkan yaratmasını. Həmin xunta rejiminin quldur rəhbərləri sərbəst şəkildə ABŞ-a səfərlər edir, orada "Qarabağ ermənilərinə yardım" marafonlar təşkil edirdilər.

### Sülhün açarı bölgədədir

Azərbaycan Prezidenti İlham Əliyevin bu il oktyabrın 8-də Gürcüstana işgüzar səfərindən sonra yerli mətbuat Rusiya XİN-in rəhbəri Sergey Lavrovun "BMT Nizamnaməsinin prinsiplərinə tam şəkildə riayət etmək və qarşılıqlı əlaqə – beynəlxalq sülhün, sabitliyin açarıdır" sərlövhəli məqaləsini dərc edib. Həmin məqalədə bildirilib ki, ABŞ və Avropa İttifaqı Cənubi Qafqazda qeyri-sabitlik toxumu səpməyə davam edirlər. Lavrov buraya onu da əlavə edib ki, Rusiyanın Qarabağdakı sülhməramlı kontingenti Cənubi Qafqaz regionunda dinc həyatın bərqərar olmasına töhfəsini verməyə hazırdır. İndi Rusiya Cənubi Qafqazda qalmaqdan ötrü bütün variantları sınaqdan çıxarır.

ABŞ Dövlət Departamentinin sözçüsü Metyu Miller isə ənənəvi brifinq zamanı Sergey Lavrovun məqaləsində yer alan fikirlərinə münasibət bildirərkən dedi ki, Ağ evin İrəvan–Bakı münasibətlərində yeganə məqsədi Cənubi Qafqaz regionunda davamlı sülh və sabitliyi təmin etməkdir.

Nə qədər qəribə səslənsə də, qarşı duran tərəflərin sülh amili ilə siyasi alver etməyə çalışmaları göz qabağındadır. Bakı onların təklif etdikləri sülhün açarının kənarda deyil, bölgənin daxilində olduğunu və onu vasitəçisiz, birbaşa dialoq yolu ilə tapılacağına əmin olduğunu açıqlayıb.

**Milli Məclisin deputatı Ceyhun Məmmədov** mövzu ilə bağlı açıqlamasında Bakı ilə İrəvanı barışdırmağa ça-



lışan Vaşinqton və Moskvanın Cənubi Qafqazda hazırda məhz Azərbaycanın yaratdığı sabitliyi pozmağa yönəlik addımlardan çəkinməyə çağırıb: "Azərbaycan Cənubi Qafqazda sülhün bərqərar olması üçün real addımlar atır. Bizim digər tərəflərdən istəyimiz odur ki, bölgədəki sabitliyi poza biləcək addımlardan uzaq olsunlar. Regionda dinc həyatın bərqərar olmasına öz töhfələrini versinlər. Rusiyanın Qarabağdakı sülhməramlı kontingenti ilə bağlı Azərbaycan öz mövqeyini dəfələrlə bildirib. Biz düşünürük ki, 2020-ci ildə imzalanmış üçtərəfli bəyanata əsasən sülhməramlıların Qarabağda olma müddəti 2025-ci ildə başa çatır və onlar həmin vaxt ərazilərimizi tərk etməlidirlər. Rəsmi Bakı Azərbaycanın ərazi bütövlüyü və suverenliyi ilə bağlı məsələdə tərəfdaşlarından daha diqqətli olmağı tələb edir".

C.Məmmədov Azərbaycanın Qarabağda tam və qəti qələbəsini təmin etdiyini, Ermənistanın Azərbaycanın ərazi bütövlüyünü rəsmən tanıdığını və üçüncü tərəflərin açıqlamalar verərkən bu reallıqları nəzər almalarının vacibliyini vurğuladı.

### Azərbaycanla hesablaşmalı olacaqlar

XX əsr boyu Qafqaz Qərb bloku üçün Sovetlər Birliyi ilə mübarizənin ön cəbhəsi idisə, hazırda ABŞ başda olmaqla Avropa öz maraqlarını NATO üzvü olan Türkiyə və suveren Azərbaycan üzərindən qurmağa çalışır. Bu zaman Vaşinqtonun nə qazanacağı və ya Cənubi Qafqazda geosiyasi mənzərənin necə dəyişəcəyi məhz Bakının istəyindən və iradəsindən asılı olacaq. Türkiyə və Azərbaycan iki qitəni birləşdirən enerji və nəqliyyat qovşağı kimi Vaşinqton üçün geosiyasi əhəmiyyətə malikdir. Bu birlik Rusiya ilə qlobal rəqabətdə ABŞ üçün olduqca vacibdir. Əlbəttə, bu kontekstdə Avrasiya siyasi coğrafiyasında formalaşan və getdikcə genişlənməkdə və güclənməkdə olan yeni mərkəzin – Türk Dövlətləri Təkilatının Cənubi Qafqazda cərəyan edən hadisələrə təsir imkanlarını görməzdən gəlmək qeyri-mümkündür. İstər Vaşinqton, istərsə də Moskva bu amili nəzərə almalı olacaqlar.

**Strateji Planlaşdırma və Araşdırmalar İnstitutunun rəhbəri, siyasi şərhçi Azad Məsiyevin** sözlərinə görə,



ABŞ-ın strateji məqsədi Rusiyanı dünyanın siyasi xəritəsindən silməkdir: "Rusiya bütün vasitələrdən yararlanmaqla özünü müdafiə etməkdədir. ABŞ Rusiyanı dünyanın siyasi xəritəsindən silmək üçün ona yaxın ölkələrdə demokratiya bayrağı altında dövlət çevrilişləri, "rəngli" inqilablar həyata keçirib, nəticədə həmin dövlətləri "klounlaşdırıb". Birləşmiş Ştatların məqsədi Rusiyanı siyasi arenadan tamamilə kənarlaşdırmaqdır və bu istiqamətdə addımlarını davam etdirir. Ukrayna böhranı da bu səbəbdən yarandı. Nəticədə Rusiyanın Avropa ilə əlaqəsi kəsildi. Rusiyaya cənuba – Türkiyə və İrana, o cümlədən Afrika qitəsinə çıxmaq üçün yeni iqtisadi doktrina lazımdır. Rusiyanın bu planı həyata keçirməsi üçün Cənubi Qafqazda stabillik vacibdir. Rusiya–ABŞ qarşıdurmasının birinci episentri Ukraynadırsa, bu qarşıdurmanın ikinci episentri Cənubi Qafqazdır. ABŞ Cənubi Qafqaz projesini Ermənistan üzərindən həyata keçirmək istəyir. Bu baxımdan baş nazir Paşinyanı hər vəchlə qoruyur, ona həm siyasi, həm maddi, həm də hərbi dəstək verir".

Hər şeydən göründüyü kimi, Azərbaycanın son üç ildə Cənubi Qafqazda güc və söz sahibi olaraq yaratdığı reallıq ABŞ-ın və Rusiyanın bölgə ilə bağlı planları, eləcə də maraqları ilə üst-üstə düşmür. Deməli, həm Vaşinqton, həm də Moskva saatlarını məhz Bakı vaxtı ilə uyğunlaşdırmağa məcburdur. Əkstəqdirdə, zamanın onların əleyhinə işləyəcəyi şəksizdir.

***İmran BƏDİRXANLI***
***XQ***

# Avrasiyada yeni dostluq üçbucağı – PAT

**(əvvəli 1-ci səhifədə)**

"Tehran alyansın hərbi xarakteri və İslamabadın "Taliban"ın fəaliyyətində iştirakı ilə bağlı narahatlığını açıq şəkildə ifadə edib. Hindistanın reaksiyası isə Kəşmir məsələsində Pakistanla tarixi rəqabəti ilə xarakterizə olunur və Nyu-Dehlinin Ermənistana açıq dəstəyi cavab addımı sayıla bilər. Rusiya Bakı, Ankara və İslamabadla əlaqələrini nəzərə alaraq, PAT alyansına ehtiyatlı yanaşma nümayiş etdirir. Yaranmaqda olan PAT üçbucağı, sadəcə olaraq, bir koalisiya deyil, dərin doğmalığı və gələcəyə baxışı əks etdirən düşünülmüş strateji tərəfdaşlıqdır. Alyans mövcud qlobal və ya regional çərçivələri pozmağa yönəlməyib; o, digər ölkələri kollektiv rifah naminə bir araya gəlməyə təşviq edə bilən əməkdaşlıq nümunəsidir".



Bəli, məqalədə qeyd edildiyi kimi, Azərbaycan–Türkiyə–Pakistan ittifaqı, həqiqətən də, dünyaya bir əməkdaşlıq nümunəsidir. Dünyanın iqlim fəlakətləri, millətçi ideologiyaların dirçəlməsi, zorakılığın artması və çoxtərəfliliyin (multiliteralizm) aşınması kimi görünməmiş problemlərlə üzləşdiyi bir vaxtda alyansın mövqeyi böyük əhəmiyyət kəsb edir. Bütün bu məsələlərin həlli Azərbaycan, Türkiyə və Pakistandan bilavasitə asılı olmasa da, onların ittifaqı hərbi, iqtisadi və energetika əməkdaşlığını əhatə edən mədəni və tarixi həmrəyliyin simvoludur. Alyans islamofobiya kimi qlobal problemlərin həllində hazırda tez-tez istifadə olunan sözlə desək, sərt və yumşaq gücün necə istifadə oluna biləcəyinə dair də bir nümunədir. Azərbaycan–Türkiyə–Pakistan ittifaqı müxtəlifliyi qəbul, dialoqu təşviq etməyin və diplomatiyaya can atmağın bizim zəmanəmizdə mübahisələrin həllində və fikir ayrılıqlarının aradan qaldırılmasında təməl daşı olaraq qaldığını vurğulayır.

Azərbaycan, Türkiyə və Pakistanın beynəlxalq təşkilatlardakı fəaliyyəti xüsusi diqqət çəkir. Üç ölkə beynəlxalq tədbirlərdə koordinasiyalı fəaliyyət ortaya qoyaraq, bir-birinin təşəbbüslərinə və haqlı mövqelərinə dəstək nümayiş etdirirlər. 2023-cü il iyunun 12-də Türkiyə Prezidenti Rəcəb Tayyip Ərdoğanın, ayın 15-də isə Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərifin Azərbaycana səfəri ölkələrimiz arasında strateji müttəfiqlik, dostluq və qardaşlıq əlaqələrinin əyani təzahürüdür. Eyni zamanda, hər üç ölkə Orta dəhlizin inkişafında maraqlıdır.

Mövzu üzrə fikirlərini öyrəndiyimiz **ehtiyatda olan polkovnik Şair Ramaldanov** bildirdi ki, Azərbaycan, Türkiyə və Pakistan arasında dostluq münasibətləri getdikcə inkişaf edir. Onun sözlərinə görə, üç ölkə regional problemlərin həllində fəal rol oynayırlar: "Pakistan nüvə silahına malik güclü İslam dövlətidir. Onun ordusunun şəxsi heyətinin sayı 1 milyon nəfərədəkdir. Türkiyə NATO-nun ən güclü dövlətlərindən biridir. Azərbaycan isə xarici siyasətdə strateji istiqamətlərini düzgün müəyyənləşdirərək, iki ölkə ilə dostluq əlaqələrini getdikcə daha da inkişaf etdirir. Ümumiyyətlə, bu üç dövlətin heç bir ölkəyə qarşı nə ərazi, nə də digər iddiası var. Onlar müstəqil siyasət yürüdür və geosiyasi məsələlərə münasibətdə eyni mövqedən çıxış edirlər. Azərbaycan 44 günlük Vətən müharibəsinədək İslamabadla çox sıx hərbi-texniki əməkdaşlıq aparırdı. Məsələn, müharibəyədək bizim 9 təlim təyyarəmiz məhz Pakistan istehsalı idi. Pakistan istehsalı olan yeni hərbi texnikanın alınması ilə bağlı danışıqlar gedirdi. Belə bir atalar sözü var: dost dar gündə tanınar. Prezident İlham Əliyevin dediyi kimi, biz Vətən müharibəsi zamanı kimin dostumuz olub-olmadığını əyani gördük. Pakistan bizim dostumuzdur. Müharibə zamanı Pakistan və Türkiyə geosiyasi arenada ağır siyasi çəkiyə malik dövlətlər kimi Azərbaycanın yanında oldular, ölkəmizin haqq işini dəstəklədilər. Müharibədən sonra Bakıda Azərbaycan və Türkiyə bayraqları ilə yanaşı, Pakistanın dövlət bayrağının dalğalanması da təsadüfi deyildi. Bu, xalqın içindən gələn bir minnətdarlıq hissi idi".

Şair Ramaldanov qeyd edib ki, Vətən müharibəsindən sonra Azərbaycan–Türkiyə–Pakistan əlaqələri daha da inkişaf edib, birgə hərbi təlimlər keçirilib. Azərbaycanın Müdafiə naziri Pakistanda keçirilən hərbi paradda iştirak edib. Paradda Azərbaycan taqımının keçidi olub. Ekspertin fikrincə, üç ölkənin geosiyasi arenada mövqelərini müdafiə etmək üçün bir-birini tamamlayan addımları artıq dünyada alyans kimi qəbul olunur: "Prinsip etibarilə mən deyərdim ki, alyans kimi qəbul edilmək də üç ölkənin, xüsusilə Azərbaycanın siyasi çəkisini daha da artırır. Bir tərəfimizdə Türkiyə kimi güclü ordusu, geosiyasi arenada sözü eşidilən dövlət başçısı olan qardaş ölkə, digər tərəfdə isə Pakistan kimi böyük ölkə dayanıb. İki ölkənin Azərbaycana olan dəstəyi dövlətimizin geosiyasi arenada çəkisini, nüfuzunu artıran amillərdəndir. Əlbəttə, bu amillərin artması dövlət başçımızın siyasi müdrikliyinin, geosiyasi arenanın "şahmat meydanı"nda savadlı və bacarıqlı "qrossmeyster" kimi düzgün qərarlar qəbul etməsinin nəticəsidir. Əlbəttə, bu gün Türkiyə və Pakistan kimi nəhəng ölkələrin yanında Azərbaycanın adının çəkilməsi, belə bir alyansın formalaşması ilə bağlı tanınmış media qurumlarının yazılar dərc etməsi bir daha Azərbaycanın nüfuzundan xəbər verir".

Hərbi ekspert qeyd edib ki, geosiyasi arenada gedən proseslərdə həmişə olduğu kimi, yenə də, dini mənsubiyyət ön plandadır. Müsahibimiz hesab edir ki, bu amilin dövlətlərin münasibətlərinin həm istiləşməsində, həm də soyumasında rolu açıq-aşkar görünür: "Müasir dövrdə yaşasaq da, müəyyən qüvvələr bu gün də dini məsələləri ortaya ataraq, ondan çox məharətlə istifadə edirlər. Onlar bu amildən istifadə edərək insanları bölməyə və aralarında müəyyən problemlər yaratmağa nail olurlar. Belə olan halda üç dost-qardaş ölkə eyni dinin mənsubları olaraq haqqın müdafiəsində dayanıblar. Azərbaycan Qoşulmama Hərəkatının lokomotivi-lideri, Türkiyə türkdilli dövlətlərin aparıcı ölkəsi, Pakistan isə müsəlman dünyasında böyük nüfuza, nüvə silahına malik İslam respublikası kimi geosiyasi məkanda həmin qüvvələrə qarşı çıxırlar. Onlar İslam dəyərlərini, milli, dini adət-ənənələrini və dövlətləri dini mənsubiyyət əsasında əmələ gəlmiş yad təsirlərdən qoruya bilirlər. Azərbaycan, Türkiyə və Pakistan bu istiqamətdə çox böyük işlər görürlər. Ona görə də, üç ölkənin birliyini alyans və digər adlarla adlandırıb-adlandırmamaqdan asılı olmayaraq, onların dostluğu, qardaşlığı, müttəfiqliyi və əməkdaşlığı danılmazdır. Bu münasibətlər inkişaf yolundadır. Buna görə də demək olar ki, PAT-ın gələcəyi var. PAT güclənəcək, geosiyasi arenada böyük nüfuz sahibinə çevriləcək".

***Səxavət HƏMİD***
***XQ***

# Azərbaycan iqlim dəyişikliyi ilə mübarizəni fəallaşdırır

## 2050-ci ilədək karbon emissiyasının həcmini 40 faiz azaltmaq nəzərdə tutulur

**Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində təşkil olunan və Prezident İlham Əliyevin də açılış mərasimində iştirak etdiyi Dünya İqlim Fəaliyyəti Sammitinə beynəlxalq miqyasda böyük maraq göstərilməsi təsadüfi deyil. Bu barədə müəyyən fikirləri diqqətə çatdırmazdan əvvəl xatırladaq ki, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransı 1995-ci ildən etibarən hər il keçirilib. Bu tədbirin reallaşdırılmasında əsas məqsəd dünyada iqlim dəyişikliyi ilə mübarizədə irəliləyişləri qiymətləndirmək olub.**

Yeri gəlmişkən, ötən əsrin 90-cı illərinin ortalarından başlayaraq keçirilən və ənənə halını alan konfrans çərçivəsində inkişaf etmiş ölkələrdə istixana qazlarının



atmosferə tullantılarının məhdudlaşdırılması ilə bağlı icbari hüquqi öhdəlikləri nəzərə çarpdıran Kyoto Protokolu müzakirə olunub. 2011-2015-ci illərdə isə reallaşdırılan sessiyalarda isə iqlim dəyişikliyi ilə mübarizədə ən əhəmiyyətli beynəlxalq sənəd hesab olunan Paris Sazişi müzakirə edilib və 2015-ci ildə qəbul olunub. Bu günədək 195 ölkə, o cümlədən Azərbaycan bu razılaşmaya qoşulub. Qeyd edək ki, respublikamız 2030-cu ilə qədər istilik effekti yaradan qazların emissiyasının 35 faiz azaldılması, 2050-ci ildə isə bu hədəfin 40 faizə çatdırılacağına dair öhdəliyi təsdiqləyib. Azərbaycan hökuməti 2015-ci ildə qəbul edilən Paris Sazişi üzrə öhdəlikləri yerinə yetirmək vəzifəsini prioritet istiqamət kimi daim diqqət mərkəzində saxlayıb.

Ümumiyyətlə, bu məsələyə xüsusi önəm verilməsi Ümumdünya Meteorologiya Təşkilatının (ÜMT) hesabatında da öz əksini tapıb. Sənəddə bu ilin iqlim sahəsində rekordlar ilə yadda qalması və müşahidələrin bütün tarixində ən isti il olduğu bildirilib.

ÜMT-nin həmin hesabatında diqqət istixana qazlarının konsentrasiyasının artması, dəniz səthində temperaturun yüksəlməsi və dəniz səviyyəsinin qalxması və Antarktidada dəniz buzlaqlarının sahəsinin ən aşağı həddə düşməsi üzrə rekord göstəricilərə yönəldilib.

Hesabatda ifadə edilən bu fikrin təsdiqi məqsədilə oktyabrın sonuna olan məlumatlara əsasən, vurğulanır ki, bu il havanın temperaturu 1850–1900-cu illərin sənayeyə qədərki baza səviyyəsindən təqribən 1,40 dərəcə Selsi yuxarı olub. Bununla da 2023-cü ilin əvvəllər ən isti dövr hesab edilən 2016–2020-ci illərdən fərqi aydın şəkildə nəzərə çarpıb.

Ekspertlər bildirirlər ki, 2015-ci ildən bu ilə kimi, Şimal yarımkürəsində 2023-cü ilin yazında ortaya çıxan və yayda sürətlə inkişaf edən istiləşmə yaradan El Nino hadisəsi, çox güman ki, 2024-cü ildə istiliyi daha da artıracaq, çünki El Nino adətən öz zirvəsinə çatdıqdan sonra qlobal temperatura ən çox təsir edir. Dünyada istixana qazlarının konsentrasiyası rekord həddə qeydə alınıb. Qlobal temperatur rekord səviyyəyə yüksəlib. Dəniz səviyyəsinin qalxması rekord səviyyədə qiymətləndirilib. Antarktidada dəniz buzlarının səviyyəsi yüksək göstəricilərlə ifadə olunan səviyyədə azalıb.

Birləşmiş Millətlər Təşkilatının (BMT) Baş katibi Antonio Quterreşin bildirdiyinə əsasən, 2023-cü il ərzində dünyada baş verən yanğın, daşqın hadisələri ilə və qızmar istilərlə yadda qalıb. BMT-nin Baş katibi Ümumdünya Meteorologiya Təşkilatının iqlim hesabatını müşayiət edən videomesajında dünya liderlərini iqlim dəyişikliyi ilə bağlı təcili tədbirlər görməyə çağırıb. A.Quterreş daha sonra deyib: “Bizim qlobal temperatur artımını 1,5 dərəcə Selsiyə qədər məhdudlaşdırmaq və iqlim xaosunun ən pis təsirlərindən yayınmaq üçün yol xəritəmiz var. Lakin iqlimlə bağlı fəaliyyət planlarının növbəti raundunda aydın gözləntilər müəyyənləşdirmək və onları gerçəkləşdirmək zəruridir. Bu zaman əsas məqsəd isə 1,5 dərəcə Selsi limitini qorumaq və qazıntı yanacaqlarını mərhələli şəkildə ləğv etməkdir.

Mütəxəssislər bildirirlər ki, istiləşmənin gələcəkdə də davam edəcəyi gözlənilir. Bu dəyişiklik isə əsrlərdən minilliklərə qədər zaman miqyasında geri dönməz prosesdir. Okeanların istiləşmə sürətinin son 20 ildə, xüsusilə, davamlı şəkildə artması da bunun bariz ifadəsidir. Yeri gəlmişkən, cari il qlobal orta dəniz səviyyəsi 1993-cü ildən bəri ən yüksək həddə çatıb ki, bu da okeanların davamlı istiləşməsi, habelə buzlaqların və buz təbəqələrinin əriməsini əks etdirir. Son on ildə (2013–2022) qlobal orta dəniz səviyyəsinin qalxma sürəti peyk müşahidələrinin birinci onilliyindəki (1993–2002) dəniz səviyyəsinin qalxma sürətindən iki dəfə çoxdur.

***Vaqif BAYRAMOV***
***XQ***

### Ekspert rəyi



**Emin BAĞIROV,**
**ETN Riyaziyyat və Mexanika İnstitutunun böyük elmi işçisi, fəlsəfə doktoru**

Ətraf mühitin və ekoloji tarazlığın qorunmasına həssaslıqla yanaşan Azərbaycan bununla bağlı qoşulduğu bir sıra beynəlxalq sazişlərin tələblərinə daim ciddi şəkildə riayət edir. Bu baxımdan BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasını və Paris Sazişini xüsusi qeyd etmək lazımdır.

2016-cı ilin aprelində imzalanan və həmin il oktyabrın 28-də Milli Məclis tərəfindən ratifikasiya olunan həmin sazişinə əsasən, respublikamız indiyədək əldə etdiyi yüksək nəticələri adıçəkilən konvensiya katibliyinə təqdim edib. Ölkəmiz qlobal iqlim dəyişmələrinə təsirlərin yumşaldılması təşəbbüslərinə özünün töhfəsi olaraq baza ili ilə (1990-cı il) müqayisədə 2030-cu ilədək istilik effekti yaradan qaz emissiyalarının 35 faiz azalma səviyyəsində saxlanılmasını hədəf kimi götürüb.

Ökəmizdə atmosferə atılan istixana qazlarının azaldılması və dekarbonizasiya sahəsində mühüm layihələr həyata keçirilir. Bu baxımdan “Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nda respublikamızın təmiz ətraf mühit və “yaşıl artım ölkəsi”nə çevrilməsi ilə bağlı çoxsaylı tədbirlərin reallaşdırılması nəzərdə tutulur. Sənəddə qeyd olunduğu kimi, yaxın illərdə ölkəmizdə təbii resurslardan dayanıqlı və davamlı istifadə təmin olunacaq, tullantıların səmərəli idarə olunması sistemi inkişaf etdiriləcək. Bunun da nəticəsində tullantıların təkrar emalı prosesinin əhatə dairəsi ölkə üzrə 20 faizə, regionlarda isə 10 faizə çatdırılacaq.

Qeyd edim ki, qarşıdakı 5 il ərzində ölkəmizin sosial-iqtisadi inkişafının sürətləndirilməsini nəzərdə tutan strategiyada tullantıların yaranması, təkrar emalı və zərərsizləşdirilməsi ilə bağlı uçotun təkmilləşdirilməsi, məlumat bazasının və elektron informasiya sisteminin yaradılması, bu sahədə kadr potensialının gücləndirilməsi planlaşdırılır.

“Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”na əsasən, növbəti illərdə regionlarda bərk məişət tullantılarının mərkəzləşdirilmiş idarə olunması sistemi yaradılacaq, bu sahənin maddi-texniki bazası gücləndiriləcək, təhlükəli tullantı poliqonlarının infrastrukturu müasirləşdirilərək mərkəzləşdirilmiş zərərsizləşdirmə qurğularının tətbiqinə diqqət artırılacaq.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin məlumatına görə, ölkəmizdə atmosferə atılan istixana qazlarının azaldılması, karbon kreditləri və karbon ticarəti sisteminin yaradılması və tənzimlənməsi məsələsi hazırda diqqətdə saxlanılır. Bu məqsədlə ictimai müzakirənin keçirilməsi də nəzərdə tutulur.

Ötən il Qlazqo şəhərində keçirilən iqlim sammitində Azərbaycan 2050-ci ilə qədər istixana effekti yaradan qazların emissiyasının həcmini 40 faiz azaldılması ilə bağlı şərti hədəf kimi götürüb. Bundan əlavə, ölkəmiz işğaldan azad edilmiş ərazilərdə təmiz sıfır emissiyası zonasının yaradılması ilə bağlı planlarını bəyan edib.

Bu gün sıfır tullantı zonası hesab edilən Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında işlər məskunlaşma planına uyğun olaraq həyata keçirilir. Zəngilan rayonunun Ağalı kəndinə əhalinin köçürülməsi ilə əlaqədar “Təmiz Şəhər” ASC tərəfindən Zəngilan poliqonu ərazisində 3 ədəd müvəqqəti tullantı hücrəsi hazırlanıb və tullantıların zərərsizləşdirilməsi təşkil olunub. Ağalı kəndində məişət tullantılarının gündəlik daşınması üçün 8 meydançada 35 konteyner yerləşdirilib.

Hazırda Zəngilan poliqonunda hazırlanmış müvəqqəti tullantı hücrələrində tullantıların zərərsizləşdirilməsi prosesi davam etdirilir. Yeri gəlmişkən, adıçəkilən ASC-nin korporativ strukturunda Şərqi Zəngəzur regional bölməsi yaradılıb. Bu da yerli sakinlər üçün iş əlavə iş imkanı deməkdir.

**Son illər məşğulluğun, qeyri-neft ixracının artırılması və digər strateji məsələlərdə özəl sektor həlledici rola malikdir. Azərbaycanda azad rəqabət mühitinin təkmilləşdirilməsi, inzibati prosedurların sadələşdirilməsi, vergi güzəştləri və subsidiyalar, real sektora maliyyə dəstəyi kimi tədbirlər həyata keçirilir. Bunun nəticəsi olaraq ötən dövr ərzində ölkədə biznes fəaliyyəti geniş miqyas alıb. Azərbaycanın iş adamları xarici ölkələrdə həyata keçirilən layihələrdə də fəal iştirak edir, müxtəlif sahələrə investisiya yatırır, etibarlı tərəfdaş kimi tanınırlar. Hazırda ölkədə sahibkarlıq fəaliyyəti ilə aktiv məşğul olanların sayı 683 mindən çoxdur.**

# Qeyri-neft sektorunun iqtisadiyyatda çəkisi yüksəlib

## Son 20 ildə sənayenin bu sahəsində istehsal 21,6 dəfə artıb



Son 20 il ərzində Azərbaycanda istehsal olunan sənaye məhsullarının illik dəyəri 21,6 dəfə artaraq, 4 milyard manatdan 86,4 milyard manata çatıb. Sənaye məhsulunun ümumi həcmində özəl sektorun payı 2002-ci ildə 54,9 faiz olduğu halda, 2022-ci ildə 87,6 faiz təşkil edib. 2002–2022-ci illərdə ölkənin qeyri-neft-qaz sənayesində istehsalın həcmi 1,6 milyard manatdan 17,7 milyard manata çatıb ki, bu da 4,3 dəfə real artımdan xəbər verir. Bu dövrdə respublikada 4 min 95 sənaye müəssisəsi yaradılıb. 2002-ci ildə sənayedə istehsal həcmi 1,6 milyard dollar olduğu halda, keçən il bu rəqəm 10,4 milyard dollara çatıb.

Sahibkarlıq subyektlərinin dövlətin güzəştli kreditlərinə əlçatanlığını asanlaşdırmaq üçün tələb olunan sənədlərin sayı minimuma endirilib, sənədlərin notarial təsdiq olunması şərti ləğv edilib və 200 min manatadək kreditlər üzrə biznes plan tələbi aradan qaldırılıb. 2018-ci ildə isə güzəştli kreditlərin illik faiz dərəcəsi 5 faizə endirilib.

Sənaye zonalarında sahibkarlıq fəaliyyəti üçün zəruri infrastrukturun yaradılması, səmərəli işin təşkili üçün müxtəlif xidmətlərin göstərilməsi də özəl sektorun inkişafına göstərilən dövlət dəstəyi tədbirlərindəndir. İnnovativ sahibkarlığın inkişafında bilik iqtisadiyyatının, 4-cü Sənaye İnqilabının elementlərinin tətbiqi, qlobal dəyər zəncirinə inteqrasiya, klasterləşmə, sənayenin rəqəmsal transformasiyası, “ağıllı biznes” modellərinin yaradılması kimi məsələlər əsas hədəflərdəndir.

Lisenziyalar və icazələrin alınması sahibkarlıq fəaliyyəti üçün əsas şərtlərdəndir. Bu prosesi sadələşdirmək üçün İqtisadiyyat Nazirliyi tərəfindən, dövlət təhlükəsizliyindən irəli gələn hallar istisna olmaqla, sahibkarlara lisenziyaların “ASAN xidmət” mərkəzləri və “KOB evləri” vasitəsilə verilməsi davam etdirilir. Həmçinin lisenziya və icazələr elektron qaydada “Lisenziyalar və icazələr” portalı vasitəsilə verilir.

Ölkədə yaradılan əlverişli biznes və investisiya mühiti də sənayenin inkişafında əhəmiyyətli rol oynayıb. Başqa sözlə, respublikamızın beynəlxalq aləmdə etibarlı tərəfdaş kimi tanınması, əlverişli coğrafi mövqeyə malik mühüm tranzit mərkəz olması davamlı investisiya qoyuluşunu şərtləndirməklə sənayedə məhsul istehsalına müsbət təsir göstərib. 2004–2021-ci illərdə Azərbaycana, ümumilikdə, 288,9 milyard dollar həcmində investisiya yatırılması da məhz həmin amillərlə bağlı olub. Bir faktı da xatırladaq ki, təkcə ötən il ərzində əsas kapitala yönəldilən vəsaitin məbləğinin 18,3 milyard manata yüksəlməsi, bu sahəyə yatırılan investisiyaların 80,6 faizinin daxili mənbələr hesabına formalaşması da əlverişli biznes və investisiya mühitinin mövcudluğu nəticəsində reallaşıb.

Azərbaycanda investisiya cəlbediciliyinin güclənməsinə təsir göstərən əsas amillərdən biri də mövcud sahədə qanunverici-institusional tədbirlərin həyata keçirilməsidir. Bu baxımdan “İnvestisiya fəaliyyəti haqqında” Qanun böyük əhəmiyyətə malikdir. Bu qanun investisiyaların ölkə iqtisadiyyatına cəlbini stimullaşdırmaqla yanaşı, mülkiyyət formasından asılı olmayaraq bütün investorların hüquqlarının bərabər müdafiəsinə təminat verir. Bununla bərabər, “Xarici investisiyaların qorunması haqqında” Qanun da ölkədə sərmayədarların hüquq və mənafelərinin qorunması, yerli və xarici iş adamlarına bərabər əlverişli iş şəraitinin yaradılması ilə bağlı məsələləri tənzimləyir.

Azərbaycan hökuməti tərəfindən bir sıra xarici ölkələrlə ikiqat vergitutmanın aradan qaldırılması, habelə investisiyaların təşviqi və qarşılıqlı qorunması haqqında ikitərəfli və çoxtərəfli sazişlər imzalanması da davamlı investisiya qoyuluşunu sürətləndirir. Bütün bunlarla yanaşı, ixrac rüsumlarının ləğv edilməsi, idxalda rüsumların 15 faizlik maksimal həddinin müəyyənləşdirilməsi də ölkədə investisiya mühitinin liberallaşdırılmasına, sərmayə qoyuluşunun genişlənməsinə böyük təsir göstərən amillərdən biridir.

Bütün bunlarla yanaşı, Azərbaycan Prezident İlham Əliyevin 20 dekabr 2022-ci il tarixli fərmanı ilə əvvəlki illərin təcrübəsi nəzərə alınmaqla investisiya təşviqi mexanizmi təkmilləşdirilib. İnvestisiya təşviqi sənədi cari ilin yanvar ayının 1-dən 3 il müddətində sənaye məhəllələri, aqroparklar, turizm və rekreasiya zonaları, həmçinin müvafiq ərazilərdə həyata keçirilən layihələrə, eləcə də dövlət başçısı tərəfindən müəyyənləşdirilən istiqamətlər üzrə strateji təşəbbüslərin gerçəkləşdirilməsinə verilməsi nəzərdə tutulub.

İqtisadi Zonaların İnkişafı Agentliyindən aldığımız məlumata görə, respublikamızda 7 sənaye parkı (Sumqayıt Kimya, Mingəçevir, Balaxanı, Qaradağ, Pirallahı, Ağdam, “Araz Vadisi İqtisadi Zonası” sənaye parkları, 5 sənaye məhəlləsi (Hacıqabul, Masallı, Neftçala, Sabirabad, Şərur) fəaliyyət göstərir. İndiyədək sənaye zonalarına 6,6 milyard manat investisiya yatırılıb və 11 mindən çox daimi iş yeri yaradılıb. Növbəti mərhələdə sənaye zonalarına mövcud layihələr üzrə 780 milyon manata yaxın investisiya qoyuluşu, 6 min 400-dən çox daimi iş yerinin yaradılması nəzərdə tutulur.

Yeri gəlmişkən, Qarabağ və Şərqi Zəngəzurda da sənaye park və məhəllələrinin yaradılması xüsusi diqqətdə saxlanılır. Belə müəssisələrdən biri hazırda Ağdamda yaradılır. Burada qurulan sənaye parkında hazırda 19 rezident, 6 qeyri-rezident fəaliyyət göstərir. İndiyədək 12 milyon manata yaxın investisiya qoyulan bu parkın ilk müəssisəsinin gələn il fəaliyyətə başlayacağı gözlənilir.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

# “Türk dövlətləri iqtisadiyyatı”nın Budapeşt təqdimatı

**İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) Türk Dövlətləri Təşkilatının (TDT) katibliyi ilə birgə hazırladığı “Türk dövlətləri iqtisadiyyatı” kitabının daha bir təqdimatı Macarıstanın paytaxtı Budapeşt şəhərində keçirilib.**



Mərkəzdən verilən məlumata görə, TDT-nin Macarıstan nümayəndəliyinin təşkilatçılığı və Azərbaycan Respublikasının Macarıstandakı səfirliyinin dəstəyi ilə reallaşan tədbirdə İİTKM-in Türk Dünyası Araşdırmalar Mərkəzinin (TDAM) rəhbəri Ayhan Satıcı qonaqlara kitab haqqında ətraflı məlumat verib.

Tədbirdə Azərbaycan Respublikasının Macarıstandakı fövqəladə və səlahiyyətli səfiri Tahir Tağızadə, Türk dünyası ölkələrinin diplomatik korpus təmsilçiləri, Macarıstan Xarici İşlər Nazirliyinin Mərkəzi Asiya və Cənubi Qafqaz üzrə nümayəndəsi, Macarıstan Beynəlxalq Münasibətlər İnstitutunun elmi işçiləri, Metropolitan Universitetinin nümayəndələri və Macarıstan “Daily News” xəbər agentliyinin jurnalistləri iştirak ediblər.

TDAM-ın rəhbəri A.Satıcı “Türk dövlətləri iqtisadiyyatı” kitabının 7 ölkədən 35-dən çox müəllifin iştirakı ilə hazırlandığını, TDT-nin Macarıstan nümayəndəliyinin rəhbəri Talaibek Kydyrov isə kitabın türk dünyası üçün yeni bir yol xəritəsi olduğunu və növbəti birgə araşdırmalara stimul verdiyini bildirib.

***XQ***

# Türkiyə Qarabağa günəş panelləri göndərir

**Anadolu Agentliyinin məlumatına görə, Türkiyənin Adana şəhərindəki “Solitek” şirkəti hazırladığı saxlama panelini və avtomatlaşdırma sistemini Azərbaycana ixrac edir. Bunlardan, əsasən, Qarabağ bölgəsində kənd yerlərinin günəş enerjisinə tələbatını ödəyəcək baza stansiyalarında istifadə olunacağı nəzərdə tutulur.**



İçərisində litium-dəmir fosfat batareyaları olan panel günəşli havalarda enerjinin istifadə olunmamış hissəsini saxlayaraq baza stansiyasının gecə də işləməsini təmin edəcək. Havanın buludlu olduğu və günəş enerjisi istehsalının təmin edilə bilmədiyi hallarda stansiyanın ehtiyac duyduğu elektrik enerjisi şirkət tərəfindən hazırlanmış avtomatlaşdırma proqramı ilə Türkiyədən gətirilən generatordan təmin ediləcək. Eyni zamanda avtomatlaşdırma ilə generatordan əldə edilən elektrik enerjisinin bir hissəsi də paneldəki batareyalarda saxlanılacaq.

Adana şirkəti artıq 33 panel və avtomatlaşdırma sistemindən 25-ni tamamlayaraq Qarabağa göndərib.

***XQ***

Müstəqilliyimizin yetirməsi

# DTX Akademiyası 25 yaşını qeyd edir

**Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) Mədəniyyət Mərkəzində DTX-nin Heydər Əliyev adına Akademiyasının yaranmasının 25 illik yubileyi ilə bağlı təntənəli mərasim keçirilmişdir. Tədbirdə hüquq-mühafizə və digər dövlət orqanlarının rəhbərləri, DTX-nin rəhbər heyəti və əməkdaşları, ali təhsil müəssisələrinin rektorları, millət vəkilləri və təhlükəsizlik orqanlarının veteranları iştirak etmişlər. Bu barədə DTX-nin mətbuat xidməti XQ-yə məlumat vermişdir.**




Öncə ümummilli lider Heydər Əliyevin və Azərbaycan Respublikasının müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsi birdəqiqəlik sükutla yad olunmuş, Dövlət himni səsləndirilmişdir. Sonra akademiyanın 25 illiyinə həsr olunmuş videoçarx nümayiş etdirilmişdir.

DTX rəisi, general-polkovnik Əli Nağıyev qonaqları salamlayaraq, akademiyanın professor-müəllim heyətini və kursantlarını yubiley münasibətilə təbrik etmişdir. Xidmət rəisi 25 il bundan əvvəl - 1998-ci il dekabrın 1-də ulu öndər Heydər Əliyevin müvafiq sərəncamı ilə xüsusi xidmət orqanları üçün ali təhsilli kadrların hazırlanması məqsədilə təhlükəsizlik orqanı akademiyasının yaradılmasının, eləcə də 25 illik yubileyinin məhz Ümummilli liderin anadan olmasının 100-cü ildönümünə təsadüf etməsinin bu orqanların tarixində mühüm hadisə olduğunu vurğulamışdır. Qeyd etmişdir ki, hazırda təhsil ocağında Heydər Əliyevin peşəkarlıq məktəbinin və vətənpərvərlik irsinin sadiq davamçıları yetişdirilir.

Şərəfli ömrünün 25 ilini həsr etdiyi təhlükəsizlik orqanları qarşısında Ulu öndərin əvəzsiz xidmətlərini nəzərə alaraq, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2005-ci ilin dekabr ayının 20-də imzaladığı fərmanla akademiyaya dahi şəxsiyyət Heydər Əliyevin adının verilməsinin isə təhlükəsizlik orqanlarının tarixinə növbəti əlamətdar hadisə kimi daxil olduğunu qeyd edən general-polkovnik Əli Nağıyev bildirmişdir ki, bu gün DTX-nin və akademiyanın şəxsi heyəti öz fəaliyyətini Ümummilli liderin amalları və ideyaları üzərində qurmaqdadır.



DTX rəisi Prezident İlham Əliyevin diqqət və qayğısı ilə ötən müddət ərzində akademiyanın maddi-texniki bazasının təkmilləşdirilməsi, təhsilin müasir tələblərə uyğun şəkildə təşkil edilməsi, çağdaş texnoloji yeniliklərin uğurla tətbiqi tədris prosesinin səviyyəsinin yüksəldilməsi yönümündə görülən işlərdən ətraflı danışmış, son illərdə kursantların ölkəmizin aparıcı ali təhsil müəssisələri arasında keçirilmiş müxtəlif bilik yarışlarında ardıcıl olaraq qalib adını qazanmasının qürurverici hal olduğunu demişdir.

Daha sonra digər çıxışçılar Azərbaycanda təhsil-tədris sahəsində aparılan islahatlardan, akademiyanın bu strateji sektorun inkişafına verdiyi töhfələrdən bəhs etmiş, professor-müəllim heyətinə və kursantlara çətin və şərəfli yolda uğurlar arzulamışlar.

Tədbirin rəsmi hissəsi başa çatdıqdan sonra qonaqlara mədəniyyət və incəsənət xadimlərinin ifasında bədii proqram təqdim olunmuşdur.

Akademiyanın yaranmasının 25 illik yubileyi ilə əlaqədar silsilə tədbirlər dekabrın 2-də "Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyası Ulu Öndər irsinin daşıyıcısıdır" adlı elmi-praktiki konfransla davam etmişdir.

Xidmət rəisi qeyd etmişdir ki, əməliyyat şəraiti baxımından, həmçinin kibertəhlükəsizlik və informasiya təhlükəsizliyi cəhətdən meydana gələn yeni çağırışlar akademiyada təhsil alan, gələcəklərini təhlükəsizlik orqanları ilə bağlayacaq kursantların öz biliklərini, burada çalışan mütəxəssislərin isə bacarıq və vərdişlərini dövrün tələblərinə uyğun artırmalarını, tədris proqramlarının davamlı yenilənməsini vacib edir. Hazırda bu istiqamətdə lazımi tədbirlər görülməkdədir.

***XQ***

# Yanğınsöndürənlər ağac əkdilər

**Fövqəladə Hallar Nazirliyi Dövlət Yanğın Nəzarəti Xidmətinin (DYNX) təşkilatçılığı ilə Bakı şəhəri, Binəqədi rayonu, M.Ə.Rəsulzadə qəsəbəsindəki şəhid Ramiz Aboyev adına parkda "Heydər Əliyev İli" çərçivəsində ağacəkmə aksiyası keçirilib.**



Aksiyada rayon icra hakimiyyətinin başçısı Elxan Allahverdiyev, FHN DYNX-nin rəis müavini daxili xidmət polkovniki Səyavuş Qasımov, Xidmətin əməkdaşları və rayonda fəaliyyət göstərən bir sıra idarə va təşkilatların işçiləri iştirak ediblər.

Aksiyanın keçirilməsində məqsəd ölkəmizdə ekologiyanın qorunması və ətraf mühitin sağlamlaşdırılmasına hər zaman böyük əhəmiyyət vermiş Ulu öndər Heydər Əliyevin əziz xatirəsini yad etmək, eləcə də vətəndaşlar arasında ekoloji mədəniyyəti, təbiətə olan qayğı hissini təbliğ etməkdən ibarət olub.

Aksiyada 100-dən artıq müxtəlif növ ağac əkilib.

***XQ***

# Hərbi təminat avadanlığına baxış





**Baxış-müsabiqəsində qış aylarında bölmələrin yüksək döyüş qabiliyyətində saxlanılması, eləcə də şəxsi heyətin soyuq iqlim şəraitində gecə və gündüz heç bir çətinlik çəkmədən xidmət aparması üçün istismarda olan arxa təminatı avtomobil texnikalarının sazlığı yoxlanılıb.**

Hərbi qulluqçuların yemək və su tələbatını ödəmək üçün təyin edilmiş arxa təminatı avtomobil texnika və qurğularının, səyyar soyuducuların, səyyar tipli çörək zavodlarının, su çənlərinin və səhra mətbəxlərinin cəlb edildiyi baxış-müsabiqəsində texnikalara gündəlik texniki xidmətin göstərilməsi ardıcıllığına, onların texniki göstəricilərinin yüksək səviyyədə saxlanılmasına, həmçinin təlimata uyğun istifadə və istismar olunmasına xüsusi diqqət yetirilib.

Baxış-müsabiqəsinin sonunda ən yaxşı nəticəni göstərən hərbi hissələr mükafatlandırılıb.

***XQ***

# Naxçıvan xəbərləri

## Ehtiyacı olan uşaqlara yardım



***Muxtar respublikada sosial qayğıya ehtiyacı olan məktəblilərə qış geyimləri verilib.***

Bu münasibətlə təşkil olunan görüşdə Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin Səlahiyyətli Nümayəndəliyinin media məsələləri üzrə məsul şəxsi Günay Malikqızı, Muxtar Respublika Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova, təhsil nazirinin müavini Elxan Nəcəfov, əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Nicat Babayev və Həmkarlar İttifaqları Şurası sədrinin müavini Ramiz Cəfərov muxtar respublikada həyata keçirilən dövlət uşaq siyasətinin uğurlu nəticələri haqqında məlumat veriblər.

Bildirilib ki, bu gün bütün kateqoriyalardan olan uşaqların hərtərəfli inkişafı üçün ardıcıl tədbirlər görülür. Onların hüquqlarının və sağlamlıqlarının qorunması, sosial müdafiəsinin, asudə vaxtlarının səmərəli təşkili, istedadlarının üzə çıxarılması ilə bağlı tədbirlər, o cümlədən monitorinqlər, seminarlar keçirilir.

Mərasimdə sosial qayğıya ehtiyacı olan bir qrup uşağa qış geyimləri təqdim edilib. Hər iki valideynini itirmiş və ya valideyn himayəsindən məhrum olan, tək valideynli, sağlamlıq imkanları məhdud, aztəminatlı, çoxuşaqlı, şəhid, qazi övladları olmaqla, 40 uşağa Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin, 264 uşağa Naxçıvan Muxtar Respublikasının Həmkarlar İttifaqları Şurasının, 150 uşağa isə Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi adından qış geyimi verilib. Ümumilikdə, 454 xüsusi qayğıya ehtiyacı

Sosial qayğıya ehtiyacı olan şagirdlərin valideynləri adından çıxış edən Turanə Tağıyeva uşaqlara göstərilən bu diqqətə görə dövlət rəhbərliyinə minnətdarlığını bildirib.

## "Zamana meydan oxuyan Zaman"

***Naxçıvan Şəhər Gənclik Mərkəzində şəhid Zaman Məmmədovun həyatına və döyüş yoluna həsr edilmiş "Zamana meydan oxuyan Zaman" filminin təqdimatı keçirilib.***



Şəhid ailələri, qazilər, rəsmilər, ictimaiyyət nümayəndələri və gənclərin iştirak etdikləri mərasimdə Naxçıvan Muxtar Respublikasının gənclər və idman nazirinin müavini, Azərbaycan Vətən Müharibəsi Veteranları və Şəhid Ailələri Naxçıvan Muxtar Respublika Təşkilatının sədri Məcid Seyidov, "Demokratik Azərbaycan Naminə" gənclərin İctimai Birliyinin sədri Elməddin Behbud xalqımızın Vətən müharibəsində qazandığı şanlı qələbədən söz açıblar, döyüşlərdə mərdliklə iştirak edən Vətən oğullarının böyük şücaət və qəhrəmanlıqlarından danışıblar. Onlar savaş qəhrəmanlarımızın həyat və döyüş yolunun indiki və gələcək nəsillərə ali dəyərlər aşıladığını vurğulayıblar.

Qeyd olunub ki, Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin dəstəyi ilə "Bir ölər, min dirilərik" Vətən uğrunda döyüşlərdə şücaət göstərmiş qəhrəmanların tanıdılması layihəsi çərçivəsində hazırlanan 3 filmdən biri Kəngərli rayonundan olan Vətən müharibəsi şəhidi Zaman Məmmədova həsr olunub. Layihə çərçivəsində Bakıda və Naxçıvanda aparılan film çəkilişlərində şəhidlərimizin ailə üzvləri, döyüş yoldaşları və dostları iştirak ediblər.

Dövlətimizin şəhid ailələrinə göstərdiyi qayğıdan məmnunluğunu ifadə edən qəhrəman şəhidin atası Habil Məmmədov filmin ərsəyə gəlməsində və təqdimatında əməyi, dəstəyi keçənlərə, o cümlədən iştirakçılara minnətdarlıq edib, bu cür filmlərin digər şəhidlərimiz haqqında çəkilməsi arzusunu diqqətə çatdırıb.

Sonra iştirakçılar yeni filmi böyük maraq və həyəcanla izləyiblər.

Xatırladaq ki, şəhid Zaman Məmmədov ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə", "Hərbi xidmətlərə görə", "Füzulinin azad olunmasına görə medalları ilə təltif edilib.

## Yeni məktəb direktorları

***Naxçıvan Muxtar Respublikasında ilk dəfə ümumtəhsil məktəblərində boş olan direktor vəzifələrinə təyinatlar olub. Direktor vəzifəsi üzrə namizədlərin müəyyən oluması iki formada təşkil edilib:***



Yerdəyişmə qaydalarına uyğun olaraq hazırda direktor, təlim-tərbiyə işləri üzrə direktor müavini, məktəbdənkənar və sinifdənxaric tərbiyə üzrə təşkilatçı vəzifələrində çalışan namizədlərin müsahibəyə cəlb olunması; məktəbin növbədənkənar pedaqoji şura iclasında pedaqoji heyətin rəyi əsasında seçilən 2-3 namizədin müsahibəyə cəlb edilməsi. Namizədlər yaradılmış komissiya tərəfindən qanunvericilik üzrə nəzəri, peşə üzrə texniki biliklər və idarəetmə bacarıqları olmaqla müsahibə olunub. Müsahibədə, ümumilikdə, 25 vakant yer üçün 55 namizəd iştirak edib.

Namizədlər 5 ballıq sistemlə qiymətləndirilib və yekun orta balı 2,5 və daha yüksək olan namizədlər vəzifəyə uyğun hesab edilib. Ümumilikdə, müsahibənin nəticəsinə uyğun olaraq 11 namizəd müvafiq məktəblərə direktor vəzifəsinə təyinat alıb.

Yeni təyin olunan direktorlarla görüşdə iştirak edən Azərbaycan Respublikası Prezidentinin Naxçıvan Muxtar Respublikasında Səlahiyyətli Nümayəndəliyinin media üzrə məsul şəxsi Günay Malikqızı və Naxçıvan Muxtar Respublikası təhsil nazirinin müavini Elxan Nəcəfov yeni təyin olunan direktorları təbrik edib, onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıblar.

## Könüllülərin birlik həftəsi

***5 Dekabr – Beynəlxalq Könüllülər Günü qarşısında Naxçıvanda tədbirlər həftəsi keçirilir. Heydər Əliyev Muzeyində "Könüllünü inkişafa aparan yol" adlı görüşlə "Naxçıvan Könüllülərinin Birlik Həftəsi"nə start verilib.***

Açılış mərasimində qeyd olunub ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda könüllü hərəkatı geniş vüsət alıb, bu sahədə böyük nailiyyətlər əldə olunub. Könüllü fəaliyyətin hüquqi bazası yaradılıb, müxtəlif dövlət və özəl qurumlarda gənclərin könüllülük fəaliyyətinə cəlbinə dəstək göstərilib. Naxçıvanda fəaliyyət göstərən könüllülərin və könüllülərlə işləyən təşkilatların sayı artmaqdadır və bu da gənclərimizin gələcək həyatı, karyerası üçün yeni imkanların, təcrübələrin qazanılması deməkdir. Əvvəllər könüllü kimi fəaliyyət göstərən gənclərin böyük əksəriyyəti hazırda müxtəlif peşə sahibləri kimi iş həyatını uğurla davam etdirir.




Gənclərdən Zəhra İsmayılova könüllü kimi öz fəaliyyətii və onlara göstərilən dəstəkdən danışıb, minnətdarlığını ifadə edib.

Qeyd edək ki, "Naxçıvan Könüllülərinin Birlik Həftəsi" çərçivəsində müxtəlif səpkili tədbirlərlərin keçirilməsi nəzərdə tutulur.

***Səbuhi HƏSƏNOV***
***XQ***

**Naxçıvan**

Media müsabiqəsi mövzusu

# TƏBİB – tibbi xidmətdə innovasiyalar, vətəndaş məmnuniyyəti və sağlam gələcək

**Ölkəmiz və xalqımız üçün böyük əhəmiyyət kəsb edən icbari tibbi sığorta əhalinin marağında olan sosial layihədir. Prezident İlham Əliyev vətəndaşlara yüksək səviyyədə və keyfiyyətli tibbi xidmətin göstərilməsi məqsədilə icbari tibbi sığortanın geniş miqyasda həyata keçirilməsinin vacibliyini hər zaman qeyd edib. 2018-ci ildə məhz Prezidentin tövsiyəsi ilə "Tibbi sığorta haqqında" Qanun tamamilə yenilənib və sənədə 256 dəyişiklik edilib. Səhiyyə Nazirliyi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi ilə sıx əlaqələr qurulub və mütəmadi olaraq icbari tibbi sığorta ilə bağlı məsələlər müzakirə edilib.**

## Pilot layihələr

İcbari Tibbi Sığorta (İTS) üzrə Dövlət Agentliyi 2016-cı ildə fəaliyyətə başlayıb. İTS-nın məqsədi əhalinin tibbi xidmətlərə əlçatanlığını təmin etməkdir. Bu istiqamətdə 2017–2019-cu illərdə Mingəçevirdə və Yevlaxda pilot layihələr həyata keçirilib. İcrasına 2017-ci il yanvarın 1-dən başlanılan layihə müddətində pilot ərazilərdə sığortaolunanların ümumi sayı 256 min 401 nəfər olub. 9 ayda Mingəçevir şəhər Mərkəzi Xəstəxanasında sığortaolunan 104 min 81 nəfərə 352 min 271, Yevlax rayon Mərkəzi Xəstəxanasında isə 44 min 202 nəfərə 149 min 202 ambulator xidmət göstərilib. Mingəçevirdə 11 min 148 nəfər 35 min 515, Yevlaxda isə 2 min 332 nəfər 3 min 770 stasionar xidmətlə təmin olunub. Yanvar–sentyabr aylarında Mingəçevirdə 10 min 541 nəfər 14 min 856, Yevlaxda isə 3 min 977 nəfər 4 min 657 təcili və təxirəsalınmaz tibbi yardım xidməti alıb. 2017-ci ilin 9 ayı üzrə göstərilən xidmətlərin dəyəri müvafiq olaraq 6 milyon 59 min 288 manat və 1 milyon 779 min 879 manat (cəmi 7 milyon 839 min 167) təşkil edib. Bunlar sadəcə rəqəm deyil. Nə qədər insanın sağlamlığına qovuşmasının, neçə ailənin sevincinin göstəricisidir.

Növbəti ildən icbari tibbi sığortanın ikinci mərhələdə tətbiqinə başlanılıb. Gəncə, Şirvan, Qazax, Lənkəran, Salyan da daxil olmaqla daha 36 şəhər və rayon icbari tibbi sığorta sisteminə qoşulub. Üçüncü mərhələdə Bakı, Sumqayıt, Abşeron, Xankəndi, Qubadlı, Zəngilan və Şuşa əhalisi icbari tibbi sığorta sisteminə cəlb olunub. Beləliklə, 2021-ci ildən icbari tibbi sığorta bütün ölkə ərazisini əhatə edib.

## Kadr təminatı

Qeyd edək ki, baza zərfinə daxil olan tibbi xidmətlərdən bəzilərinin, xüsusilə həyati vacib, dəyəri yüksək əməliyyatların pilot ərazilərdəki tibb müəssisələrində müvafiq maddi-texniki bazanın və ixtisaslı mütəxəssislərin olmaması səbəbindən həmin xidmətlər agentliklə müqavilə bağlamış özəl tibb müəssisələri tərəfindən göstərilib. Xəstəxanaların seçimi zamanı onların pilot ərazilərə yaxın yerləşməsi, tam profilli olması nəzərə alınıb. Bunlar ürək-damar cərrahiyyəsi, uroloji əməliyyatlar, travmatologiya, oftalmologiya, neyrocərrahiyyə və ümumi cərrahiyyə üzrə əməliyyatlardır.

Kadr təminatının yaxşılaşdırılması istəqamətində proqram həyata keçirilib. Proqram üzrə müxtəlif xarici ölkələrdə təhsil almış 83 həkim-mütəxəssis işə qəbul olunub. Onlardan 54-ü cərrahi, 29-u isə terapevtik profillər üzrə ixtisaslaşmış həkimlərdir. Bu tibb heyəti yalnız Bakı, Sumqayıt, Abşeronda deyil, eyni zamanda Gəncə, Ağdaş, Mingəçevir, Cəlilabad, Şəki rayon və şəhərlərində yerləşən tibb müəssisələrində çalışırlar. Xarici ölkələrdə təhsil almış bu həkimlər öz profilləri üzrə çalışmaqla yanaşı, eyni zamanda xarici təcrübənin, müasir müayinə-müalicə metodlarının yerli kadrlara öyrədilməsini, həkimlərin nəzəri bilik və praktik vərdişlərinin yaxşılaşdırılmasını həyata keçirirlər.



## Baza xidmətləri və dəyişikliklər

İTS çərçivəsində vətəndaşlara təcili və təxirəsalınmaz tibbi yardım, ilkin tibbi-sanitariya yardımı; ambulator, stasionar və fizioterapevtik xidmətlər, funksional-diaqnostik və laborator müayinələr, cərrahi əməliyyatlar (o cümlədən həyati vacib, dəyəri yüksək əməliyyatlar) aid olmaqla 2550 tibbi xidmət göstərilib. Bu zərf əhalinin sağlamlıq vəziyyətinin yaxşılaşdırılmasına, tibbi xidmətlərin keyfiyyətinin yüksəldilməsinə, insanların vaxtında müvafiq tibbi yardımla təmin olunmasına xidmət etdiyindən müayinə və müalicə üçün regionlardan şəhərə əhalinin axını azaldı. Bu, bölgələrdəki tibb müəssisələrində olan şəraitin, xidmətlərin keyfiyyətinin yaxşılaşdırıldığını göstərirdi. Tibbi sığorta üzrə göstərilən xidmətlərin sayının və keyfiyyətinin artırılması əhalidə məmnunluq yaratdı. Xidmətlər zərfi daha da zənginləşdirildi. Müasir texnologiyaların səhiyyəyə gətirilməsi ilə tibbi xidmətlərə vətəndaşın əlçatanlığı təmin edildi.

Hazırda Nazirlər Kabinetinin "İcbari tibbi sığorta üzrə xidmətlər zərfi"ndə dəyişiklik edilməsi barədə qərarına əsasən, İTS üzrə Dövlət Agentliyi tərəfindən xidmətlərin sayı və çeşidi artırılıb, eləcə də bəzi xidmətlərin qiyməti yenilənib. Belə ki, 765 sayda yenisi əlavə edilməklə xidmətlərin sayı 3315-ə çatdırılıb. Bunlar 200-ü laborator, 522-si stasionar, qalanları invaziv radioloji və ambulator tibbi xidmətlərdir. Yeni xidmətlər sırasına vətər, əzələ, sümük iliyi, böyrək və qaraciyər transplantasiyası əməliyyatları da əlavə olunub. Təminata alınmış əməliyyatlar sırasına ürək qapaqlarının dəyişdirilməsi və təmiri, anadangəlmə ürək qüsurlarının cərrahiyyəsi, minimal invaziv üsulla həyata keçirilən endovaskular əməliyyatlar, beyin və beyin qişalarında aparılan əməliyyatlar, xoşxassəli beyin şişlərin çıxarılması, sümük, əzələ uzadılması, serebral iflic zamanı aşağı ətraflarda aparılan bükücü vətərin uzadılması, vətərin fiksasiyası, skolioz əməliyyatı kimi dəyəri yüksək tibbi xidmətlər daxil edilib.



## Tibb işçilərinin də qazancı artıb

Dəyişikliklərin tətbiqi təkcə xidmətdən istifadə edənlərin deyil, eyni zamanda, xidmət göstərənlərin də marağına hesablanıb. İcbari tibbi sığorta çərçivəsində həkimlərin əmək haqlarına 2 növ əlavə tətbiq edilib, orta və kiçik tibb işçilərinin maaşları artırılıb. 1464 tibbi xidmətin tarifi dəyişdirilərək aktual bazar qiymətlərinə uyğunlaşdırılarılıb: ambulator tibbi xidmət üzrə ixtisaslı həkim müayinəsi 17 manatdan 25 manata, ginekoloq müayinəsi (USM ilə) 25 manatdan 35 manata, laboratoriya xidməti üzrə hepatit B səthi anticismi (HBsAb) 5 manatdan 16 manata, Kalsiferol (Vitamin D) təyini 13 manatdan 21 manata qadırılıb. Stasionar tibbi xidmətlər üzrə doğuşa əllə yardım 350 manatdan 500 manata, tək koronar arteriyanın (aorto) koronar şuntlama əməliyyatı 4000 manatdan 4500 manata çatdırılıb. Xidmətlər zərfinə edilən digər dəyişikliklərə əsasən, il ərzində limit sayı 300 olan koxlear implantasiya və oynaqdaxili endoprotezləşdirmə əməliyyatları üzrə sığorta limiti ləğv olunub. Qaraciyər, böyrək və sümük iliyi transplantasiyası əməliyyatları üzrə isə illik limit sayı müvafiq olaraq 100, 150 və 20 müəyyən edilib. Bu transplantasiya əməliyyatları zamanı və transplantasiyadan sonra resipiyentin (donoru qəbul edən şəxs) dərman təchizatı da sığorta ilə təminata alınıb. Qeyd edək ki, transplantasiya üçün bir donorun əməliyyata hazırlanması və əməliyyatı da tibbi xidmətin tarifinə daxildir.

Statistik göstəricilərə görə, 2022-ci ildə 55 nəfər həkim-mütəxəssisə 1,5 milyon manata yaxın, cari ilin yanvar–iyul ayları üzrə 83 nəfər həkim-mütəxəssisə 2,5 milyon manatdan çox həvəsləndirici əlavələr ödənilib. 2019-cu illə müqayisədə dövlət tibb müəssisələrində işləyən həkim-mütəxəssislərin minimum əmək haqlarında 3,2 dəfə artım, gəlirlərində isə 5 dəfədən 50 dəfəyədək artım olub.

## İTS üzrə Dövlət Agentliyinin gələcək hədəfləri

İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin hədəflərindən biri ölkədə universal tibbi təminata nail olmaqdır. Universal tibbi təminat ambulator müalicə üçün nəzərdə tutulan dərman vasitələrini qismən də olsa icbari tibbi sığorta tərəfindən qarşılayır. Gələcəkdə sağlamlığın qorunması üçün vacib hesab edilən bütün tibbi xidmətlər, o cümlədən ambulator şəraitdə dərman təminatı xidmətlər zərfinə daxil ediləcək. Hazırda bunun üzərində iş gedir və Türkiyə, Litva, Koreya kimi ölkələrin təcrübələri öyrənilir. Mərhələli şəkildə ambulator müalicədə resept əsasında yazılan bəzi dərmanların sığorta hesabına qarşılanması nəzərdə tutulur. İlk il kardioloji, 2-ci il həzm sistemi, növbəti ildə isə tənəffüs sistemi xəstəlikləri üçün dərman vasitələrini sığortaya daxil etmək hədəflənib. Bu, onu göstərir ki, icbari tibbi sığorta həkimlərin rifahına və bütövlükdə, səhiyyə sisteminə müsbət təsir göstərir. 3 ildən də az müddətdə belə uğurlara nail olunubsa, uzunmüddətli perspektivdə daha böyük nailiyyətlər əldə ediləcək.

Hazırda işğaldan azad olunan Şuşa, Zəngilan, Laçın və Ağdamda səhiyyə infrastrukturunun təkmilləşdirilməsi məqsədilə modul tipli xəstəxanalar quraşdırılıb. Travmatoloq, ümumi cərrah, kardioloq, revmatoloq, anestezioloq-reanimatoloq, funksional-diaqnostika həkimi, orta və kiçik tibb işçiləri, eləcə də qeyri-tibb işçiləri çalışırlar. Sakinlər icbari tibbi sığortanın xidmətlər zərfindən yararlanırlar. Cari ilin sonuna qədər Hadrutda modul tipli xəstəxananın quraşdırılması başa çatacaq. Növbəti illərdə işğaldan azad olunmuş digər ərazilərdə də belə xəstəxanalar açılacaq və sakinlər tibbi sığortadan yararlanacaqlar. TƏBİB əhalinin sağlamlığının qorunması sahəsində əhali üçün əlverişli şərtlər yaradıb, tibb müəssisələrinin fəaliyyətini icbari tibbi sığorta sisteminin tələblərinə uyğunlaşdırmaqla bərabər, xidmətlərin keyfiyyətinin müasir tələblərə cavab verməsinə nəzarət edir.

Bunlar vətəndaşların sağlamlığı naminə səhiyyədə aparılan islahatların uğurlu nəticələridir. Artıq əhalinin aztəminatlı təbəqəsi bir sıra xəstəliklərin müalicəsi və əməliyyatı üçün xarici ölkələrə üz tutmur. Ölkənin səhiyyə müəssisələrində əlavə xərclərdən azad şəkildə tibbi sığortadan yararlanır və sağlamlıqlarına qovuşurlar.

Bununla da ölkəmizin səhiyyə sistemində struktur islahatları aparılmaqla dövlətin və hökumətin sosial siyasəti istiqamətində yeniliyə imza atılıb, səhiyyədə idarəetmə təkmilləşdirilib. Bu sahədə mühüm addımlardan biri olan icbari tibbi sığortanın tətbiq olunması isə özünü uğurla doğruldur. Sistem tədricən daha da təkmilləşəcək və nəticədə həm əhalinin daha çox tibbi xidmətlərə əlçatanlığı artacaq, həm də tibb müəssisələrinin infrastrukturu yaxşılaşacaq.

***Zərifə HÜSEYNOVA***
***XQ***

**Məqalə Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi (TƏBİB), Medianın İnkişafı Agentliyi və Azərbaycan Mətbuat Şurasının "Bir ömür xidmətinizdə..." mövzusundakı birgə müsabiqəsinə təqdim edilir.**

Epidemioloji çağırış

# Qızılcanı peyvəndlə cilovlayaq!

## İnsanlar doğmalarını itirmək qorxusu yaşamasınlar

**Sosial şəbəkələrdə Bakı şəhər Qaradağ rayonunda yerləşən 195 saylı orta məktəbin 4-cü sinif şagirdi, 10 yaşlı Rinatın, ötən həftə isə Kürdəmir rayonunda 4 yaşlı Rüfət Qəriblinin bu xəstəlik səbəbindən vəfat etdiyi barədə xəbərlər paylaşılıb.**

Bundan başqa dekabrın 1-də Sabirabadda qızılca xəstəliyindən öldüyü deyilən uşaqla bağlı TƏBİB açıqlama verib: "2022-ci il təvəllüdlü azyaşlı 30.11.2023-cü il tarixində saat 12:47-də Sabirabad Rayon Mərkəzi Xəstəxanasının Təcili tibbi yardım şöbəsinə yerləşdirilib. Ona qızılcanın ağırlaşmış forması, neyrotoksikoz, ensefalit, kəskin tənəffüs, ürək-damar çatışmazlığı (III dərəcə) diaqnozları qoyulub. Azyaşlı reanimasiya şöbəsinə yerləşdirilib. Həkimlərin səylərinə baxmayaraq, dekabrın 1-də saat 00:15-də vəfat edib".

**Məktəblərdə şagirdlər arasında qızılca xəstəliyinin yayılması ilə bağlı Elm və təhsil naziri Emin Əmrullayev**



bildirib ki, hazırda üç şagirddə qızılca xəstəliyinin olması barədə məlumat var: "Məktəblərdə şagirdlər arasında qızılcanın yayılması ilə bağlı diaqnoz qoyma nə mənim, nə də direktorun səlahiyyətindədir. Növbəti günlərdə yoluxma halları artarsa, bəzi sinflərin, yaxud, məktəblərin müəyyən müddətlik distant təhsilə keçirilməsinə qərar verilə bilər".

**Qızılca alovlanmaları ilə bağlı ATU-nun əczaçılıq kafedrasının müdiri, tibb elmləri doktoru Musa Qəniyev XQ-yə bildirdi:**

– ÜST-nın 28 aprel 2022 tarixli məlumatında deyilirdi ki, sanitar-karantin məhdudiyyətləri tezliklə aradan qaldırılarsa, bizi qızılcanın uşaqlar arasında pandemik halı ilə bağlı "mütləq faciə riski" gözləyir. Əslində, bu xəbərdarlığın ilkin bəndi, məlum infeksiyanın baş verəcək labüd sıçrayışlı artımının səbəbi idi. Yəni sərt karantin tələbləri və maska taxılması, dövrü infeksiyaların nisbi "aqressivləşməsini" və sonda, epidemiya şəkilli artımını qaçılmaz edirdi. Bu haqda 2020-ci ilin aprel ayından başlayaraq, dəfələrlə yazmış, xüsusən ilkin uşaqlıq (1–3 yaş) və birincili uşaqlıq (3–6 yaş) dövründə olanlara maska taxdırmağın, bağışlanılmaz səhv olduğunu söyləmişəm.

Bu il avqust ayında bildirmişdim ki, xronoloji bioritm və biometroloji faktorlara birbaşa bağlılıq və asılılıq səbəbindən, COVID-19 pandemiyası başladıqdan sonra, Günəşin ekliptikada ardıcıl növbələşən 3-cü yay gündönümü tam olduğu gündən – 22 iyun 2023-cü ildən, artıq yoluxma fəallığını saxlayan (qızılca infeksiyasından başqa) heç bir "aqressiv" virus infeksiyası yoxdur. Odur ki, qızılcanın hazırkı kəskin artımı labüd və qaçılmazdır, lakin təhlükəli deyildir.

İndi isə, qızılcanın dinamik artımından yaranan narahatlıqla bağlı onu deyə bilərəm ki, istənilən infeksiyanın potensial fəallığını dəyərləndirən 2 əsas göstərici olur:

a) yoluxduruculuq qabiliyyəti – Ro indeksi



b) letallıq (ölüm törətmə) əmsalı.

Ro indeksinə görə, qızılca bütün məlum virus infeksiyaları içərisində birincidir. Yəni bir qızılca xəstəsi 11–18 nəfəri yoluxdurub xəstələndirir (Ro=11–18). Halbuki, bu indeks COVID– 19-da 2–2,2; Fəsli qripdə 1,3-ə bərabərdir və s. Odur ki, qızılcaya "heç bir vaxt yoluxmamaq" fikri tamamilə yanlış və əsassızdır. Hər bir insan bu infeksiyaya yoluxmalıdır və yoluxur. Bunun üçün xəstə ilə hətta birbaşa kontakt belə lazım deyildir. İnsanın (uşağın) olduğu otaqda, ondan 2 saat əvvəl qızılcalı xəstə olubsa, yenə də yoluxma qaçılmazdır. Odur ki, xəstəliyin hazırda müşahidə edilən artım tempi təşviş və qorxuya səbəb olacaq müstəsna bir hal kimi təqdim olunmamalıdır.

**Professor qızılcanın ağırlaşmaları nəticəsində baş verən ölüm hallarına da toxundu:**

– İnfeksiyaların xüsusi təhlükəliliyini dəyərləndirən letallıq əmsalıdır. Bu göstəriciyə görə, qızılcanın kütləvi epidemik halı müşahidə olunan XXI əsrdə törətdiyi ölüm, cəmi 0,004–0,28 faizdir. Başqa sözlə desək, bu göstəriciyə görə qızılca, bütün məlum virus infeksiyalarından geridir, yəni qorxusuzdur, yalnız Parotit (0,006 faiz) və su çiçəyindən (0,0001 faiz) öndədir.

Bəzi müəlliflər qızılcaya tutulmuş uşağa ikincili virus infeksiyasının (məsələn qrip, koronavirus və s. ) yoluxma ehtimalını ön plana çəkir. Bu hal nə nəzəri, nə də praktik olaraq mümkün deyildir. Çünki viruslara hüceyrədaxili mühütdə "mütləq konkurent (rəqib) antaqonizm" prinsipi xasdır. Yəni, hüceyrəyə ilkin daxil olmuş virus, digərinin daxil olmasını mütləq şəkildə əngəlləyir. Bu hal "keçid qapısının bloklanması" kimi dəyərləndirilir. Yəni, buna görə xüsusi narahatlığa əsas yoxdur.

Digər tərəfdən, qızılcaya ən həssas insan qrupu 4 yaşına qədər uşaqlar, ən etibarlı qorunma vasitəsi isə, peyvəndləmədir. Dünyada qızılcaya qarşı peyvənq 60 ilə yaxındır ki, aparılır. Bizim ölkəmizdə peyvənd "Azərbaycan Respublikasının Milli peyvənd təqvimi" siyasəti üzrə həyata keçirilir və hazırda tibbi sığortanın Xidmətlər Zərfinə daxildir, yəni ödənişsizdir (bəzi özəl sektorda müxtəlif qiymətlər deyilə bilər. Əslində bu peyvəndin dünya bazarında real qiyməti 1 dollardan aşağıdır).

Qızılca əleyhinə peyvəndin birinci dozasını hər bir uşaq, bir yaşında (dünya üzrə bu rəqəm 83 faizdir), ikinci dozasını isə 6 yaşında alır (dünya üzrə bu rəqəm 74 faizdir). Qızılca zamanı formalaşan təbii immunitet isə daimi və ömürlükdür. Odur ki, təkrar ağır xəstələnmə riski sıfır faizdir.

**Musa Qəniyev tövsiyələrini də söylədi:**

– Son olaraq bildirirəm ki, bu gün uşaqların həyatı üçün heç bir xüsusi qorxu və təhlükə yoxdur. Sadəcə olaraq, uşaqlar və gül üzlü körpələr qorunmalıdır. İlk növbədə, milli peyvənd təqviminə uyğun olaraq peyvənd olunmaqla. Digər zəruri hal isə, uşaqların üzündən, xüsusən kənar şəxslərin öpməsinə, onlara nəfəs verilməsinə (o cümlədən "çopçüyə" aparmaq), eləcə də digər qeyri-gigienik prosedurlara, qətiyyən yol verilməməlidir. Bu elementar qaydalara əməl etməklə, uşaqlara öz dünyalarını yaşamağa imkan verə bilərik.

Mən bunları ona görə deyirəm ki, insanlar arasında qızılca xəstəliyinin kəskin artımı ilə bağlı narahat olmasınlar. İstəyirəm ki, COVID–19 stressindən sonra insanlar, bir də əsassız olaraq, doğmalarını itirmək qorxusu yaşamasınlar. Uşaqları qorusunlar.

***Zərifə BƏŞİRQIZI***
***XQ***

Yubiley sərgisi

# Rafael Abasovun yaradıcılığında Ulu öndərin obrazı





**Müasir dövrümüzdə milli rəngkarlığımızın inkişafına böyük töhfələr bəxş etmiş sənətkarlardan biri də Azərbaycan Respublikasının Əməkdar rəssamı, mərhum Rafael Abasovdur**

Rafael Abasov doğulduğu Bakı şəhərində əvvəlcə Əzim Əzimzadə adına Rəssamlıq Məktəbində, daha sonra isə M.A.Əliyev adına Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində rəssamlıq təhsili alıb. Əbdülxalıq Rzaquliyev, Böyükağa Mirzəzadə, Mikayıl Abdullayev, Tahir Salahov kimi görkəmli rəssamlardan bu sənətin sirlərini öyrənib. Öz yaradıcılığında "sərt üslub"a üstünlük verən rəssam bu janrda özünəməxsus əsərlər ərsəyə gətirməyə nail olub.

Daha çox lirik-romantik əsərlərin müəllifi olan Rafael Abasov kompozisiya bütövlüyü ilə seçilən portret, natürmort, mənzərə janrında müxtəlif süjetli tabloların müəllifidir. Onun zəngin yaradıcılığında bu il anadan olmasının 100 illiyi qeyd olunan əbədiyaşar ümumilli liderimiz Heydər Əliyevə həsr olunmuş əsərlər geniş yer tutur. Xüsusilə qeyd etmək lazımdır ki, Ulu öndərin obrazına Rafael Abasov qədər müraciət edən rəngkar olmayıb. Buna misal olaraq unudulmaz fırça ustasının müxtəlif illərdə ərsəyə gətirdiyi "Düşüncələr", "Qayğılı anlar" və "İstirahət zamanı" portret əsərlərinin adını çəkmək olar. Rəssamın "Duşuncələr" əsəri yaratdığı portretlər sırasında öz koloriti və həyatiliyi ilə seçilir. Əsərdə uğurlu kompozisiya həlli öz əksini tapıb. O, Heydər Əliyevi rəsmi obrazda, dəbdəbəli formada deyil, ev şəraitində təsvir edib. Geyimin və duruşun sadəliyi obrazın səmimiliyini şərtləndirir. Bütün bu məziyyətlərin son nəticəsi kimi portret sujetli tablo kimi qəbul edilir.

Bütövlükdə, Əməkdar rəssam Rafael Abasovun Heydər Əliyev ünvanlı rəngkarlıq əsərləri görkəmli dövlət xadiminin ömür yolunun müxtəlif dövrlərini əhatə etdiyinə görə, bu əsərlərin hər biri haqlı olaraq tarixilik qazanmış hesab olunur. Rafael Abasovun əsərləri yerli və xarici ölkələrin müxtəlif muzeylərini, ABŞ, Fransa, Meksika, Türkiyə, Yaponiya, Avstriya, Almaniya kimi ölkələrdə şəxsi kolleksiyaları bəzəyir.

2006-cı ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən ona "Azərbaycan Respublikasının Əməkdar rəssamı" fəxri adı verilib. Rəssam 3 dekabr 2020-ci il tarixində vəfat edib. Azərbaycan Rəssamlar İttifaqı və Bakı Xətai Sənət Mərkəzinin birgə təşkilatçılığı ilə Rafael Abasovun 80 illiyinə həsr olunmuş xatirə gecəsində görkəmli sənətkar ehtiramla anılıb.

*Ziyarət CABAROVA-QƏHRƏMANOVA, sənətşünas*

XQ-yə dost açıqlaması

# Şöhrət Barlas: "Özbəklər Azərbaycan xalqının zəfəri ilə öyünürlər"

**Özbəkistanlı yazıçı-publisist, araşdırmaçı Şöhrət Barlas redaksiyamızın qonağı oldu. Fürsətdən istifadə edərək, ondan qəzetiniz üçün qısa müsahibə aldıq.**



**– Şöhrət bəy, öncə sizi Azərbaycan Yazıçılar Birliyinin (AYB) fəxri üzvü seçilməyiniz münasibəti ilə təbrik edirik! Bilirik ki, bu günlərdə Şuşada da olmusunuz və həmin səfər nə ilə bağlı idi?**

– Təbrik üçün təşəkkürümü bildirirəm. Özbəkistanda Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzi fəaliyyət göstərir. Həmin Mərkəzin Azərbaycanla bağlı layihəsinə əsasən Öbəkistanlı jurnalistlərin buraya səfərlərini təşkil etdik. Həmkarlarımız müxtəlif çəkilişlər apardılar, reportajlar hazırladılar. Xatırladım ki, Azərbaycan Prezidenti İlham Əliyev Özbəksitana səfərə gələndə bizim Prezidentimiz Şavkat Mirziyoyev demişdi: "Mən oralarda ermənilər nələt etdiklərini gözlərimlə gördüm". Biz də istədik ki, vandallaarın burada nələr törətdiyini görək və özbək xalqına göstərək.

Bizim minillər boyu davam etmiş qardaşlıq əlaqələrimiz var. Bu gün Azərbaycan xalqı özbək xalqının fikrində və gözündə müzəffər bir xalqdır. 44 günlük Vətən müharibəsində Zəfər və 23 saat çəkmiş antiterror tədbirləri nəticəsində Xankəndinin azad edilməsi dünyanı heyrətə saldı. Buna görə qardaş xalq olaraq sizi ürəkdən təbrik edirik. Fizülidə Özbəkistan xalqının hədiyyəsi olaraq məktəb tikildi. Bu dəfə əvvəlki illərdəki kimi, milyona yaxın məcburi köçkünü olan, torpaqlarının 20 faizi işğal edilmiş xalqın yox, qalib xalqın qonağı olduq. İndi bizim jurnalistlər müxtəlif televiziya kanallarında bu barədə məlumatlar verir və ictimaiyyəti məlumatlandırırlar.

**– 23 saatlıq local xarakterli antiterror tərbirlərinə münasibətiniz necədir?**

– Bu məsələ ilə bağlı azərbaycanlı jurnalistlərin işi faydalı oldu, yaxşı çalışdılar. Yəni, məsələnin mahiyyətini dünya ictimaiyyətinin nəzərinə çatdıra bildilər. Qarabağı tərk edən ermənilərdən heç bir təzyiqə məruz qalmadıqları barədə çoxlu müsahibələr aldılar. Dünya da gördü ki, Azərbaycan tərəfindən Qarabağı tərk edən ermənilərə qarşı hər hansı bir diskriminasiya, təcavüz olmadı. Amma bundan 30 il əvvəl – 1992-1993-cü illərdə, hətta, 1988-ci ildə erməilərin azərbaycanlılara qarşı nələr etdiyini bütün dünya bilir. Azərbaycan tərəfi isə öz torpaqlarını azad edərkən belə əməllər törətmədi. Sakit bir şəkildə ermənilərə "Qalın, yaşayın" dedi. İndi cinayətkarlar həbc olunublar, onların məhkəmələri gedir. Bütün dünya görür ki, Azərbaycan haqsevər və müzəffər ölkədir.

*S.ELAY*
*XQ*

# Poeziya – uşaqların sehirli dünyası

**Bədii ədəbiyyatın üzərinə düşən başlıca vəzifələrdən biri də böyüyən nəslin mənəvi aləmini zənginləşdirmək, sabahımızın sahiblərinə kiçik yaşlarından humanist ideyalar aşılamaqdır. Şair, filologoya elmləri doktoru Rafiq Yusifoğlu bu missiyanı çiyinlərində daşıyanlardandır. İnamla deyə bilərik ki, onun şeirləri müasir uşaq ədəbiyyatımızın qiymətli nümunələridir.**



Uzun illərdən bəri "Göyərçin" jurnalının baş redaktoru olan görkəmli şair Rafiq Yusifoğlu uşaq psixologiyasına dərindən bələddir və dünyaya, hadisələrə uşaqların gözü ilə baxa və görüb duyduqlarını bu prizmadan ustalıqla qələmə ala bilir. Uşaq ədəbiyyatı dərsliyinin müəllifi olması, böyüyən nəsil üçün neçə-neçə kitab yazması – bədii söz-məna ocağını məharətlə "körükləməsi" şairin üstün keyfiyyətidir.

**Otağa yaz gətirir,**
**Anamın danışığı.**
**Körpənin gül üzünə**
**Düşür layla işığı.**

Professor Zahid Xəlil sinəsi folklor nümunələri ilə dolu olan istedadlı şairin yaradıcılığının xalq mənəviyyatından qaynaqlandığını qeyd edərək yazır: "Rafiq Yusifoğlunun bütün şeirləri, poemaları, mənzum nağılları folklor çeşməsindən su içib. Xalq yaradıcılığına böyük əhəmiyyət verən şairin şeirlərinin bir uğuru da elə burdan doğur".

**Sözün hər çalarında**
**Həyatın sehri vardır.**
**Söz babaların bizə**
**Qoyduğu yadigardır.**

**Söz ləpədir, dalğadır,**
**Dil ümmandır, dənizdir.**
**Dilimizin sözləri**
**Müqəddəsdir, əzizdir.**

ADPU-nun Ağcabədi filialının dosenti Vaqif Allahverdiyev isə Rafiq Yusifoğlunun uşaq şeirlərinin hamısının yığcam, sadə və aydın olduğunu vurğulayır: "Dilimizə, tarixi keçmişimizə, milli adət-ənənələrimizə, uşaq oyunlarımıza, mövsüm və mərasim nəğmələrimizə qayğı ilə yanaşmaq, onları yaşatmaq şairin şeirlərinin başlıca mövzularıdır. Adi həyat həqiqətləri onun yaradıcılıq süzgəcindən keçərək poetik həqiqət səviyyəsinə yüksəlir. Bu şeirlərdə uşaq kövrəkliyi, çiçək təmizliyi var:

**Adım Novruzgülüdü,**
**Elçisi mənəm yazın.**
**Qaranquş lələyilə**
**Siz mənə məktub yazın.**

Rafiq Yusifoğlunun yaradıcılığında təbiət şeirləri xüsusi bir yer tutur. Vətən torpağının əsrarəngiz gözəlliklərini sevə-sevə qələmə alan şair öz balaca oxucularını təbiətin qoynuna, seyrə çağırır. Şair vətənimizin başı qarlı dağlarından, zümrüd meşələrindən, şəfalı bulaqlarından, bərəkətli çöllərindən məhəbbətlə söz açır. Poetik fikrin sadə dillə və uşaqların anlaya biləcəyi bir tərzdə ifadəsinə nail olan şair bədii təsvir vasitələrindən məharətlə istifadə etmişdir.

Şairə görə, insan həyatı gözəlləşdirmək üçün yaradılmış ən alı xilqətdir. Bu aliliyi qorumaq naminə insan daimi olaraq işıqlı ideyalarla tərbiyə olunmalıdır. Bu cəhətdən R.Yusifoğlu yaradıcılığında insan tərbiyəsi, xoş amallara çağırış başlıca yer tutur. Şairin qənaətincə, Yer kürəsi bütün insanların vətənidir, onu hamı qorumalıdır:

**Öz qoynunda hamıya,**
**Yer verib yer kürəmiz.**
**Gülüstana dönər o,**
**Bir gül əksək hərəmiz.**

Görkəmli uşaq şairinin "Herik şumu" , "Salba", "Dəryaz", "Cijim və catı", "Örüş", "Kirkirə", "Ərsin, oxlov və saç", "İlxı, naxır, sürü", "Sapand", "Qısır" və çox sayda digər şeirləri balacalara söz öyrətmək, adların mənalarını bədii dillə izah etmək baxımından gözəl nümunələrdir".

Vətənpərvərlik mövzusu da Rafiq Yusifoğlunun yaradıcılığında xüsusi yer tutur. Adi bir misal:

**Heç vaxt qoymarıq sola,**
**Biz azadlıq gülünü.**
**Göylərə sovurarıq,**
**Düşmənlərin külünü.**

Ümumiyyətlə, şairin yaradıcılığı başdan-başa vətənpərvərlik, dürüstlük, sadəlik, təvəzökarlıq və sair kimi ideyalarla yoğrulmuş poetik bir aləmdir.

*Əli NƏCƏFXANLI*
*XQ*

XQ-nin sualı

**Ölkəmizdə ilk dəfə təşkil olunan "Azərbaycan teatrı – 150. İnkişaf perspektivləri" Teatr Forumunda əsas məqsəd səhnə sənətinin inkişaf proqramının işlənib hazırlanması üçün müzakirələr aparmaq, mövcud problemlərə yanaşmaları dinləmək, həlli yollarını axtarmaq və gələcək strategiyanın konturlarını hazırlamaq idi.**

# Teatrlarımız niyə direktorsuz qalıb?!

Sözügedən tədbirdə teatrlarımızın ənənə və trendləri, çağdaş dramaturgiyanın inkişaf tendensiyaları, konsepsiya və strateji hədəflər, həmçinin teatr sahəsində insan kapitalı məsələləri ətraflı 



sərf-nəzər edilib. Hər kəsdə belə bir inam yaranıb ki, gələcəkdə həyata keçiriləcək layihələr üçün strategiya və fəaliyyət modelinin müəyyən edilməsi ilə tamaşaçı kütlələrini teatra daha da yaxınlaşacaq.

Əlbəttə, forumdan az müddət keçib, çatışmazlıqları üzə çıxaran Mədəniyyət Nazirliyi onların aradan qaldırılması üçün müəyyən addımlar atır. Bəs, sürətlə dəyişən zaman axarında teatrlar özləri hazırlanan yeni strategiyaya nə kimi töhfələr vermək əzmindədirlər?

Təəssüflə qeyd edək ki, sualımıza konkret cavablar ala bilmədik. Əsas səbəb də bir sıra teatrda direktor yerinin boş olması, onun vəzifəsini icra edənlərin isə bu vəzifə pilləsində müvəqqəti olduqları üçün cavabdan bir növ yayınmaları ilə bağlıdır. Kiçik araşdırma ilə öyrəndik ki, bəzi teatrlarda ya direktor yoxdur, ya da onun vəzifəsi müvəqqəti olaraq kiməsə tapşırılıb.

Konkret misallar: Akademik Milli Dram Teatrının bədii rəhbəri, direktoru və baş rejissoru (!?) Xalq artisti, Azər Paşa Nemətovun vəfat etməsindən 7 ay keçsə də, direktor yeri hələ ki vakant olaraq qalır. Burada direktorun əmək funksiyalarının icrası İlham Əsgərova həvalə olunub. Sumqayıt Dövlət Dram Teatrının direktoru Mübariz Həmidov təqaüd yaşının çatması ilə əlaqədar vəzifəsindən ayrılıb. Bu teatra rəhbərlik düz ilyarımdır ki, direktor müavini Vidadi Məmmədova müvəqqəti həvalə edilib. Şəki Dövlət Dram Teatrının direktoru Namiq Qaffarlı ötən ilin dekabrında təqaüdə göndəriləndən sonra onun da vəzifəsi boş qalıb. Bu iş müvəqqəti olaraq baş rejissor Mirbala Səlimliyə tapşırılıb.

Onu da xatırladaq ki, müvəqqətilik tendensiyasına təkcə dram teatrlarında deyil, digər bənzər strukturlarda da rast gəlinir. Məsələn, Qax Dövlət Kukla Teatrının direktoru Seymur Vəliyevin işdən azad edilməsindən 1 il ötür və onun vəzifələrini müvəqqəti olaraq baş rejissor Yusif Əbdürrəhmanov yerinə yetirir. Elmir Hüseynov isə Bakı Dövlət Sirkinə 1 il rəhbərlik edəndən sonra işdən çıxıb və ilyarımdır ki, sirkin müvəqqəti idarə edilməsi direktor müavini Nahid Ağayevin boynuna düşüb. Orada 30 nəfərdən ibarət yaradıcı heyət yeri var, amma hazırda bu heyətin kiçik bir qismi fəaliyyət göstərir.

Təbii olaraq belə bir sual yaranır ki, teatrların qarşısına mühüm vəzifələr qoyulduğu, fəaliyyət strategiyasının hazırlandığı hazırkı məsul dövrdə nə üçün teatrların direktor kürsüləri boşdur və bu vəzifələr müvəqqəti icraçıların ümidinə qalıb. Bir tendensiya da budur ki, bəzi bölgə teatrlarına yerli kadrlar deyil, Bakıdan gələn direktorlar təyin edilir və onlar da həm çətin adaptasiya olunur, həm də bəzi hallarda əvvəlki iş yerlərində hazırlanmış tamaşaları repertuara salmaqla işlərini bitmiş hesab edirlər...

Mədəniyyət Nazirliyi ilə əlaqə saxlayıb suala aydınlıq gətirmək istəsək də, nə teatr sektorunun müdiri Vəfa Novruzova bizə cavab verdi, nə də media və informasiya şöbəsinin müdiri Türkan İsmayılova. Yazılı müraciət edib cavab gözləməyimizi məsləhət gördülər. Düşündük: teatrlara direktor təyinatı aylarla, illərlə yubadılırsa, bizim sorğumuzun cavabı nə vaxt gələr?

*XQ*

Yaddaşlarda yaşayanlar

# Turan Cavid ailəsi haqqında danışmaqdan çəkinirdi

**"Olarmı, mən bunu Rafaeldən soruşum, sonra yazasınız?" Bu sualı Turan Caviddən dörd-beş dəfə eşitmişdim.**



Əslində, mən heç zaman elmi və ya tarixi əsər üzərində işləmədiyimə görə, Turan xanıma verdiyim suallar o qədər də problem yarada bilməzdi. Məsələn, bir sualda Hüseyn Cavidi Şahtaxtıdan Bakıya müəllim kimi fəaliyyət göstərmək üçün kimin dəvət etdiyini öyrənmək istəmişdim. Bu sualın təşəbbüsü "Dalğa" qəzetinin baş redaktoru Nahid Hacızadədən gəlmişdi. Başqa sualım şairin yaxın ətrafı – o dövr üçün xüsusi önəm kəsb edən dostları barədə yazılmayan, deyilməyən məqamlar barədə olmuşdu. Radiodakı öz verilişim üçün hazırladığım digər mövzu ədəbiyyatımızın başı üstündə əsən repressiya küləklərini Turan xanımın necə xatırladığı barədə idi və sair.

Ancaq Turan xanıma ailəsi ilə bağlı belə ağrılı suallar vermək onun yarasının közünü qoparmaq demək idi. Ona görə də Cavidlər ailəsinin yaşadığı məşəqqətlərin tarixini hamıdan yaxşı bilən Rafael Hüseynovdan soruşmağı məsləhət bilirdi. Jurnalist fəaliyyətim mənə Əli Nəzminin qızı İqlimə xanımla, Cəfər Cabbarlının qızı Gülarə xanımla, Səməd Vurğunun qızı Aybəniz xanımla, Mirzə İbrahimovun qızı Sevda xanımla, Hüseyn Arifin qızı Zöhrə xanımla, ümumiyyətlə, çox məşhurlarımızın övladları ilə görüşüb söhbət yazmaq şansı vermişdir. Bu söhbətlər 25-30 il əvvəl olsa da, hələ də unuda bilmirəm ki, onların arasında ailəsi barədə söz deməyə çəkinən, fikir söyləməkdən qorxan yeganə həmsöhbətim məhz Turan Cavid olmuşdur. Allah repressiya quzğunlarının üzünü qara eləsin! Bir də Allah Rafael Hüseynova kömək olsun ki, Cavidlər ailəsinin son nümayəndəsinin jurnalistin sualını cavablandırmasına zəmin yaradırdı.

Mənim üçün maraqlı olan daha bir məqamı da unuda bilmirəm. Belə ki, Turan xanımın həm Hüseyn Cavidin ev muzeyində – İstiqlaliyyət küçəsi 8-də, Məhəmməd Füzuli adına Dövlət Əlyazmalar İnstitutu binasının 3-cü mərtəbəsində – həm də onun uzun müddət çalışdığı, sonralar direktor olduğu Dövlət Teatr Muzeyindəki – o vaxtlar həmin muzey də Ədəbiyyat Muzeyi ilə eyni binada idi – yazı stolunun üstündə yay-qış daim qızılgüllər olurdu. Bunun səbəbini hamı kimi mən də bilirdim və ona görə də qəzetdə verilmiş yazılarımdan birinin sərlövhəsi redaksiyada belə dəyişdirilmişdi: "Hüseyn Cavid qızılgülləri çox sevirdi".

Bu mövzuda yazarkən özümə bağışlamayacağım bir səhvimi də yada salmaq istəyirəm. Bir dəfə Turan xanıma dedim ki, mən Hüseyn Cavidin nəşini Rusiyadan öz Vətəninə gətirən təyyarənin Bakı hava limanına enməsini televiziya xəbərində izləyirdim. O zamanı sizin təyyarəyə hansısa ifadəolunmaz həyəcanla baxdığınızı unutmaq olmur. Sanki siz uşaq idiniz, atanız isə uzun və ağır bir səfərdən qayıdırdı. Elə bil, təyyarəni qucaqlamaq istəyirdiniz...

"Daha bəsdir, sağ olun!" – dedi və göz yaşlarını sildi.

Həqiqətən səhv eləmişdim.

*İttifaq MİRZƏBƏYLİ*
*XQ*

BEYNƏLXALQ HƏYAT

# Yaxın Şərq: Müharibə Qəzzaya yenidən qayıtdı



**Artıq üçüncü gündür ki, HƏMAS və İsrail arasındakı döyüşlərdə elan edilmiş yeddi günlük fasilədən sonra Qəzzada yenidən döyüşlər başlayıb. Tərəflərin atəşkəsdən sonra sülh danışıqlarına başlayacaqları barədə ümidlər, təəssüf ki, özünü doğrultmayıb.**

Müvəqqəti atəşkəs müddətində tərəflər arasında girovlar və fələstinli əsirlərin mübadiləsi mümkün olmuşdur. Bu günlər ərzində Qəzza sakinlərinə humanitar yardımların çatdırılması da xeyli asanlaşmışdı.

İsrail ordusu HƏMAS-la atəşkəs başa çatan kimi, yəni cümə günündən başlayaraq, Qəzza bölgəsindəki müxtəlif hədəflərə 400-dən çox zərbə endirib. Məlumatı İsrail Müdafiə Qüvvələrinin rəsmisi yayıb.

Xəbərə əasən, İsrailin qırıcı təyyarələri Qəzzanın cənubunda yerləşən Xan-Yunis rayonunda HƏMAS-ın hərbi obyektlərinə yüksək dəqiqliyə malik silahlarla zərbələr endirib. Bundan başqa İsrail ordusu ölkənin şimalının "Hizbullah" tərəfindən atəşə tutulmasına raketlərlə cavab verib. Livan rəsmiləri itki və dağıntılar barədə susublar.

Təəssüf hissilə qeyd etmək lazımdır ki, döyüşlərin bərpa olunması hər iki tərəfdən canlı itki və dağıntıları qaçılmaz edibdir. Qəzzanın HƏMAS tərəfindən idarə olunan Səhiyyə Nazirliyi cümə günü edilən hücumun ilk saatlarında 109 nəfərin öldüyünü bildirib. Onların arasında uşaq və qadınlar da var.

Ara-sıra HƏMAS da qarşı tərəfi "narahat edərək" raket zərbələrinə məruz qoyur. İsrail ordusu əvvəllər "Twitter" kimi tanınan "X platformasında Qəzzadan atılan raketlərin "uğurla zərərsizləşdirildiyini" bildirib. HƏMAS tərəfdən raket hücumuna görə məsuliyyəti öz üzərinə götürən olmayıb.

Maraqlıdır ki, İsrailin Qəzzanın cənubundakı Xan–Yunis ərazisinə atdığı vərəqələrdə oradakı insanlara özlərinin və ailələrinin təhlükəsizlikləri üçün daha da cənuba getmələri tövsiyə edilir. Bir çox siyasi və hərbi təhlilçilər qeyd edirlər ki, İsrailin hazırda hər vəchlə Qəzza sakinlərinin ərazinin cənubə tərəf təxliyyə olunmasına çalışır.

Bunu nəzərə alan bir çox ərəb mənbələri İsraili "əlavə torpaq" zəbt etmək siyasəti yürütməkdə ittiham edirlər. Rəsmi Təl-Əviv bu ittihamları qəbul etmir və Qəzzada əsas vəzifəsinin terrorla axıradək mübarizə aparmaq olduğunu bildirir.

Qeyd edək ki, müharibə Qəzzaya qayıtsa da, beynəlxalq vasitəçilər döyüşlərə son qoymaq üçün danışıqları davam etdirirlər. Dünən Ağ evin Milli Təhlükəsizlik Şurasının strateji kommunikasiyalar üzrə koordinatoru Con Kirbi bəyan edib ki, ABŞ diplomatları hazırda Qəzza zolağında atəşkəsin bərpası üçün İsrail, Misir və Qətər səlahiyyətliləri ilə birgə səylər göstərirlər.

Yeri gəlmişkən, C.Kirbi atəşkəsi pozmaqda HƏMAS hərəkatını günahlandırıb. Onun sözlərinə görə, HƏMAS-ın girovların siyahısını beynəlxalq təşkilatlara verməməsi atəşkəslə bağlı danışıqları dalana dirəyib.

Bu arada İsrail oktyabrın 7-də hücum zamanı HƏMAS hərəkatı tərəfindən əsir götürülən 4 girovun öldüyünü təsdiqləyib. Bu barədə Qətərin "Əl-Cəzirə" telekanalı İsrail ordusunun sözçüsü Daniel Həcəriyə istinadən məlumat yayıb.

İsrail ordusunun nümayəndəsinin sözlərinə görə, ölən girovların ailələri bu barədə məlumatlandırılıb. Lakin girovların necə və nə vaxt öldüyü açıqlanmayıb.

Qəzza zolağında isə atəşkəsin bitməsindən sonra humanitar vəziyyət daha da pisləşib. Bunu beynəlxalq təşkilatlar da görür və həyəcan təbili çalırlar. Məsələn, Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) baş direktoru Tedros Adhanom Qebreyesus Qəzzaya humanitar yardımların atəşkəs dövründə olduğu kimi bərpa olunmasına çağırıb və bölgədə zorakılığın dayandırılmasının vacibliyini vurğulayıb. Bu barədə o, "X" sosial şəbəkəsindəki səhifəsində müvafiq bəyanat yayıb.

ÜST-ün baş direktoru Qəzza sakinlərinin daha çox diqqət və qayğıya ehtiyacı olduğunu vurğulayaraq deyib ki, əraziyə zəruri ləvazimatların tədarükü təcili olaraq bərpa edilməli və ən azı son atəşkəs zamanı əldə edilən səviyyəyə qaytarılmalıdır. Mülki vətəndaşlar indi müdafiəyə, qidaya, suya, mənzilə, dərmana və daha çox şeyə ehtiyac duyurlar.

Yaxın Şərqin ölüm və fəlakət saçan alovu jurnalistlərin də taleyində ağır izlər qoyur. Jurnalistləri Müdafiə Komitəsi məlumat yayıb ki, HƏMAS–İsrail münaqişəsi nəticəsində Qəzza zolağında azı 61 jurnalist həlak olub.

Komitənin məlumatda bildirilir ki, dekabrın 1-nə olan məlumata görə, oktyabrın 7-də münaqişə başlayandan bəri həlak olan 16 mindən çox insan arasında ən azı 61 jurnalist və media işçisi var. Qeyd olunur ki, jurnalistlər öz peşə fəaliyyətlərini həyata keçirərkən kəskin təqib və təzyiqlərə məruz qalırlar.

Yaxın Şərqdə HƏMAS ilə İsrail arasında amansız müharibə nə vaxt bitə bilər? Bu məchul bu gün çoxlarını düşündürür. Təbbi ki, dəqiq cavab olmadığı üçün, çox sayda ehtimallar yaranır.

Məsələn, Böyük Britaniyanın "The Financial Times" qəzeti yazıb ki, İsrail HƏMAS hərəkatına qarşı azı bir il davam edə biləcək uzunmüddətli hərbi kampaniyaya hazırlaşır.

Məqalədə həmçinin bildirilir ki, hərbi əməliyyatların ən gərgin mərhələsi 2024-cü ilin əvvəlində gözlənilir. Müharibənin uzanmasına səbəb isə odur ki, tərəflər qarşılarına qoyduqları əsas hədəflərə hələlik tam nail ola bilməyiblər.

İsrailin bir nömrəli məqsədi HƏMAS hərəkatının aparıcı liderlərini tamamilə zərərsizləşdirmək və Qəzzadakı tunel sistemini büsbütün məhv etməkdir. Rəsmi Təl-Əviv bu barədə dəfələrlə açıqlama verib. HƏMAS-ın da, təbii ki, qatı düşməni saydığı İsraillə bağlı öz planları var.

Ümumi fikir belədir ki, Yaxın Şərqdə davamlı və ədalətli sülh BMT-nin vaxtilə qəbul etdiyi "iki millət-iki dövlət" prinsipinin mümkün qədər tez icra olunması ilə mümkün ola bilər. Türkiyə dövləti bu qənaətdədir və dünya ictimaiyyətini buna nail olmağa çağırır. Dünyanın əksər dövlətləri bu ideyanı dəstəkləyir. Lakin onu həyata keçirmək heç cür mümkün olmur.

*M.HACIXANLI*
*XQ*

# Aİ-nin Macarıstan qorxusu

## Brüssel Budapeştin Ukrayna ilə bağlı planını pozacağından əndişələnir

**Avropa İttifaqının (Aİ) dekabr sammiti yaxınlaşdıqca, Ukraynanın ittifaqa daxil olması ilə bağlı danışıqlara başlamaq üçün gözlənilən qərar ətrafında intriqa bir o qədər şiddətlənir. İntriqa da Macarıstanın məsələ ilə bağlı sərgilədiyi sərt mövqe ilə əlaqəlidir. Baş naziri Viktor Orban açıq şəkildə buna qarşı çıxır və danışıqların gündəmdə olmaması ilə bağlı təkliflə çıxış edir. Ekspertlər hesab edirlər ki, Budapeşt Ukraynanın Avropaya inteqrasiya zəfərinə kölgə sala bilər, lakin prosesi dayandırmaq mümkün olmayacaq.**



Baş nazir Viktor Orban dekabrın 1-də "Kossuth" radiosunda Ukrayna ilə bağlı yeni açıqlamalar verib. Qərb mətbuatı yazır ki, Macarıstanın baş naziri çıxışında Ukrayna hakimiyyəti üçün yaxşı heç nə deməyib. Bundan əvvəl Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişeilə məktub göndərərək, Ukraynaya dəstəyi tənqid edən cənab Orban yenə də bu məsələyə şübhə ilə yanaşdığını açıqlayıb: "Ukraynanın Aİ-yə qəbulunun nə ilə nəticələnəcəyini bilmiriksə, o zaman bu barədə danışmağa belə başlamayaq". Bunun əvəzində o, Kiyevlə beşon il müddətinə strateji tərəfdaşlıq müqaviləsi bağlamaq barədə düşünməyi və bundan sonra nə ediləcəyinə qərar verməyi təklif edib. Cənab Orban, həmçinin bildirib ki, Aİ liderləri Kiyevə tam dəstək strategiyasını nəzərdən keçirməyə razılıq versələr, Ukraynanın bloka üzvlüyünə veto qoyacaq.

Xatırladaq ki, Aİ-də qərarlar konsensusla qəbul edilir. Bir ölkə hər hansı bir təklifə qarşı çıxırsa, qərar qəbul olunmur. Belə bir perspektiv də Kiyev və Brüsseldə narahatlıq doğurur. Buna görə də, noyabrın 27- də Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel Macarıstan liderini Ukraynaya maliyyə ayrılması, eyni zamanda, Kiyevin "Köhnə dünya"ya inteqrasiyası ilə bağlı ümumavropa planlarını pozmamağa inandırmaq üçün Macarıstana xüsusi səfər etmişdi. Səfərin yekunu barədə mətbuata hər hansı bir açıqlamanın verilməməsi görüşün nəticəsiz yekunlaşması barədə ehtimalları gücləndirmişdi. Belə bir vəziyyət də Aİ-nin bu ayın ortalarında keçiriləcək sammitinə diqqəti daha da artırır. "Politico" bununla bağlı yazıb ki, Avropa İttifaqı daxilində Budapeştin səsvermə hüququndan məhrum edilməsinə qədər müxtəlif "sakitləşdirmə" variantlarını nəzərdən keçirirlər. Düzdür, belə radikal ssenari Avropa İttifaqı daxilində daha da parçalanmanın mümkünlüyü ilə bağlı narahatlıq doğurur.

Belə bir parçalanmanın müxtəlif müstəvilərdə olduğunu yalnız Macarıstanın mövqeyi göstərmir. Məsələn, dekabrın 1-də Slovakiyada yerli daşıyıcılar Ukrayna ilə sərhəddə nəqliyyatın hərəkətini bloklayıblar. Bununla onlar Ukrayna daşıyıcıları üçün icazə sisteminin bərpasına nail olmaq istəyən ölkənin Nəqliyyat Nazirliyinə dəstək ifadə ediblər. Bu məsələyə dekabrın 4-də Aİ-nin Nəqliyyat, Telekommunikasiya və Energetika Şurasının iclasında baxılacağı bildirilir. Mütəxəssislər bildirirlər ki, problemin daha bir tərəfi də var. Məsələ ondadır ki, Moldova Ukrayna ilə birlikdə Aİ-yə üzvlüklə bağlı danışıqların başlanmasına ümid etdiyi üçün Kiyevlə bağlı qərarın verilməməsi Kişinyova da zərbə vura bilər. İndiyədək iki qonşu dövlətlə bağlı qərarlar Brüssel tərəfindən eyni vaxtda qəbul olunurdu. Xatırladaq ki, Ukraynaya və Moldovaya Avropa İttifaqına üzv olmağa namizədlik statusu ötən ilin yayında verilmişdi. Bu ilin payızında Avropa Komissiyası Avropa Şurasına hər iki ölkə ilə danışıqlara başlamağı tövsiyə etmişdi.

Bəs Macarıstanın vetosu Avropanın Ukrayna ilə bağlı planlarını poza bilərmi? Kiyevdə fəaliyyət göstərən "Penta" Tətbiqi Siyasi Araşdırmalar Mərkəzinin rəhbəri Vladimir Fesenko hesab edir ki, Macarıstan Ukrayna ilə bağlı gözlənilən qərarı poza bilər: "Risklər böyükdür. Düşünürəm ki, Orbanın taktikası mümkün qədər payı artırmaq və dekabrda Ukrayna ilə danışıqlara dair qərarın qəbul edilməsinin qarşısını almaqdır". Eyni zamanda, cənab Fesenko Budapeştin Ukraynanın Aİ-yə daxil olmasını tamamilə əngəlləmək niyyətində olmadığını da düşünür.

Mülki təhlükəsizlik sektorunun islahatları üzrə Aİ-nin Ukrayna üzrə Məsləhətçi Missiyasının keçmiş rəhbəri, hazırda Moldova hakimiyyətinə məsləhət verən Kalman Mizsei Viktor Orbanın hazırda Macarıstana maliyyə yardımı ilə bağlı Aİ ilə çətin danışıqlar apardığını bildirib. Brüssel daha əvvəl etiraf etmişdi ki, Budapeştə ayrılan 13 milyard avronu dondura bilər: "Aİ hesab edir ki, Macarıstan ölkədə qanunun aliliyi ilə bağlı öhdəliklərini yerinə yetirmir. Bu səbəbdən Macarıstan Avropa İttifaqından gözlədiyi pulu almır". Onun sözlərinə görə, Macarıstanın baş naziri maliyyə ayrılması ilə bağlı danışıqlarda Aİ-yə üzv ölkələrin konsensusunun tələb olunduğu bütün məsələlərdən yararlanır. Daha dəqiq desək, cənab Orban Budapeştin prinsipial mövqeyini nümayiş etdirir.

Bununla belə, mütəxəssislər düşünürlər ki, Budapeştə Kiyevlə Aİ arasında danışıqlara razılıq vermək üçün qərarların qəbulunun yaza qədər təxirə salınması daha faydalıdır. Bu halda Macarıstan Kiyev üzərində təsir rıçaqları əldə edəcək və ondan Ukraynanın Aİ-yə daxil olması ilə bağlı danışıqlar prosesində uzun müddət istifadə edə biləcək. Ancaq bu variant Aİ-ni qane etmir. Brüssel Macarıstanın etirazlarını aradan qaldırmaq üçün keçən həftə dondurulmuş vəsaitin bir milyard dollarını Budapeştə təqdim etsə də, bunun kifayət edib-etməyəcəyi bəlli deyil. Buna görə də, siyasi təhlilçilər ehtimal edirlər ki, Aİ yardımının bloklanması və ya Ukraynanın üzvlük müraciətinə veto qoyulması Budapeşt və Brüssel arasında kəskinləşən mübahisə riskini daha da artıracaq.

*S.ELAY*
*XQ*

# AMEA prezidenti Ankarada



**AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli Türkiyəyə səfəri çərçivəsində Türkiyə Elmi və Texnoloji Araşdırmalar Qurumunun (TÜBİTAK) başqanı, professor-doktor Hasan Mandalla görüşüb.**

Görüş zamanı AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli TÜBİTAK-ın ULAKBİM – Dərgi Parkı İnstitutu ilə rəhbərlik etdiyi elmi qurum arasında əlaqələrin inkişaf etməkdə olduğunu bildirib. Tərəflər 2024-cü ildə ULAKBİM layihəsindən başqa daha 5 istiqamət üzrə: süni intellekt, ortaq elmi layihələrin qarşılıqlı surətdə dəstəklənməsi, seysmologiya, arxeologiya, karbon-14 analizlərinin arparılması istiqamətlərində əməkdaşlıq əlaqələrinin qurulması ilə əlaqədar məsələləri müzakirə ediblər.

TÜBİTAK başqanı, professor Hasan Mandal AMEA ilə genişlənməkdə olan əlaqələrin Türkiyə–Azərbaycan əlaqələrində elmin rolunun daha da artmasına səbəb olacağını qeyd edərək ortaq layihələrə dəstək veriləcəyini diqqətə çatdırıb.

Sonda AMEA ilə TÜBİTAK arsında yeni Anlaşma memorandumunun imzalanması qərara alınıb.

*XQ*

# Mədəniyyət naziri tanınmış kinorejissoru ziyarət edib



**Mədəniyyət naziri Adil Kərimli dekabrın 2-də tanınmış kinorejissor, Əməkdar mədəniyyət işçisi Akif Rüstəmovu evində ziyarət edib.**

Nazir qocaman kinematoqrafçının Azərbaycan kinosuna verdiyi töhfələri yüksək qiymətləndirdiyini bildirib, ona nazirliyin Fəxri diplomunu təqdim edib.

Qeyd edək ki, ömrünün 55 ilini kinoya həsr edən Akif Rüstəmov "Azərbaycanfilm" kinostudiyasında lentə alınan 40-dək ekran əsərində ("Uşaqlığın son gecəsi", "Gün keçdi", "Nəsimi", "Dədə Qorqud", "Babək", "Nizami", "Dərviş Parisi partladır", "Bağ mövsümü", "Güllələnmə təxirə salınır" və s.) ikinci rejissor kimi çalışıb, "Axırıncı dayanacaq" bədii filminə quruluş verib.

*XQ*

# Azərbaycanda Qazaxıstan mədəniyyəti günləri

**Azərbaycanda Qazaxıstan mədəniyyəti günləri başlayıb. Dünən Beynəlxalq Muğam Mərkəzində Qazaxıstanın "Hassak" etno-folklor ansamblının solo konserti keçirilib.**



Mədəniyyət günləri çərçivəsində dekabrın 3-də Q.Musrepov adına Qazaxıstan Dövlət Akademik Uşaq və Gənclər Teatrı "Qaragöz" tamaşası ilə Azərbaycan Dövlət Akademik Musiqili Teatrının səhnəsində çıxış edəcək. Dekabrın 4-də isə Heydər Əliyev Mərkəzində Qazaxıstan təsviri sənət sərgisi açılacaq. Həmin gün Heydər Əliyev Mərkəzində dost ölkənin incəsənət ustalarının qala-konserti keçiriləcək.

*XQ*

# Fiziki qüsurlu uşaqlara dəstək festivalı



**Dekabrın 2-də "Regional İnkişaf" İctimai Birliyi, Sosial Xidmətlər Agentliyi Zirə Mədəniyyət Mərkəzi və Eko-parkın birgə təşkilatçılığı ilə 3 Dekabr Beynəlxalq Əlilliyi olan Şəxslər Gününə həsr edilmiş uşaq festivalı keçirilib.**

Festival sağlamlıq imkanları məhdud uşaqların cəmiyyətə inteqrasiyası, xüsusi bacarıqlarının inkişafına dəstək verilməsi və potensiallarının üzə çıxarılması, eyni zamanda, əlil şəxslərə qarşı bərabərsizliyin, cəmiyyətdə olan stereotiplərin aradan qaldırılması məqsədilə təşkil edilib.

Tədbirin açılışında çıxış edənlər bu günün beynəlxalq səviyyədə qeyd olunmasının əhəmiyyətinə toxunub, əlilliyi olan şəxslərə dövlət tərəfindən göstərilən diqqət və qayğıdan, bu istiqamətdə ictimai birliklərin üzərinə düşən vəzifələrdən, ölkədə inklüziv cəmiyyətin inkişafına yönəlmiş sosial layihələrdən danışıblar. Xüsusilə də əlilliyi olan uşaqlara bərabər imkanların yaradılmasının, onların istedad və bacarıqlarının inkişaf etdirilməsinin və davamlı dəstəklənməsinin vacibliyi diqqətə çatdırılıb.

*XQ*

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 264 (30380) 3 dekabr 2023-cü il, bazar


# OXUCULARIN NƏZƏRİNƏ!

## “Xalq qəzeti”

*2024-cü il üçün abunə yazılışı kampaniyasını davam etdirir!*

Abunə respublikanın bütün poçt şöbələri və mətbuat yayımı ilə məşğul olan firmalar tərəfindən aparılır.

Qəzetə abunə yazılmaq üçün aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət etmək olar.

1. “Azərmətbuatyayımı” ASC (012)-440-16-26.
2. “Azərpoçt” MMC (012)-598-49-55, (051)-225-02-13.
3. “Qaya” firması (012)-566-77-80, (050)-214-40-53.
4. “SƏMA-M” MMC (012)-594-02-52, (050)-333-69-69.
5. “ZİYA” LTD (012)-497-76-96, (050)-306-77-44.
6. “PRESSİNFORM” MMC (012)-598-49-52, (050)-456-08-35.




1 illik – 187.20 (yüz səksən yeddi manat iyirmi qəpik) manat.
6 aylıq – 93.60 (doxsan üç manat altmış qəpik) manat.
3 aylıq – 46.80 (qırx altı manat iyirmi qəpik) manat.

Hörmətli abunəçilər!
*Abunə yazılışı ilə əlaqədar hər hansı bir problemlə rastlaşsanız, (012)-498-85-29 nömrəli telefonla əlaqə saxlaya bilərsiniz.*

**Hörmətli oxucular!**
**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**


Teatr

# Füzulidə “Nar şirəsi” tamaşası

**Füzuli Dövlət Dram Teatrı Səbinə Haqverdiyevanın “Nar şirəsi” pyesini təqdim edib. Tamaşada həyatı sevmək, yaşamaq uğrunda mübarizənin, fiziki qüsurlu insanların sağalmasına təsiri ön plana çəkilib.**



Quruluşçu rejissoru Nicat Mirzəzadə, quruluşçu rəssamı Ellinaz Balaşova, musiqi tərtibatçısı Sənan Sevindikzadə olan tamaşada rolları Sehran Xanlarov, Sevinc Məmmədova, İntizar Quliyeva, Emin Abışov, Vüqar Babayev və başqaları ifa ediblər.

**XQ**

İdman xəbərləri

# Kişi güləşçilər I, qadın güləşçilər isə II oldu

**Bakıda hərbçilər arasında keçirilən güləş üzrə 36-cı dünya çempionatında Azərbaycan komandası böyük uğurla çıxış edib.**




Dünən yarışın son günündə mübarizə aparan yunan-Roma güləşçiləri komandamızın hesabına 2 qızıl, 1 gümüş medal yazdırıblar. Beləki, Nihad Quluzadə (60 kq) çempion olub. Laçın Vəliyev (87 kq) 2-ci, Qurban Qurbanov (77 kq) isə 3-cü yerləri tutublar. Ümumi hesabda yunan-Roma güləşi komandası 8 medal qazanaraq (4-1-2) İrandan sonra ikinci yerdə qərarlaşıb.

Bununla da, Azərbaycan komandası dünya çempionatını 11-i qızıl olmaqla 21 medalla başa vurub.

Qeyd edək ki, sərbəst güləşçilərimiz ümumilikdə, 5 qızıl, 1 gümüş, 1 bürünc medalla ümumi hesabda birinci, qadın millimiz isə 2 qızıl, 1 gümüş, 2 bürünc medalla ikinci yerdə qərarlaşıblar.

# Yaponiyada cüdo qızılı

**Yaponiyanın paytaxtı Tokioda keçirilən “Böyük dəbilqə” turnirinin ilk yarış günündə 73 kiloqram çəki dərəcəsində mübarizə aparan cüdoçumuz Hidayət Heydərov qızıl medal qazanıb.**



Tatami ustası final görüşündə çox çətin rəqiblərdən biri olan Yaponiya təmsilçisi Soiçi Haşimotoya qalib gəlib. Bununla da Azərbaycan cüdo tarixində ilk dəfə Yaponiyada Azərbaycan himni səsləndirilib.

Azərbaycanın digər cüdoçusu Zelim Tçkayev (81 kq) isə turnirin bürünc medalını qazanıb.

# Parataekvondoçumuzun bürüncü

**Azərbaycan millisi İngiltərənin Mançester şəhərində keçirilən parataekvondo üzrə Qran-prinin final mərhələsini bir medalla başa vurub.**



Komandanın üzvlərindən yalnız İmaməddin Xəlilov (70 kq) uğurla çıxış edib. İdmançımız K-44 kateqoriyasında bürünc medala yiyələnib.

***Leyla SABİRQIZI***
**XQ**



# “Böyük Teatr”da yeni baş direktor

**Rusiya Federasiyasının Xalq artisti, Mariya teatrının bədii rəhbəri V.Qerqiyevin 5 il müddətinə “Böyük Teatr”ın baş direktoru vəzifəsinə təyin edilib. Məlumata əsasən, teatrın keçmiş rəhbəri V.Urin öz istəyi ilə tutduğu vəzifədən gedib.**

V.Qerqiyev 1953-cü ildə Moskvada anadan olub, N.A.Rimski-Korsakov adına Sankt-Peterburq Dövlət Konservatoriyasını bitirib. 1977-ci ildə Dövlət Akademik Mariya Teatrında) işə başlayıb. 1988-ci ildə teatrın baş dirijoru və opera truppasının bədii rəhbəri vəzifələrində çalışıb.

V.Qerqiyev hər il Peterburqda, habelə Rusiyanın digər şəhərlərində və xarici ölkələrdə 300 tamaşa və konsert hazırlayır.

V.Urin isə 2013-cü ilin iyul ayından etibarən Dövlət Akademik Böyük Teatrın baş direktoru vəzifəsini icra edib. Noyabrın 30-da səhnələşdirilən tamaşadan sonra o, kollektivə müraciət edərək vida sözləri söyləyib və həmin günün onun teatrdakı son iş günü olduğunu açıqlayıb.

**XQ**

Hava



# Yağmursuz və dumanlı bazar günü

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin məlumatına görə, dekabrın 3-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.**

Gecə və səhər bəzi yerlərdə duman, az çiskin olacaq. Mülayim cənub-qərb küləyi əsəcək. Gecə 6-9°, gündüz 17-22° isti olacaq. Atmosfer təzyiqi 764 mm civə sütunundan 762 mm civə sütununa enəcək, nisbi rütubət gecə 80-90, gündüz 60-70 faiz olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturu gecə 5-10°, gündüz 18-23° isti, dağlarda gecə 2° şaxtadan 3°-dək isti, gündüz 7-12° isti olacaq.

***Q.QASIMOV***
**XQ**

# Üzeyir bəy xatirələrdə

## “Əsərlərim övladlarımdır”

***“Arşın mal alan” filmi çəkiləndə operettanın musiqisini orkestrlə səsləndirmək lazım idi. Musiqi müasir orkestrin müxtəlif alətlərinin dilində əlvan rənglərlə səslənməli idi. Bir dəfə Üzeyir bəyi kinostudiyaya dəvət edir, “Arşın mal alan”da orkestrə edilmiş parçaları çalırlar. Musiqini dinlədikcə, Üzeyir bəyin qaşları çatılır, əli ilə bığlarını didişdirir. Əsəbiləşmiş bəstəkar dərin bir sükutdan sonra heç kəsə baxmadan deyir:***

– Mənim övladım yoxdur. Əsərlərim mənim balalarımdır. Nə üçün onu bu kökə salmışınız?!

Üzeyir bəy haqlı bir qısqanclıqla əsərlərini – balalarını hər cür müdaxilədən, “yenilikdən”, “müasirləşməkdən” qoruyurdu.

## Ananın bəstəkar “uşağı”

***Bəstəkar “Koroğlu” operası üzərində çalışdığı vaxt bəzən gecələr evə gec gələrmiş. Bir axşam Üzeyir bəyin anası Şirinbəyim xanım narahat halda üzünü Mələykə xanıma tutur:***

– Gəlin, ay gəlin, saat 12-yə işləyir, uşaq axı gəlib çıxmadı.

Mələykə xanım təəccüblə:

– Hansı uşaq?– deyə bir az sözünə ara verib, sonra əlavə edir:

– Üzeyiri deyirsən?

– Hə də, bəs kimi deyirəm?



Hamı gülür. Üzeyir bəy bəstəkar kimi artıq şöhrətlənmişdi, amma anası üçün yenə də uşaq olaraq qalırdı.

## “Saat yaxşı oldu ki, itdi”

***Bir gün Üzeyir Hacıbəyli cib saatını yadından çıxarıb, haradasa qoyur. Evdə, iş yerində saatı ha axtarırsa da tapmır. Dostları ondan nə axtardığını soruşanda sakitcə deyir:***

– Saatımı axtarırdım. Yaxşı oldu ki, itdi. Qayışı çox köhnəlmişdi.

Xatırladaq ki, Üzeyir bəy çox əliaçıq, xeyirxah insan olub. Çox sayda tələbələrinə maddi yardımlar göstərib, gənc, istedadlı bəstəkarları himayə edib. Ümumiyyətlə, bu dahi insanın xalqımızın mədəni-mənəvi inkişafında son dərəcə yüksək xidmətləri olub. Azərbaycan xalqı Üzeyir Hacıbəylini özünün ən milli dəyərlərindən sayır.

***Z.HÜSEYNLİ***
**XQ**

Kosmos

# “Hörümçək” neytron ulduzları “udur”

**Beynəlxalq astronomlar qrupu 300 yeni neytron ulduzu tapıb və onları kataloqa daxil ediblər. Tədqiqat elmi jurnada dərc olunub.**



Alimlər bu kəşfləri “Fermi” kosmik qamma-teleskopundan istifadə etməklə apardıqları müşahidələr sayəsində ediblər. Bəzi neytron ulduzlarının saniyədə yüzlərlə dəfə fırlandığı məlumdur və onlara millisaniyə pulsarları deyilir. 2008-ci ildə “Fermi” işə salınmazdan əvvəl bəşəriyyətə 10-dan az belə obyekt məlum idi.

Astronomların gəldikləri nəticəyə əsasən, aşkar edilmiş topluda qara dul hörümçəklərin öz növündən olanları yediyi kimi, qonşuluqda yerləşən ulduzları udmaq qabiliyyətinə görə belə adlandırılmış bir neçə “hörümçək pulsar” var.

Kəşf qalaktikaların necə əmələ gəlməsini daha yaxşı anlamağa kömək edəcək, həmçinin uzaq gələcəkdə kosmosda naviqasiya üçün pulsarlardan istifadə etməyə imkan verəcək.

**XQ**

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
*Şəhadətnamə 022273*

İNDEKS 0282
TİRAJ 4747
SİFARİŞ 3122
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Vaqif BAYRAMOV

Çapa imzalanmışdır
00:00